# Batalyon xatirələri



*Memuar*

Xəzər Dent

Rizvan Axundov
A15 Ağdamım Canım, Qanım
(Doğma Azərbaycanım)
Bakı, «**APOSTROFF**», 2015, – 160 s.

**ISBN 978-9952-404-18-2**

***Müəllif, Rizvan Qorxmaz oğlu Axundov kitabın ərsəyə gəlməsinə görə dərin minnətdarlığını bildirir:***

***Nərgiz Salamova***
***Fuad Ələkbərov***
***Ziya Qasımov***
***Cavid Behbudov***
***Rövşən Axundov***
***Təmraz Əsgərov***
***Solmaz Mustafayeva***
***Hüseyn Mustafayev***
***Həmid Məmmədli***

**Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.**

© Axundov Rizvan Qorxmaz (ARQ), **2015**

# GİRİŞ

Hörmətli oxucum, bu kitabım mənim ilk memuarımdır. Patriotik mövzuda yazılmış kitab inanıram ki, hamınız üçün maraqlı olacaqdır. Dəyərli oxucularım, maraqlı hadisələrlə dolu bu kitabı oxuyarkən ümidvaram ki, bir anlıq 1990-cı illərin xatirələri hər birinizin hafizəsində yenidən canlanacaq və biz bu illəri heç vaxt unutmayacağımıza bir daha əmin olacağıq. Elimizin bu məşəqqətli illəri hər bir azərbaycanlı üçün unudulmaz bir tarix səhifəsidir. Çalışmışam ki, kitabımda o illərin abu- havasını bir az da olsa Sizlərə çatdıra bilim. Ağdamın yaranma tarixi, əhəmiyyəti, statusu, süqutunun səbəbləri, Milli Qəhrəmanları, tarıxi abidələri, kəndləri, qəsəbələri haqqında Sizləri məlumatlandırım. Buna nə dərəcədə nail olmuşam, artıq Siz qərar verəcəksiniz.

Bakının sadə bir müəllim ailəsində bu illərdə baş verən hadisələrlə tanış olacaq, bir Azərbaycan ailəsinə belə ağır günlərin necə təsir etdiyinin şahidi olacaqsınız. Qərvənd batalyonu haqqında heç kəsin bilmədiyi incə məqamları, orada yaşadığım hər bir anı sizlərə çatdırmağı özümə borc bilirəm. Olayın üstündən 20 ildən də çox bir vaxtın keçməsinə baxmayaraq, bacardığım qədər çox şeyləri xatırlamağa çalışacağam.

Mən bütün oxucularımı - nəvələrimi, nəticələrimi, bu kitabı oxuyan bütün gələcək nəsilin nümayəndələrini və ilk növbədə Ağdamımıza, Xankəndimizə, Şuşamıza Azərbaycan bayrağını sancan Mübarizlərimizi, bütün Azərbaycan xalqının qəhrəman və igid oğullarını salamlayıram  və inanıram ki, o gün uzaqda deyil. Oxuduğunuz kitaba sahib olan hər kəsə tövsiyə edirəm ki, bu kitabı Ağdama, Cəbrailə, Füzuliyə, Kəlbəcərə, Qubadlıya, Laçına, Şuşaya, Xocalıya, Zəngilana, Xankəndinə Azərbaycan bayrağını sancan xalqımızın igid və ən bəxtəvər övladlarına təqdim edəsiniz. Qoy görsünlər ki, biz bu günə həmişə inanmışıq və səbirsizliklə gözləmişik. Qoy bütün dünya bilsin ki, biz Qarabağımızdan heç vaxt əlimizi üzməmişik və biz bir qarış belə torpağımızı kimsədə qoymayan bir millətik. Qoy bir də heç kim bizim müqəddəs torpaqlarımıza əl uzatmağa cürət etməsin.

**Yaşasın Azərbaycan!**

# PATRİOTİZM, VƏTƏN SEVGİSİ, YOXSA İNTİQAM HİSSİ

## *Qafqazda bir xəstəlik dolaşmaqdadır – erməni xəstəliyi*

1994-cü il, fevralın 25-dən 26-na keçən gecə idi. Atam divanda uzanıb yatmışdı. 1992-ci ildə baş vermiş Xocalı soyqırımının ildönümü idi. Televiziyada Xocalı faciəsinin anım günü ilə əlaqədar veriliş nümayiş olunurdu. Döşəmədə, palazın üstündə uzanıb həyəcanla həmin verilişi izləyirdim. Xalq Təsərrüfatı İnstitutunun sonuncu kursunda təhsil aldığım illər idi. Əlaçı idim,



yayda baş tutacaq dövlət imtahanları və diplom işindən sonra aspiranturaya daxil olmağı planlaşdırırdım. Bu veriliş mənim bütün planlarımı alt-üst etdi. Əlbəttə ki, Qarabağ və ələlxüsus da Ağdam mənim üçün həmişə daha prioritet məsələ olub və ən yaralı yerim olaraq qalmaqdadır. Sözün düzü, veriliş məni yaman təsirləndirmişdi. Körpə uşaqların min bir işgəncə ilə erməni faşistləri tərəfindən qətlə yetirilməsinə baxa bilmirdim, daha öncə mən belə şey görməmişdim, bu bir vəhşilik və eyni zamanda nəinki Azərbaycan üçün, deyərdim ki, insaniyyətin bəşəri faciəsi idi. Əsəblərim tamam gərilmişdi, gözlərim dolmuş halda verilişi izləyirdim. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduqlarına görə qəddarcasına, dözülməz işgəncələr verilməklə öldürülmüşdü. 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək ağılasığmaz zülmə, təhqirlərə, zorakılığa və işgəncələrə məruz qoyulmuşdu. Erməni vəhşi-hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və bəzilərini yandırmışdırlar.

Xocalı qətliamından möcüzə nəticəsində sağ qalan hadisə şahidləri deyirlər ki, azərbaycan dilində səlist danışa bilən erməni əsgərləri viran qalmış evlərə daxil

olaraq, doğma dilimizdə: “sağ qalanlar var?” deyə soruşurdular. Yaralı və köməksiz xocalılılar köməyin gəldiyini zənn edərək: “komək eləyin, kömək edin” deyə səslənən zaman onların da başlarına atəş açılaraq qətlə yetirilirdilər. Təsəvvür edin ki, bütün ailə üzvləri öz doğma evlərində şirin yuxuda olarkən qəfildən divar yarılır, zirehli texnika içəriyə daxil olur, müxtəlif çaplı silahlardan atəş açılır və günahsız insanlar qanlarına qəltan edilirdilər.

Aygün Həsənoğlunun “Erməni sindromu” kitabından:

"Dörd yaşlı qızıma sataşdılar. Sonra biz qadınları Xankəndində erməni ordusu olan yerə apardılar, lüt soyundurdular, hamımızı zorladılar, sonra yerə yıxıb sürüdülər."

***20 yaşlı bir qızın dediklərindən:***

"Bizi Pircamal kəndində tövlədə saxlayırdılar. Ata-anamın gözü qarşısında məni, 15 yaşlı ortancıl bacımı və 9 yaşlı kiçik bacımı dəfələrlə zorladılar, papiros çəkib bədənimizdə söndürdülər. Yaşlılar, cavanlar növbəyə durub biz bacıları zorlayırdıar, saçlarımızdan tutub sürüyürdülər. Məni Əsgəran milis şöbəsinə gətirdilər, orada uşaqlarımın gözləri qarşısında məni döyərək dəfələrlə zorladılar. Damarıma iynə vurdular, özümdə deyildim. Daha sonra məni itlə əlaqəyə

girməyə məcbur etdilər. Əsirlikdə olan qadınların körpə uşaqlarını alır, gözlərimizin qarşısında göyə atıb avtomatın süngüsünə keçirirdilər. Xankəndində uşaq bağçasında 12-13 yaşlarında qızları zorlayırdılar. Qızlardan birinin anası dözməyib özünü kəndirlə boğub öldürdü. Bir qızı soyundurub lüt halda rəqs etdirmiş, sonra zorlamışdılar. Ertəsi gün həmin qız yabanı qarnına soxaraq özünü öldürdü. 200-dən artıq uşaq, qoca və qadınlarla birlikdə Əsgəran rayonunun milis idarəsinin zirzəmisində saxlanılırdım. Hamımızı avtomat qundağı, təpik və yumruqla döyürdülər. Cavan qız-gəlinlərin başlarını divara vuraraq huşsuz halda sürüyüb aparırdılar. Palatalardan birində 4-5 yaşında bir qızcığaz yatırdı, onun gözlərində müharibənin bütün dəhşətlərini, əzablarını gördüm. Xankəndində erməni əsgərləri olan kazarmada 8 nəfər qızı, o cümlədən məni çılpaq vəziyyətdə dubinka ilə döydülər. Sonra bizi Əsgəran milis şöbəsinə apardılar, yenə də döyüb zorlamağa başladılar. Hələ də bu dəhşətdən özümə gələ bilmirəm. Ondan sonra həyat mənim üçün o qədər iyrənc görünür ki, yaşamaq istəmirəm!”.

Bunları deyən qızın yaraşıqlı sifətində cırmaq, zərbə yerləri aydın görünürdü. Ən dəhşətlisi gözlərindəki ifadə idi, adam bu baxışlara dözə bilmirdi... !!!

Bütün bunlardan sonra erməniləri bağışlamaq olarmı?! Ermənilərlə dostluq, qardaşlıq etmək,

münasibət qurmaq, mehriban və diplomatik danışıqlar aparmaq, bir yerdə kino çəkib, konsert vermək, bir məclisdə oturub şəkil çəkdirmək olarmı?! Yaxınlarımızın toy-məclislərində qol götürüb oynamaq,



meydanlarda konsertlər, telekanallarda şoular düzəltmək olarmı?!

Düşünürəm ki, bu təkcə Xocalının deyil, bütün Azərbaycanın və cümlə azərbaycanlıların faciəsidir, bu bizim dərdimiz, alınmayan intiqamımızdır və biz Qarabağı mənfur ermənilərdən azad edərək, düz İrəvana qədər irəliləməliyik ki, bu qara ləkəni üzərimizdən götürə bilək. Düzdür bizim xalq ermənilər kimi vəhşiliklər törətməyə qadir xalq deyil, ancaq əminəm ki, öz dədə-baba torpaqlarına sahib çıxmağa , analarının, bacılarının ləkələnən namusunun intiqamını almağa qadirdir. Əminəm ki bu məsələ Azərbaycan xalqının qarşısında duran ən vacib və prioritet məsələdir. Bunun həlli üçün hər bir azərbaycanlı qanından-canından, malından-mülkündən asanlıqla keçməyi bacarmalıdır.

Veriliş bitdikdən sonra elə döşəmədəcə uzanaraq dərin fikirə getdim, yuxunun məni necə apardığından heç xəbərim olmadı. Yuxuda özümü Xocalıda, rəhmətlik Çingiz Mustafayevin yanında gördüm. (O, bizim məhəllədə yaşayırdı, Çingizi şəxsən tanıyırdım). Onun xırıltılı səsi ilə: ” üzünü, üzünü qaldır, qaldır üzünü” sözləri ilə yuxudan ayıldım. Səhər saat 9 radələri idi. Atam hələ də yatmışdı. Pəncərədən bayıra baxanda, qarlı, çiskinli bir qış havasının tüğyan etdiyi müşahidə olunurdu. Sanki təbiət də bu gün Xocalı faciəsinə ağlayırdı. Qəmli-qüssəli bir hava onsuz da



*Çingiz Mustafayev*
*29 avqust 1960 - 15 iyun 1992 (31 yaşında)*
*Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib*

ağlayan qəlbimi bir az daha parçalayırdı. Hər yer ağ-qara rəngdə idi, elə bil hava da yas tutmuşdu. Dərin hüzn hissi bürümüşdü hər yanı. Hərdən külək yağışı, qarı pəncərəyə çırpdıqca, sanki göylər Xocalı soyqırımına hönkür-hönkür ağlayırdı. Arvadlara, körpə uşaqlara məhəl qoyulmayan bu dəhşətli qətliam ermənilərin nə dərəcədə vəhşi, terrorcu, insanlıqdan uzaq, murdar və alçaq, millətlikdən kənar bir qəbilə olduqlarını bir daha bütün dünyaya sübut etdi.

Biz Sovetskidə, aşağı Naqornı ilə Bir may küçəsinin kəsişməsində (sonradan Bir may küçəsinə Çingiz Mustafayevin adı verildi) həyət evlərində

yaşayırdıq. Küçəmizdən bir qədər aşağıda, Beşmərtəbə adlanan yerdə, Dövlət Dram Teatrının yanında bir əmanət bankı var idi və mən orada bank təcrübəsi keçirdim. Həmin əmanət bankında Sevda adlı , ağbəniz, gülərüz bir qız işləyirdi. Mən onunla dostluq edirdim. O da mənim xətrimi çox istəyirdi. Hər gün oraya gedib, inistitutda aldığım nəzəri bilikləri praktikada sınaqdan keçirirdim və bu işdə Sevda məndən köməyini əsirgəmirdi. Aramızda qəribə bir isti münasibət yaranmışdı. Mən buna sevgi deməzdim, sadəcə xoş bir dostluq var idi. Sevda həyatı sevən, şıltaq bir qız idi. Bir dəfə məndən sovetin qırmızı pasportunu istədi, mən də heç düşünmədən verdim. Alıb, pasportumun ən son vərəqəsinə qələmlə belə bir şey yazmışdı: “Tanrıdan tek dileyim, sevgi yağmuru altında şemsiyesiz kalmandır!” Altından da imza etmişdi. İndi onun harada olduğundan xəbərim yoxdur, ancaq çox istərdim ki, bu xatirələrimi onunla da paylaşam.

Yuxudan ayılan kimi, könüllü cəbhəyə getməyə qərar verdim. Bilmirəm bu patriotizm, vətən sevgisi, yoxsa intiqam hissi idi, amma bu hal mənə evdə rahat oturmağa imkan vermirdi. Mənə deyirdi: ”Nə oturmusan, dur get cəbhəyə, ermənilərdən Xocalının intiqamını al“. Sanki, namusuma sataşmışlar kimi hisslər bürümüşdü məni. Qabağıma çıxan ermənininin boğazını dişlərimlə gəmirərdim o zaman. Deyərsiniz ki, cavanlıq emosiyalarla dolu olur, ancaq belə deyil. Hesab edirəm

ki, vətənini sevən hər bir kəs uçün bu normal hissdir. Üstündən iyirmi ildən çox zaman ötsə də, indinin özündə də Xocalının adı gələndə, qanım qaynayır, bədənimə sığmır bu qan, o qan ki, vətənə borcluyuq. Ta ki, torpaqlarımız qayıtmayıb, bu hiss, nəinki məni, düşünürəm heç birimizi bu və ya digər dərəcədə rahat buraxmayacaq. Hanı o müqəddəs gün ki, bu intiqam hissi qürur hissi ilə əvəzlənəcək, hanı o gün ki, bayrağımız İsa bulağında dalğalanacaq, Ağdamımızda fəxrlə bərpa işlərinə başlayacağıq?

Səbrimiz tükənib artıq, elə deyilmi, əziz oxucum? Amma darıxma, əminəm ki, lap yaxında nəinki Ağdamımızı, eləcə də bütün Dağlıq Qarabağımızı mənfur düşmənlərdən geri alacağıq, Cünki belə bir mərd nəsil böyüyür ölkəmizdə.

Baxın, nə gözəl uşaqdır, nə gözəl tərbiyəsi var, nə gözəl vətən eşqi var. Bu uşağın 11-12 yaşı ola-olmaya. Qarabağı heç görməyib, ancaq övladımda cəsarətə bax. Söhbət Rüfət balamızdan gedir. O Rüfət balamızdan ki, 20 yanvar 2015-ci ildə şəhidləri ziyarət etmək üçün Şəhidlər xiyabanına gəlmişdi.

**20 YANVAR 2015-Cİ İL.**




*Qisasınızı alacağam!*
*Cəbhə xəttin yaracağam!*
*Ya qələbə çalacağam!*
*Ya da şəhid olacağam!*

*Rüfət, oğlum bağışla,*
*Baxma belə baxışla.*
*Sənə saxladıq yükü,*
*Ağırdırsa, bağışla.*

*ARQ*

***Çəkdi: Həmid Məmmədli***

Həmid Məmmədli: “Bu uşağın adı Rüfətdir. Şəhidlər Xiyabanında rast gəldim və təsadüfən şəklini çəkdim. Hər şəhidin qarşısında baş əyir və uca səslə "qisasınızı alacağam" deyirdi.”

Halal olsun. Əsl tərbiyə budur. Rüfətin bu hərəkəti məni yaman təsirləndirdi və bir anda yuxarıdakı misralar yarandı.

Görürsünüzmü necə nəsil böyüyür? Bunu eşidəndə çox təsirləndim, gözlərim doldu və yuxarıdakı misraları Rüfət balamıza yazdım. Allah saxlasın. Valideynlərinə dərin minnətdarlığımı bildirirəm. Hamımız övladlarımızı bu əhval-ruhiyyədə tərbiyə etməliyik. Əminəm ki, düşməni əzmək üçün belə Rüfətlərdən ölkəmizdə kifayət qədərdir. Tarix boyu Azərbaycan torpağı neçə-

neçə igidlər yetişdirib və bundan sonra da yetişdirəcək. Babəklər, Koroğlular, Cavanşirlər, Qaçaq Nəbilər, Həzi Aslanovlar, Mehdi Hüseynlər, Qafur Məmmədovlar, İsrafil Məmmədovlar, Mübariz İbrahimovlar torpağıdır Azərbaycan torpağı. Mərd igidlər məskənidir Azərbaycan torpağı.



***Qaçaq Nəbi***



İkinci Dünya müharibəsi illərində 3,4 mln Azərbaycan əhalisindən (1941–ci il) 681 min nəfər cəbhəyə göndərilmişdi ( onlardan 10 mindən artığı qadınlar idi), 250 min Azərbaycan əsgəri həlak olmuşdu. Arxiv fondlarında 1941–1945–ci illərdə Qızıl ordu sıralarına çağırılanların sayı haqqında sənədli məlumatlar qorunub saxlanmaqdadır. Bəzi məlumatlara görə, müharibə illərində əsir düşənlərin 50 min nəfərini təkcə azərbaycanlılar təşkil edirdi (əsir düşən əsgər və zabitlərin ümumi sayı – 5 mln. nəfərdən çox idi). Əsir düşənlərin çoxu sonradan geri qayıtmadı. 400 mindən artıq azərbaycanlı hərbi orden və medallar ilə təltif

olundu – 14 döyüşçü – “Şərəf” ordeni ilə, təltif edildi, 123 -ü  Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, Azərbaycanın belə igid və qorxmaz övladları var, olub və gələcəkdə bundan daha da mərd igidləri olacaqdır. Azərbaycan elə bir ölkədir ki, bir çox düşmən ölkələrin onda həmişə gözü və maraqları olub və məhz buna görə də tarix boyu Azərbaycan xalqı olmazın əziyyətlərinə, təzyiqlərinə, zülmlərinə, zorakılıqlarına məruz qalıbdır. Belə bir gözəl ölkənin vətəndaşı olmağımla fəxr edirəm! Unutmayın ki, belə bir ölkənin vətəndaşı olmaq heç də asan iş deyil! Çünki, hər zaman bizim öhdəmizə Azərbaycana aqressiv baxan gözləri oymaq düşür. Bir şeyi unutmayın ki, Allah bizə Azərbaycan kimi gözəl vətən veribsə, onu qorumaq üçün namus-qeyrət də verib. Biz vətənimizin qədrini bilən xalqıq axı.

## AĞDAMA GEDƏN YOL




Nə isə, uzun sözün qısası, “ağdamski” deyilən qara dəri gödəkcəmi və bilərəkdən çox da təzə olmayan paltarlarımı geyinib çox sevdiyim kiçik qardaşım Rövşəni və anam

Sevdanı digər otaqda yatılı vəziyyətdə qoyub Beşmərtəbəyə-Fizuli meydanına tərəf, dostum Sevda ilə vidalaşmağa yollandım. Soruşarsınız niyə "ağdamski" dəri gödəkcə? Mənim yaşıdlarım yaxşı xatırlayarlar. O illər Bakıda ağdamlılar kiçik sexlərdə keçi və qoyun dərilərini aşılayaraq qara dəri gödəkcələr tikirdilər. Bu ğödəkcələr Türkiyə istehsalı olan gödəkcələrdən çox ucuz idi, keyfiyyətinə görə də onlardan xeyli geri qalırdı. Ucuz olduğuna görə özümə belə bir geyim almışdım. Bu gödəkcə çox ağır idi, rəngi də digər paltarlara çıxırdı.

Xülasə, onu geyinib düşdüm yola. Cibimdə bir qara qəpik də yox idi. Gəldim çatdım əmanət bankında çalışan dostum Sevdanın yanına. Onunla elə əmanət bankının önündə qarşılaşdıq. Salam verdim, təbəssümlə salamımı aldı. Həmişəki kimi banka kostyumla gəlmədiyimi görən Sevda nə isə soruşmaq istədi, ancaq mən onun sözünü ağzında qoyub, dedim:

– Sevda vidalaşmağa gəlmişəm. Gedirəm Qarabağa, cəbhəyə, özü də könüllü.

Sevda:

– Rizvan, başın xarab olub? Sən axı institutu bitirməmisən, yayda dövlət imtahanlarındır ey, xəbərin var, hara gedirsən, evdəkilər bilir?

– Vətən daha vacibdir. Evdəkilər isə bilmir. Xahiş edirəm hələ onlara heç bir şey demə.

– Bəlkə getməyəsən?

– Yox, fikrim qətidir.

– Ananın ürəyi partlayacaq.

– Narahat olma, ona da, sənə də məktub yazacağam. (O vaxt mobil telefonlar hələ yox idi)

– Pulun-zadın varmı heç olmazsa?

– Yox. Pulu neynirəm, nəyimə gərəkdir ki?

Sevda çantasından bir qədər pul çıxardıb mənə uzatdı.

– Yox, lazım deyil, çox sağ ol, bacı. Dedim.

– Yox-yox, bəs avtobusa bileti nəcə alacaqsan? Götür xahiş edirəm.

Bilet pulunu götürüb qalanını Sevdaya qaytardım və üz tutdum avtovağzala tərəf. Arxamca titrəyən səslə Sevda:

– Özündən muğayət ol, Rizvan.

Mən, arxaya baxmadan, əlimi yuxarı qaldırmaqla sanki ona "əlvida" dedim.

O zaman avtovağzal Beşmərtəbədən çox da uzaqda deyildi. Bakıxanov körpüsünün yanında, indiki "Natavan Residence"-nin yerində yerləşirdi. Bu minvalla gəldim çatdım vağzala. Ağdama gedən avtobusların yerini öyrənib oraya yaxınlaşdım. Avtobusun yanında bir zabit durmuşdu. Onunla salamlaşdım. O da çox ciddi bir tərzdə mənimlə salamlaşdı. Soruşdum:

– Cənab zabit, Ağdama gedirsiz?

– Bəli.

– Könüllü cəbhəyə getmək istəyirəm, məni də özünüzlə apararsız?

– Xeyir, – deyə cavab verib, avtobusa əyləşdi.

Atam ağdamlı olduğundan tez-tez Ağdama nənə və babamın yanına gedərdim. Bu ziyarəti də həmişə səbirsizliklə gözləyərdim. Amma indi bu başqa bir gediş idi. Mən bu səyahətin ciddiliyini tam məsuliyyətlə dərk edirdim. Amma zabitin bu hərəkətinə o zaman bəraət qazandıra bilmirdim. Niyə mənimlə belə danışdı, bəlkə qanı qara idi – deyə hey düşünürdüm. Birdən hiss etdim ki, kimsə qolumdan yapışıb. Başımı qaldırıb qarşımda orta yaşlı, orta boylu, ağlı-qaralı qivrım saçlı, dolu bir kişi gördüm.

– Bala, Ağdama getmək istəyirsən?

– Bəli.

– Mən gedəsi olmadım, al mənim biletimi, get.

– Sevdanın verdiyi pulları cibimdən cıxarıb, kişiyə uzatdım.Kişi ovucumu, içindəki pullarla bərabər öz soyuq əlləri ilə yumdu və əlimi bərk-bərk sıxıb geri qaytararaq dedi:

– Oğlum, söhbətinizi eşitdim, Allah sənə can sağlığı versin. Get, ay bala, sağ-salamat qayıdasan səni.

Bəlkə də o, tanımadığım orta yaşlı kişinin dualarıdır ki, mən 42 yaşımda bu xatirələri sizlərə yazıram. Təəssüf ki, heç adını da bilmirəm. İndiki vaxtım olsaydı heç olmazsa adını soruşardım. Cavanlıqda çox səhvlər buraxırsan axı. Ağdama




gedirdisə bəlkə o da ağdamlı idi. Görəsən indi haradadır, sağ-salamatdırmı? Çox istərdim ki, bu kitabı oxusun.

– Oğul, amma bu bilet o biri "ikarus"adır. Bax orda durub. Bir saatdan sonra yola düşəcək. – deyə barmağı ilə işarə etdi.

Sevdanın verdiyi pullar ovucumun içində qaldı. Soyuq hava bir qədər mülayimləşmiş, yağıntı kəsmişdi. Çiskinli, buludlu, ahəstə küləkli bir Bakı sabahı idi. Bir anda fikirləşdim ki, bir daha bu avtovağzalı görməyə bilərəm. Ehtiyatda olan bir saat vaxtdan və əlimdə qalan pullardan istifadə edib bir blok "Qarabağ" siqareti aldım, bir az da vağzalı gəzdikdən sonra avtobusa əyləşdim. Xeyli adam vardı. Lakin avtobus Ağdama yaxınlaşdıqca adamların sayı azalırdı. Avtobusda ağ libaslı, əmmaməli, qara saqqallı, əli avtomatlı 2 xarici vətəndaş da var idi. Əfqanıstandan gələnlərə oxşayırdılar.

O vaxt anlamırdım ki, onlar bura nə üçün gəliblər.

Sonradan onların gəlişinin məqsədini öyrəndim. Bilirsiniz ki, sovet dönəmində SSRİ (Sovet Sosialist Respublikalar İttifaqı) Əfqanıstanla uzun müddət müharibə edirdi. Onlar da bura məhz ruslardan intiqamlarını almağa gəlmişdilər. Ruslarla müharibədən çoxlu təcrübə toplayan əfqanıstanlılar yalın əllə rus tanklarını ələ keçirirdilər. Sürünərək tanka yaxınlaşırdılar, qəfil ayağa qalxaraq tankın ön şüşəsinə palçıq atırdılar. Görüntüdən məhrum olan tankçılar şüşəni palçıqdan təmizləmək üçün tankdan çıxmaq məcburiyyətində qalırdılar. Tankın lyuku açılan kimi içəri qumbara ataraq heyəti məhv edib, texnikanı ələ keçirirdilər.

Həmişəki kimi pəncərənin yanındakı oturacaqda əyləşmişdim. Yay tətillərində babamgilə bu yolla dəfələrlə getmişdim. İl boyu yay tətilini gözləyirdim ki, babamgilə – Ağdama gedəcəm. Çox sevirdim İsi babamı.

Babam riyaziyyat müəllimi idi. 1941-1945-ci illərdəki Böyük Vətən müharibəsi veteranı idi. Sol biləyindən faşist gülləsi ilə yaralanmışdı. Dediyinə görə, əsgər yoldaşına işarə etmək üçün səngərdən əlini yuxarı qaldırdığı an bir istilik hiss edib, sən demə, faşist gülləsi biləyinin içəri tərəfindən girib, arxa tərəfindən çıxıbmış. Yaralanan, babamı hərbi xəstəxanaya yerləşdirmiş, sağalandan sonra isə əli işləmədiyinə görə


















***Babam İsi Məşədi Hüseyn oğlu Axundov***
***1919–1987***
***Ağdamın Qarağacı qəbiristanlığında dəfn olunub***

arxa cəbhəyə göndərmişdilər.

Onun ilk nəvəsi idim, bu səbəbdən də İsi babam məni bütün nəvələrindən daha çox istəyirdi. Babam əsl kommunist idi. Sovet hökuməti II dərəcəli

müharibə veteranı olduğu üçün ona pulsuz avtomobil versə də, o, "hökumətdən mənə müftə heç zad lazım dəyil" deyərək bu maddi mükafatdan imtina etmişdi. Çox ağır təbiətli, orta boylu, dolu bir kişi idi. Hamı ondan çəkinirdi, təkcə məndən başqa. Tüklərinin sıx olmasına baxmayaraq, həmişə başını keçəl qırxdırardı. Lap Marşal Jukova bənzəyirdi. Tez-tez mənə cəbhə sərgüzəştlərindən danışardı, mən də maraqla onu dinləyərdim. O zaman mənim 10 yaşım olardı, indi isə yeganə oğlum, Tamerlanın 13 yaşı var. Heyif ki, İsi babam Tamerlanı - birinci nəticəsini görə bilmədi. Ancaq digər tərəfdən də fikirləşirəm ki, yaxşı ki, babam 1987-ci ildə rəhmətə getdi və 1993-cü ildə Ağdamın necə işğal olunduğunu görmədi. Fikirimcə, bu böyük bir xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizim yenidən əldə etməyimiz üçün yeganə çıxış yolu işğal edilmiş torpaqlarımızı geri qaytarmaqdır.

Mənim ən xoşuma gələn babamın cəbhə sərgüzəştlərindən biri belə idi:

Babam bir gün komandirin tapşırığı ilə meşənin içərisindən keçərək kəşfiyyata gedirmiş. Qəflətən qulağına xışıltı səsi gəlir. Yavaş-yavaş ağacların arası ilə səs gələn tərəfə yaxınlaşır və görür ki, bir alman əsgəri mundirini çıxarıb, şalvarını aşağı çəkib ağacın



dibində çöməlib oturub. Babam tez avtomatını ona tərəf tuşlayıb deyir:

– Xəndi xox !

Alman əsgəri əlləri-ni yuxarı qaldırır.

Babam:

– Vstavat !...

– deyə alman əsgərinin üstünə bağırır. Alman əsgəri ayağa qalxıb şalvarını yuxarı çəkmək istəyərkən babam təpiklə vurub onu yerə yıxır, sonra isə onun yerə, yanına qoyduğu MP-38 Şmayzer tipli  alman avtomatını yerdən qaldırır, faşisti əsir götürərək öz batalyonuna gətirir. Komandir əsiri görəndə sevinir və gülə-gülə babama deyir:

–Bundan niyə belə pis iy gəlir, Axundov?

Babam deyir:

– Yoldaş komandir, məni görən kimi qorxudan şalvarını batırdı.

Və bütün polk gülməyə başlayır.

O vaxt, bu əsirdən dəyərli informasiya alındığına görə babamı medalla da təltif etmişdilər.

Bu əhvalatı babamdan tez-tez danışmağını xahiş edirdim, çünki sonunda mən də yaman ürəkdən

gülürdüm. Babam da görünür ən sevimli nəvəsinin bu gülüşündən xoşlanardı və həvəslə bu əhvalatı təkrar-təkrar danışardı.

Mən babamla həmişə fəxr etmişəm. İstəyirdim ki, nəvələrim də mənimlə fəxr etsin. Fikirləşirdim ki, görəsən mən də babam kimi medallarla geri dönə biləcəyəmmi? Babam kimi mən də müharibədən qalib çıxa biləcəyəmmi? Babam ruslarla birgə faşistlərə qarşı, mən isə azad Azərbaycan xalqı ilə ermənilərin simasında ruslara qarşı. Fikirləşirdim ki, görəsən babam mənim bu savaşa getməyimi necə qarşılayardı? Yəqin ki, o da mənimlə bərabər gedərdi. Yox-yox, yəqin, o artıq bu savaşın ən qaynar nöqtəsində, mərkəzində olardı, axı o Ağdamın mərkəzində, Ağamalı oğlu – 40 ünvanında, 2 № li məktəbin arxasında yaşayırdı. Sağ olsaydı o, heç bir vəchlə öz evini tərk etməzdi. Son damla qanınadək ermənilərlə mübarizə aparardı. Yəqin ki, mən də elə o vaxt, Ağdama təcavüz olunan an, İsi babamın yanında olardım...

Bu fikirlərin içində dolaşaraq avtobusun pəncərəsindən Ağdama gedən yolu, o doğma və əziz yolu seyr edirdim. Birdən kiminsə əlini çiynimdə hiss etdim. Dönüb arxamda sürücünün köməkçisini gördüm. O, mənə dedi:

– Oğlum, hazırlaş, düşməlisən. Cəbhə xəttinə yaxınlaşırıq.

Avtobusda çox az adam qalmışdı, hamısı da kişilər.

Əksəriyyəti hərbi formada, 2 nəfər də ağ libaslı, avtomatlı, saqqallı xaricilər. Bir anlıq fikirləşdim ki, buna bax ey, xaricilər gəlir bizim torpaqlar uğrunda döyüşür, ayıb olsun bizə, biz isə gəlib öz Vətənimiz uğrunda döyüşmürük.

– Ağdamda ən yaxşı hərbi hissə hansıdır? – deyə şoferin köməkçisindən soruşdum.

– Ağdam batalyonunu tərifləyirlər, – sürücünün köməkçisi cavab verdi.

– Niyə soruşursan, oğlum?

– Könüllü yazılmaq istəyirəm. Harada yerləşir, deməzsiz?

– Afərin, oğlum. Qərvənddə yerləşir, ancaq səni ora götürməzlər.

– Niyə?

Təəccüblə soruşdum.

– Çünki ora ağdamlıların batalyonudur. Orada hamı ağdamlıdır. Gəl səni başqa hərbi hissəyə aparım.

– Yox, dayı, elə mənə Ağdam batalyonu lazımdır. Haradaydı dedin, Qərvənddə?

– Ay bala, səni ora götürməyəcəklər axı, gəl sözə qulaq as, səni başqa yerə...

Demək istəyirdi ki, mən onun sözünü kəsdim.

– Dayı, sənə qurban olum, apar məni Qərvənd batalyonuna, çox xahiş edirəm. Narahat olma, məni ora götürəcəklər.

– Nə höcət uşaqsan. Yaxşı, irəlidə deyəcəm

düşərsən. Ancaq bax ha mən hər gün burdan keçirəm, Ağdam batalyonundan da çox adam tanıyıram, gəlib səni soruşacam.

– Soruşarsan, dayı. Sən məni ora apar, sonra haçan istəsən gəlib soruşarsan.

– Bax, o qabaqdakı alüminium gümbəzləri görürsən?

– Ağ kupolları deyirsiz?

– Hə, bax oradır, oğlum, düş get. Sənə uğurlar olsun. Əgər götürməsələr yolun kənarında gözlə, 15 dəqiqəyə geri qayıdacam. Səni başqa hərbi hissəyə apararam.

– Sağ ol, dayı, görüşərik. – deyə "ikarus"dan düşdüm.

## QƏRVƏND BATALYONU

Böyük intuziazmla hərbi hissənin darvazasına yaxınlaşdım. Qapıdakı postda duran əsgər yolumu kəsdi və soruşdu:

– Hara gedirsiz?

– Bakıdan gəlmişəm, könüllü olaraq orduya yazılmaq istəyirəm.

O zaman ağlım kəsmirdi ki, könüllü orduya yazılmaq üçün ilk növbədə yaşadığın rayonun hərbi komissarlığına müraciət etmək lazımdır. Mən isə birbaşa Ağdama gəlmisdim.

Ancaq ləhcəm Bakı ləhcəsi idi. Hamını da çaşdıran elə bu imiş.

– Heç bilirsən hara gəlmisən? – deyə əsgər soruşdu.

– Bilirəm, Qərvəndə gəlmişəm, ağdamlıların batalyonuna.

– Onda onu da bilməlisən ki, burda ancaq ağdamlılar xidmət edir. Səni bura götürməyəcəklər, burda hamı ağdamlıdır.

– Xahiş edirəm məni batalyon komandirinin yanına apar.

– Qardaş, dedim axı, səni götürməyəcəklər.

– Mən də sənə deyirəm ki, apar məni komandirin yanına.

– Ağdamda hərbi hissələr çoxdur, başqalarına get – deyə əsgər səsini qaldırdı. Mən ondan da bərk səsimi ücaldaraq:

– Komandiri çağır, dedim.

Səs-küyə içəridən bir zabit bizə sarı yaxınlaşdı. Əsgər onu görən kimi farağat durub hərbi təzim etdi. Zabit üzünü əsgərə tutub dedi:

– Nə olub? Nə səs küydü?

Əsgərin ağzını açmağa macal verməmiş dedim:

– Yoldaş zabit, mən ona deyirəm komandiri çağır o isə çağırmır.

– Nə istəyirsən? Komandir nəyinə lazımdır?

– Yox, mən sözümü ancaq polkun komandirinə deyəcəyəm.

– Polkun komandiri mənəm, de görüm.

Bunu eşidən kimi özümü itirdim. Yaranmış vəziyyətdən istifadə edən əsgər dedi.

– Cənab komandir, Bakıdan gəlib, könüllü yazılmaq istəyir. Mən də başa salıram ki, bura Ağdam batalyonudur, burda ancaq ağdamlılar xidmət edir, başa düşmür.

– Düz deyir, oğlum, burda ancaq ağdamlılar xidmət edir. Deyə komandir postda dayanan əsgərin sözlərini təsdiq etdi.

– Mən də ağdamlıyam. – dedim.

Komandir gülümsədi.

– A bala, sənin haran ağdamlıdır, sən xalis bakılısan, görmürəm?

– Mənim anam bakılıdır, atam isə xalis ağdamlıdır, – deyib qırmızı sovet pasportumu cibimdən çıxarıb ona uzatdım.

Komandir gülümsəyə-gülümsəyə pasportu alıb açdı və bir az təəccüblə, bir az da sevinclə dedi:

– Doğrudan da ağdamlıdır. Budur ey, yazılıb "rodilsya v Aqdame". Gəl arxamca, – deyib, iti addımlarla hərbi hissənin içərisinə doğru irəlilədi.

## BATALYONDA

Sevincimin həddi-hüdudi yox idi. Komandirin özü məmnunluqla məni qəbul etmişdi. Ürəyimdə avtobus sürücüsünü qınayırdım: ”Hə, nə oldu, ay dayı, bəs deyirdin qəbul etməyəcəklər?” İndi gələrsən-görərsən. “Qürur hissilə komandirin arxasınca hərbi hissəyə girdim. Komandirin önünə bəstə boylu, dolu, qumru saçlı, 30-35 yaşlı bir zabit çıxdı və dərhal təzim etdi. Komandir üzünü mənə tutub, başı ilə gələn zabitə işarə edərək qürurla dedi:

– Germandır, polk komandiridir.

Sonra üzünü Germana tutub :

– Bakıdan könüllü gəlib, ağdamlıdır. Yedizdir və necə lazımdır öz polkunda yerləşdir.

Deyib, məni Germana təhvil verdi.

– Oldu! Cənab komandir.

German o dəqiqə mənim xoşuma gəldi. Adı da qəribə idi – German. Cəsur əsgərə oxşayırdı. Sən demə, batalyon komandir məni ən yaxşı polk komandirinə təhvil veribmiş. Bakıdan könüllü gəldiyim üçün hiss edirdim ki, komandir də, German da gəlişimdən qürur duyurlar.

– Demək Bakıdan gəlmisən, eləmi?

Deyə, German soruşdu.

– Bəli, yoldaş komandir.

– Özü də ağdamlısan?

– Elədir ki, var. İstəyirsiz pasportumu göstərim.

– Yox-yox. Lazım deyil. Ağdamın hansı kəndindənsən?

– Özündənəm, yoldaş komandir. İsi müəllimin nəvəsiyəm. Riyaziyyat müəllimi idi. 1950-ci ilə qədər Ağdam rayonu 3 nömürəli məktəbdə, 1955-ci ildən ta 1986-ci ilədək, təqaüdə çıxandan sonra da bir müddət Mahrızlı kənd orta məktəbində riyaziyyat müəllimi işləyib.

– Hə, İsi müəllim Axundov, lap yaxşı tanıyıram, Mahrızlıda mənə də dərs deyib. Kök keçəl kişi idi, başına da panama qoyurdu, eləmi? Qışqıra-qışqıra ucadan ders deməyi var idi. Məktəbdə hamı ondan qorxurdu. Çox zəhmli idi. Necədir kişi?

– 1987-ci ildə rəhmətə gedib, "Qarağacı" qəbiristanlığında dəfn etmişik. Milli Qəhrəman Fazil Mehdiyevi də orda dəfn ediblər. Üzün illərdir ki, heç qəbrini ziyarət edə bilmirik.

Kövrəldim və səsim boğuldu. German da görünür bunu hiss etdi və daha sual verməyərək özü danışmağa başladı:

– Allah qəni-qəni rəhmət eləsin. Lap yaxşı tanıyırdım kişini. Başına yay-qış panama goyardı. Allahverdinin şoferi var ha, Əmir, onların məhəlləsində yaşayırdı. Tanıyırdın Əmiri?

– Bəli.

Əmir, Ağdamda babamgilin evi ilə üzbəüz, yolun o tayında yaşayan Pakizə xalanın böyük oğlu idi, Famil adlı kiçik qardaşı və Aidə adlı, mənimlə yaşıd olan sonbeşik bacısı da vardı. Pakizə xala onları semiçka satmaqla boyütmüşdü. Milli qəhrəman Allahverdi Bağırovun sürücüsü idi.

1003 nəfər Xocalı sakinini əsirlikdən azad edən

"Vətən oğulları" batalyonunun komandiri Allahverdi Bağırov Qarabağ kəndlərində yaradılmış kiçik özünümüdafiə dəstələrinə yaxından köməklik edirdi. Ağdam rayonu ərazisində gedən bütün döyüşlərdə mərdliklə vuruşmuşdu. Onun Xocalı soyqırımı zamanı həlak olanların meyidlərinin döyüş meydanından çıxarılmasında və azərbaycanlı əsirlərin erməni işğalçı əsgərlərin meyidləri və əsirləri ilə dəyişdirilərək azad edilməsində böyük xidmətləri olmuşdu. Həmin əməliyyatlar keçirilən zaman Ağdam rayonu 300 nəfər şəhid vermişdi. Ən böyük hərbi uğuru 1992-



*Allahverdi Teymur oğlu Bağırov*
*Ağdam*
*22 aprel 1946-12 iyun 1992*
*Ağdamın şəhidlər xiyabanında dəfn olunmuşdur*

ci il 12 iyunda Aranzəmin kəndi, Naxçıvanlı kəndi döyüşlərində olmuşdur. O zaman Naxçıvanlı kəndində işğalçıların bütün canlı qüvvəsi və texnikası darmadağın edilmiş, döyüşçülər Əsgəran qalasına qədər irəliləmiş, Pircamal kəndindəki bütün yüksəkliklər tutulmuş, Kətük kəndi ilə üzbəüz mövqe qurulmuşdu. Bu döyüşdən Ağdama qayıdan Allahverdi Bağırov sürücüsü Əmirin idarə etdiyi avtomobildə minaya düşərək şəhid olmuşdu.

– Ayə, qəm yemə tezliklə alacayıq Ağdamı bu qurumsaxlardan. Sən də gedib babanın qəbrini, Fazilin qəbrini ziyarət edərsən. Lap yaxşı eləyib gəlmisən. Bundan sonra Bakıdakı qohumların rahat yata bilər, – deyə, gülümsədi.

Artıq xeyli toxtamısdım. Vəziyyətdən istifadə edib, mən də zarafatla dedim:

– Bakıdakı qohumlarımı bilmirəm, amma bundan sonra o qurumsaq dediyin zatlar yüz faiz rahat yata bilməyəcəklər.

Bu sözlər Germanın elə bil lap ürəyindən oldu. Əlini çiynimə qoyaraq dedi:

– Qaqa, bundan belə onlar heç vaxt rahat yata bilməyəcəklər! Bundan arxayın ola bilərsən.

Mən Germanla yanaşı gəzərkən hərbi hissəni nəzərdən keçirirdim. Hərbi hissənin mərkəzində alüminiumdan hazırlanmış gümbəzlər var idi, həmin günbəzlərin içində isə bilyard stolları durmuşdu.

Görünür bura dinclik dövründə park və istirahət mərkəziymiş.

Ağdamdakı poçtla üzbəüz yerləşən "Qocalar"bağı yadıma düşdü. İsi babamla tez-tez oraya gəzintiyə gedərdik. Bağa gedən yolda, poçtla üzbə-üz su köşkünün içində dondurma hazırlayan aparat var idi. Köşkdə işləyən kişi həmin o dondurma aparatının dəstəyini yuxarıdan aşağıya doğru çəkdiyi zaman kağız stəkana çox da yağlı olmayan qırmızılı-ağlı spiral şəklində dondurma dolardı. Hər dəfə ordan keçəndə babam mütləq o dondurmadan mənə alardı. Dişlərim dona-dona yediyim o dondurmanın dadını hələ də unutmamışam. Sonra da gələrdik "Qocalar" bağına. Babam orada dostu və iş yoldaşı Vəli müəllimlə görüşərdi, uzun-uzadı söhbətlər edərdilər, mən də parkdakı uşaqlarla oynayardım. Babam həmişə öz dostlarının yanında məndən fəxrlə danışardı. Mən də hər zaman onun etimadını doğrultmağa çalışardım...

Biz söhbət edə-edə gəldik çıxdıq kazarmaya. Kazarmanın girəcəyində solda böyük dəmir soba yanırdı, sobadan bir neçə metr aralıda əsgərlər avtomatlarını piramida şəkilində bir–birinə söykəyərək, lüləyi yuxarı şəkildə yerdən qoymuşdular. Çox da hündür olmayan kazarmaya iki mərtəbəli çarpayılar düzülmüşdü. Çarpayının ikinci mərtəbəsində ancaq oturmaq olardı, ayaq üstə durmaq mümkün deyildi. Kazarmadakı əsgərlər hərəsi bir işlə məşğul idi, kimi

məktub yazırdı, kimi avtomatının iki darağını lentlə bir-birinə bağlayırdı, kimi buşlakının cırıqlarını tikirdi. Biri isə avtomatını qucaqlayıb dərin fikirə getmişdi. Sonradan bildim ki, bu Dəli Rövşən ləqəbli, döyüşdə kontuziya almış ən cəsur əsgərlərdən biridir. Biz içəri girər-girməz Rövşən yerindən sıçrayaraq fərəğət durub hərbi təzim etdi. Digər əsgərlər də bütün işlərini atıb fərəğət durdular.

– Azad!

Deyə German komanda verdi və üzünü Rövşənə tutaraq dedi:

– Bu Rizvandır, institutu atıb, Bakıdan könüllü gəlib, ağdamlıdır. Heç kim xətirinə dəyməsin, bundan sonra bizim polkda xidmət edəcək. Ona yer verin qoy yerləşsin. Rövşən, sənə tapşırıram.

Deyib kazarmadan çıxdı.

Rövşən mənim həmən xoşuma gəldi. Mərd və cəsur insanı xatırladırdı. Görünür polkda da hamı onunla hesablaşırdı. Demək olar ki, Germanın sağ əli idi. Mən əlimi ona uzadıb:

– Rizvan.

Deyə özümü təqdim etdim. O da öz növbəsində əlimi sıxdı:

– Rövşən.

– Mənim kiçik qardaşımın da adı Rövşəndir, – deyə ona qarşı pozitivliyimi nümayiş etdirmək üçün gülümsədim.

– Bundan belə, böyük qardaşının da adı Rövşən olacaq.– deyə, Rövşən tam ciddi bir surət aldı. Bu anda polkdan möhkəm bir gülüş qopdu. Mən də gülməyə başladım. Rövşən də özünü saxlaya bilməyib, gülməyə başladı. Bu əsgərlərin yüksək əhvali-ruhiyyəsindən xəbər verirdi və bu mənim çox xoşuma gəlirdi. Əsgərlərin və komandirlərin belə əhvali ruhiyyədə olması heç ağlıma da gəlməzdi. Elə bil ki, qələbə çalacaqlarına tam əminiydilər. Sonradan məlum oldu ki, bu Rövşən də məndən yaşda kiçikmiş. Axı mən institutun beşinci kursundan bura gəlmişdim.

Uşaqlar qapıdan sağda yerləşən çarpayının ikinci mərtəbəsində mənə yer verdilər. Mən bunu hörmət əlaməti kimi qəbul etsəm də axşam, adboydan sonra yanıldığımı anladım. Kazarmada yanan sobanın bütün istiliyi və hisi yuxarı qalxırdı. Bu səbəbdən də çarpayının ikinci mərtəbəsində yatmaq, istidən qeyri mümkün idi, adam lap boğulurdu. Birinci qecə mövqelərdən gələn atəş səslərindən, sobanın istiliyindən, yerimin təzə olmasından, şəhər şəraitindan əsər-əlamət olmadığı bir yerdə yuxuya gedə bilmirdim. Səhərin açılmasını gözləyirdim ki, yerimin dəyişdirilməsini Rövşəndən xahiş edim.

İkinci mərtəbədə yerimi müəyyənləşdirdikdən sonra şəhərdən aldığım “Qarabağ”- filtrli siqaretimi çıxarıb çarpayının üzərinə atdım. Bərk acmışdım. Amma yeməyə nə zaman gedəcəyimizi soruşmağa

utanırdım. Bir siqaret yandırdım. Elə bil ki, bütün kazarma bunu gözləyirdi. Hamı bir-bir yaxınlaşıb məndən siqaret istəməyə başladı. Əsgərlər hamısı filtrsiz "Astra" çəkirdilər. Yəqin ki coxdandır filtrli siqaretə həsrət idilər. Birinci siqaret qutum həmən bitdi. Digərini açdım, o da demək olar ki, bitdi. Mən "Astra" siqareti çəkə bilmirdim. Fikirləşirdim ki, belə getsə mənim aldığım bir blok siqaret heç bir gün də bəs etməyəcək. Nə edəcəyimi bilmirdim.

Əsgərlərə baxıb onların necə də ləzzətlə "Qarabağ" siqaretini çəkdiklərini görəndə isə bu siqareti nə yaxşı ki, aldığımı düşünürdüm. İki blok almadığım üçün peşman idim. "Qarabağ" siqareti çox da bahalı və keyfiyyətli siqaret deyildi, bir qutusu 40 qəpik idi, lakin buna baxmayaraq əsgərlər "Qarabağı" elə aclıqla və doymazyana, elə axıracan çəkirdilər, sanki Qarabağın dərdini–sərini sinələrinə çəkirdilər, özü də lap axıracan. Elə son damla qanlarınadək, son nəfəslərinədək, axıracan mərdliklə vuruşdular Ağdam uğrunda, Vətən uğrunda ağdamlı balaları. Hamısına Allah qəni – qəni rəhmət eləsin, qanları yerdə qalmasın. Onlar Vətən uğrunda canlarından keçərək, ən yüksək məqama – Şəhidlik məqamına ucaldılar.

Birdən kimsə kazarmanın qapısını açıb uca səslə: "yeməyə" – deyə çağırdı. Əsgərlər sıra ilə düzülüb yeməkxanaya tərəf addımlamağa başladılar. Mən də Rövşənin yanında gedirdim. Elə acmışdım ki, az

qalırdım qaça-qaça gedim. Əsgərlər isə aramla addımlayırdılar. Mənə elə gəlirdi ki, biz heç vaxt yeməkxanaya çatmayacağıq. Nəhayət içəri girdik. Yeməkxana, hərbi hissənin içində bir mərtəbəli, təxminən 200 kvadrat metrdən bir qədər çox olan səliqəli bir tikilidə yerləşirdi. Çox ləzzətli qoxu ətrafı bürümüşdü. Elə bilirdim ki, filmlərdə gördüyüm kimi hərə öz qabı ilə böyük bir qazana yaxınlaşacaq, aşbaz isə öz böyük çömçəsi ilə qabımızı dolduracaq. Amma mənim çox böyük təəccübümə rəğmən, belə olmadı. Hamı əyləşdi və hərənin payını öz qabağına gətirdilər. Lap restorandakı kimi. Ancaq ofisiantlar hərbi formada idilər. Birinci borş, ikinci kotletlə qarabaşaq, üçüncü isə kisel verdilər. Yeməklər çox ləzzətli idi, lap evdəki kimi. Yeməyimizi yeyəndən sonra yeməkxananı tərk etdik, çünki digər kazarmalar da yeməyə növbə gözləyirdilər.

Yeməkdən sonra Rövşən boynuma ağ ipə



bağlanmış bir avtomat gülləsi saldı. Lap kulonlu zəncir kimi. Mən artıq hər əsgərin boynunda belə güllə sallandığını müşahidə etmişdim və bunu nə üçün etdiklərini soruşmaq istəyirdim. Bir tərəfdən fikirləşirdim ki, bəzək aksesuarından başqa nə ola bilər axı , digər tərəfdən də əsgərlərin bəzək nəyinə gərək olduğunu düşünürdüm. Maraqlısı

da o idi ki, bu müəmmalı aksesuar hamının boynunu bəzəyirdi. Fürsətdən istifadə edərək Rövşəndən soruşdum. O da cavabında bildirdi ki, bu bizim sonuncu gülləmizdir. Ermənilərə əsir düşməmək üçün ən son anda bu güllədən istifadə etməliyik. Bu dəfə o tam ciddi idi. İlahi, insan da son gülləsindən qürur duyarmış. Əziz və səbirli oxucum, bu elə bir hiss idi ki, bunu ifadə etməkdə çətinlik çəkirəm. O vaxtı heç ağlıma da gəlmirdi ki, zamanı gələndə bu gülləni başıma çaxa biləcəm, ya yox? Soruşsaydılar, əlbəttə, çaxardım, – cavabını verərdim. Elə bil Allahtala ürəyimdən bütün qorxu hisslərini silib atmışdı.

– Mənə nə zaman hərbi forma və silah verəcəklər?– deyə, Rövşəndən soruşdum.

– Bunu German həll edəcək, amma bu dəri kurtkada sənə soyuq olacaq, gedək sənə hələlik bir buşlak verim.

– Çox sağ ol, qardaş.

Hərbi forma geyib, əsgər olmağa çox tələsirdim. Rövşənin mənə verdiyi kiminsə köhnə buşlakını elə həvəslə və qürurla geyindim ki, elə bil həyatımın ən bahalı libasını geyinirdim. Buşlakdan his iyi gəlsə də, bu iy elə bil mənə doğma idi.

– Silahdan istifadə etməyi bilirsən?

– Əlbəttə, orta məktəbdə hərbi təlimdən əla qiymət alardım. İstəyirsən, Kalaşnikov avtomatının tərifini deyim?

– De görüm.

– Модернизированный автомат Калашникова

является индивидуальным оружием и предназначен для уничтожения живой силы и противника.

Sifətindən heç nə anlamadığını açıqca biruzə verən Rövşən:

– Hə, yaman dedin ha, indi isə gedək kazarmaya görüm avtomatı necə söküb yığırsan.

– Gedək.

Bizim vaxtlarda orta məktəblərdə on illik tədris ilinin doqquzuncu və onuncu siniflərində hərbi təlim dərsi keçirilirdi. Mən 1988-1989-cu illərdə doqquzuncu və onuncu sinif tədrisimi davam etdirmək üçün Bakı şəhəri 1 № li Fizika-riyaziyyat təmayüllü internat məktəbinə riyaziyyatdan və həndəsədən imtahan verərək müsabiqə yolu ilə daxil olmuşdum. Məktəb Azərbaycanın ayrı-ayrı rayonlarından istedadlı uşaqları müsabiqə yolu ilə qəbulunun həyata keçirilməsi üçün nəzərdə tutulmasına baxmayaraq, qəbul zamanı hər sinfə Bakı qeydiyyatında olan 4-5 şagird də qəbul edirdilər. Bizim sinifdə Bakıdan dörd nəfər var idi: mən, Şirinov Namiq, Aslanov Yaqub və Balazadə Pərvanə. Rayon uşaqları məktəbin yataqxanasında qalırdılar, şəhərdə yaşayanlar isə dərsdən sonra evlərinə gedirdilər. Məktəbdə nəinki fizika-riyaziyyat, bütün fənlər gücləndirilmiş şəkildə tədris olunduğundan, oranı 3-4 qiymətlərlə bitirən hər kəs asanlıqla instituta girə bilirdi. Məktəbin  məzunlarının 90-95%-i bu və ya digər ali təhsil ocaqlarına daxil olmağa müyəssər olurdular.

Həmin məktəb indi də durur, adını dəyişib, Respublika fizika-riyaziyyat və informatika təmayüllü lisey adlandırıblar. Bakı Dövlət Universiteti ilə üzbəüz yerləşir.

Üzərimizdə əvəzsiz zəhmətlərinə görə başda ən çox sevdiyim riyaziyyat müəllimi – rəhmətlik Musayev Musa müəllim olmaqla, fizika dərsini tədris edən, rəhmətlik – İsmayılov Nizami müəllimə, tarix müəllimimiz, həm də sinif rəhbərimiz, rəhmətlik – Fikrət müəllimə, indinin özündə də liseydə Azərbaycan dili və ədəbiyyat dərsini tədris edən qocaman – Mehdiyeva Səltənət müəlliməyə, hərbi hazirlıq dərsini deyən – Kazımov Ayaz Müəllimə, məktəbin direktoru, həm də astranomiya dərsini tədris edən - Rəsulov Sirac müəllimə və digər müəllim heyətinə 1988-1989-cu illərdə internatda təlim-tərbiyə alan 30 nəfərlik $X^D$ sinif şagirdləri adından dərin təşəkkürlərimi bildirirəm, onların qarşısında baş əyirəm.

Ayaz müəllimin tədris etdiyi hərbi təlim dərsinə hamı bir nəfər kimi hərbi köynək və hərbi qalstukda qəlirdi. Sinfimizdə olan iki qız da daxil olmaqla bütün şagirdlər Kalaşnikov avtomatını söküb yığmağı bacarırdılar. Mən isə avtomatı hamıdan tez söküb yığırdım. Özümə arxayın idim.

Rövşən öz avtomatını çarpayının üstünə qoyaraq, “başla görüm”, dedi. Buşlakı çıxardıb bacardıqca tez avtomatı söküb yığmağa çalışdım. Rövşən qol saatına

baxaraq, belə nəticəni gözləməzmiş kimi yarı təəccüb, yarı fəxrlə dedi:

– 30 saniyə? Afərin! Bu lap əladır ki, söküb yığdığın kimi ata da bilsən, sənə ölüm yoxdur.

– Cəmi cümlətani bir dəfə avtomatdan atmışam, orta məktəbdə, hərbi təlim dərsində, o da tək-tək atəşlə.

– Hmmm. Neynək sabahdan özüm sənə atmağı öyrədərəm. Hələ bir siqaret ver görüm.

Siqaret qutusunu cibimdən çıxarmağımla qurtarmağı bir olurdu. İlk öncə bu mənim xoşuma gəlsə də, artıq bu hal məni narahat etməyə başlayırdı. Siqaretim də qurtarmaq üzrə idi. Filtrsiz siqaret çəkə bilmədiyimdən siqaretlərimə qənaət etmək fikirinə düşdüm. Rövşəndən başqa kim məndən siqaret istəyirdi siqaretin bitdiyini deyirdim. Deyəsən artıq Rövşən də bunu hiss etməyə başlamışdı.

Batalyona gəlişimin ikinci günü idi. Kazarmada, çarpayının üstündə oturmuşdum, anam haqqında fikirləşirdim, düşünürdüm ki, məktub yazmaq lazımdır. Axı hamıdan çox o mənim üçün narahat idi. Bir siqaret yandırıb dərin fikirə getmişdim. Birdən qulağıma bir səs gəldi:

– Qaqa, siqaretindən birini  maa da ver.

– Yoxdur.

Deyə cavab vermişdim ki, birdən qulağımın dibindən dəyən güclü yumuruq zərbəsi məni çarpayıdan yerə sərdi. Bir anda anladım ki, siqaret ola-ola yoxdur

deməyim əsgəri qəzəbləndirib. Ayağa qalxıb mən də cavabını vermək istədim. Ancaq növbəti zərbədən yenə də yıxıldım. Divara söykənmiş kiminsə avtomatını cəldliklə alıb, məni vuran əsgərə tuşladım. Bu zaman kazarmada nərilti qopdu və kiminsə məni arxadan qucaqlayıb yerə yıxdığını hiss etdim. Bir anda kazarmaya sükut çökdü. Ayağa qalxdım. Sən demə, kazarmanın yanından keçən German səs küyü eşidib kazarmaya daxil olubmuş. Sükutu da elə German özü pozdu:

– Nə baş verir burda?

Deyə, qəzəblə Rövşənə, sonra isə mənə baxdı. Mən nə cavab verəcəyimi bilmirdim. Rövşən isə bir addım irəli gələrək:

– Cənab komandir, icazə verin izah edim. Əsgərlər bir-birlərini başa düşməyiblər.

Hadisənin mahiyyətinə çox da varmayan German üzünü əsgərlərə tutaraq dedi:

– Sizin hamınızı buraya zorla tutub gətirmişik, ordan-burdan. Bu isə Bakıdan gəlib, özü də könüllü. Heç kim onun xətrinə dəyməsin, eşitdiniz?!

Deyə yenə üzünü Rövşənə çevirdi.

Rövşən:

– Oldu, cənab komandir.

German kazarmadan çıxan kimi Rövşən mənim qoluma girdi və dedi:

– Rizvan, qaqa, gəl gedək siqaret alaq.

Biz bir yerdə hərbi hissənin darvazasından bayıra çıxdıq. Hərbi hissənin qabağı ilə bir ucu XanKəndinə, Şuşaya, digər ucu isə Bakıya sarı uzanan çox da enli olmayan yol gedirdi. Yolun o tayında isə 15-16 yaşlı bir oğlan açıq havada iki kubikin üzərinə taxta lövhə qoyaraq taxtanın üstünə cürbəcür siqaretlər düzüb satırdı. Yolu keçib həmin siqaret satan oğlana yaxınlaşdıq. Rövşən çatan kimi oğlana dedi:

– Qaqa maa bir siqaret ver.

Oğlan soruşdu:

– Hansından?

– Ə, ən ucuzdusu hansıdırsa ondan? Ay sağ ol, bax bundan "Astra"dan.

– Götür.

Rövşən siqareti götürən kimi, açıb birini damağına qoydu və dedi:

– Qaqa, pulum yoxdu, sora verəjəm.

– Onda qoy siqareti yerinə, pulsuz satmıram, başına dönüm. Pulun olanda gəlib alarsan, qaqa.

Bunu eşidən Rövşənin sanki başına bir qaynar qazan su tökdülər, kantuziyası tutdu, özü də nə tutdu. Əlindəki avtomat bir göz qırpımında şaqqıldadı və oğlana tərəf tuşlandı. Mən onu qucaqlayıb sa-



kitləşdirməsəydim yəqin ki, zavallı siqaret satan oğlanın aqibəti necə olacaqdı onu Allah bilir. Əsəblərini cilovlaya bilməyən Rövşən bu anda nə etdiyini bilmirdi.

– Mən bu vələduznanın rahat yatması üçün burda canımdan keçirəm, o isə bir siqareti maa qıymır, qurumsax!

Deyən Rövşən daha da hiddətlənirdi, özünü idarə edə bilmirdi.

– Rövşən, sakit ol qardaş, qələt eləyib, bilməyib, uşaqdır.

Deyə onu birtəhər sakitləşdirdiməyə çalışırdım. Onu qucaqlayaraq avtomatın oğlana tərəf tuşlanan lüləyini xeyli sağa yönəltməyə müyəssər olmağıma baxmayaraq vəziyyət hələ də gərgin olaraq qalırdı. Gözümün ucu ilə siqaret satan oğlana baxanda isə gördüm ki, rəngi gorxudan ağappaq ağarıb. Quruyub yerindəcə donmuşdu. Rövşən hirslənən zaman ağzından yerə düşən siqareti yerdən qaldırmaq üçün əyilmək istədiyini hiss edib və ona mane olmamaq üçün qollarımı bir qədər boşaltsam da, hələ də əllərimi onun belinin kəmərindən çəkməmişdim. Rövşən yerdən qaldırdığı siqareti bir-iki dəfə üflədikdən sonra yenidən dodağına qoyub yandırmaq istəyərkən, mən də onun əlindəki avtomatı güya kömək etmək məqsədi ilə onun əlindən ehmallıca götürüb və həmən qoruyucuya qoyaraq onun öz çiyninə asa-asa: “qardaş birini də mənə ver” deyərək onun başını qatmağa, fikirini hadisədən

yayındırmağa çalışırdım. Rövşən yenicə aldığı "Astra"nı buşlakının yan cibindən çıxararaq mənə uzatdı. Buna bax ey, pulunu vermədiyi bəs deyil, hələ utanmaz-utanmaz cibinə də qoyub, – deyə mızıldanaraq, papirosu götürüb, dodağıma qoydum və kibridlə yandırdım. Ömründə filtrsiz siqaret çəkməyən adam və "Astra". Yandıran kimi, bir öskürək məni tutdu, gəl görəsən. Bir yandan da siqaretin tütünləri dilimə-dodağıma yapışırdı, tüpürə-tüpürə, öskürə-öskürə qalmışdım.

Mənim bu halımdanmı deyim, yoxsa bir az əvvəl yarı zarafat, yarı iztehza ilə dediyim sözdənmi deyim, Rövşəni dəli bir gülmək tutdu. Elə bil bir az əvvəl hirsindən yazıq siqaret satan oğlanı güllələmək istəyən o deyildi. İstər-istəməz mən də öskürə-öskürə gülməyə başladım. Qorxusundan sarısını udmuş siqaret satan oğlan da gülməklə bu vəziyyətdən çıxmağa çalışaraq, dedi:

– Bağışlayın uşaqlar, qurbandı sizə siqaretlərimin lap hamısı. Mən zarafat eliyirdim.

Mənim cibimdə bir qədər qəpik-quruş var idi və vəziyyətdən istifadə edərək çıxarıb siqaret satan oğlana siqaretin pulunu uzatdım. O pulu almaq istəmirdi. Rövşən "götür-götür" deyəndən sonra aldı və bir qutu da siqaret, mənə uzatdı. Bundan sonra hamı kimi bu siqaretdən çəkəcəyimi anlayaraq alıb buşlakımın cibinə qoydum.

Rövşənlə yaman dostlaşmışdım. O, mənə imkan düşən kimi silahdan istifadə qaydalarını öyrədir, döyüşdə özünü necə aparmağı, sağ qalmağın yollarını başa salırdı. Rövşən avtomatın lüləyindən tutub cəld hərəkətlə avtomatı fırladaraq atəşə hazır vəziyyətə gətirirdi. Bunu mənə də öyrətmişdi. Tez-tez döyüşlərdə baş verən hadisələrdən danışırdı, məni psixoloji olaraq hazırlayırdı.

Atəş xətti Güllücə kəndində idi. Əlalxüsus gecələr, o tərəfdən gələn atəş səsləri səngimək bilmlrdi. Rövşən çox igid və cəsur əsgər olmaqla yanaşı, hər zaman öndə gedərək digər əsgərləri döyüşə ruhlandırmağı da bacarırdı. Sabah da Güllücə kəndi uğrunda döyüşə gedəcəkdi. Döyüşə can atmağıma baxmayaraq, məni hələ də özü ilə aparmırdı və deyirdi ki, hələ hazır deyilsən. Mən isə həmişə onun yadına salırdım ki, qardaş, mən bura döyüşməyə gəlmişəm. Hətta German-dan da məni döyüşə götürməyini xahiş etdim, o da Rövşən deyəni dedi. Sən demə, elə German özü əmr veribmiş ki, məni döyüşə aparmasınlar. Növbəti dəfə döyüşə getmək istədiyimi  Rövşənə söyləyəndə o,  dedi:

– Sabah Allahın köməkliyi ilə Güllücəni azad etsək, söz verirəm ki, o birisi gün səni ora, artıq azad olunmuş kəndimizə, özümlə bərabər aparacağam.

Mövqelərdəki əsgərlər mütəmadi olaraq digər əsgərlərlə tez-tez əvəz olunurdular. Rövşən də həmən

gün döyüşdən gəlmişdi, üst-başı da toz torpağın içində. Çox yorğun görünürdü. Nə isə, elə bil kefi də yox idi.

Mən hərbi hissəyə gələndən Güllücə uğrunda döyüşlər gedirdi. Ancaq nədənsə Rövşənin ürəyinə dammışdı ki, sabah kəndi azad edəcəklər. O, həmişə öndə olduğundan, vəziyyəti də hamıdan yaxşı dəyərləndirirdi. Elə olurdu ki, 4-5 gün döyüşlərdə qalırdı, əvəz olunan əsgərlərlə bərabər geri – kazarmaya dönmürdü. Bu gün də getdiyindən dörd gün sonra çox yorğun halda, bir günlüyə gəlmişdi.

Hava qaralırdı, mövqelərdən gələn atəş səsləri kəsilmirdi ki, kəsilmirdi. Hiss olunurdu ki, bizimkilər təzyiqi xeyli dərəcədə artırıblar. Rövşən təzə qüvvələri toplayıb, səhər yenidən uşaqları döyüşə aparacaqdı, ona görə də əsgərləri kazarmaya toplayaraq, uca səslə dedi:

– Bu gün heç bir kart-mart oynamayacayıq, sabah hamı döyüşə gedir, yaxşı yatıb dincəlməliyik.

Kazarmada onun bir sözü iki olmurdu. İşıqlar söndü, hamı yatağa girdi. Bir anda kazarmaya sükut çökdü. Arabir əsgərlərin öskürək səsləri gəlirdi. Kazarmadakı dəmirdən olan odun peçi sanki, həyəcanlı səslə döyüş marşı çalırmış kimi yanırdı. Mövqelərdən gələn avtomat səsləri isə onu müşayiət edirdi. Gözümə yuxu girmirdi. Birdən Rövşən çarpayısında oturaraq avtomatını qucaqladı və sanki nağıl danışırmış kimi, mülayim səslə dedi:

– Biri var idi, biri yox idi. Bir qoca nənəm var idi.

O, həmişə bizə deyərdi ki, ay bala, sizin ağzınız isti yerdədi. Siz aclıq görməmisiniz, ölüm-itim, müharibə görməmisiniz.

Qəzəbli səslə:

– İndi gördükmü, ay nənə, dincəldinmi, ay nənə, bunumu istəyirdin, ay nənə, o qədər dedin ki, gözə gətirdin, ay nənə, səni yanasan, ay nənə, niyə belə deyirdin, ay nənə ...!

Rövşən hər dəfə daha uca səslə və hirslə "ay nənə" dediyi üçün anladıq ki, onun yenə də kantuziyası tutub. Qucaqladığı avtomat məni daha da çox narahat edirdi. Çünki o, belə anlar özündə olmurdu və hər an atəş aça bilərdi. Uşaqlar tez çarpayılarından sıçrayıb onu sakitləşdirməyə və ehmallıca silahı onun əlindən almağa çalışırdılar. "Rövşən, Rövşən sakit ol"– deyirdilər. Nəhayət uşaqlar ona flyaqada su verərək silahı əlindən aldılar. Ancaq o hələ də sakitləşməmişdi. Birdən sıçrayıb çarpayının üstündən düşdü və bağıra-bağıra dedi:

– Mən daha boya zada getmiyəjəm!

Sən demə, axırıncı döyüşdə Rövşənin ayağı büdrəyərək yıxılıb, yanındakı yoldaşı isə elə bilib, Rövşəni vurdular və qorxudan başlayıb qaçmağa. Rövşən qorxmaz idi və hamıdan da bunu tələb edirdi, ona görə də bu hadisə onu bərk əsəbləşdirmişdi. Döyüşdən sonra kazarmaya qayıdanda onun hirsi hələ də buna görə soyumamışdı. Rövşən həmişə döyüşdə

irəlidə gedərdi, uşaqları da öz ardınca aparardı. İndi isə hirslə dedi:

– Hamınız qorxaqsız. Birinin ayağı büdrəyib yıxılanda qoyub qaçırsız. Mən o, oğlanla boya gedəcəm ki, mənim şərtimi qəbul etsin.

Hamı bir ağızdan:

– Nə şərt, nə şərt?

– Əgər məni yaralasalar və kimsə məni atıb getsə, arxadan onu vurajam! Mən də döyüş meydanında yaralı kimisə qoyub qaçsam, qoy məni arxadan vursun. Bu şərtlə kim gedirsə döyüşə, gedək! Düşmənə arxa çevirəni, özüm arxadan vurajam, Seyid Lazım ağanın cəddi haqqı vurajam. Ayə ayağım büdrəyib yıxılmışam, qurumsax, qoyub məni qaçır. Çağırıram ki, ayə qorxma, qaçma, kömək elə ayağa durum, daban əllialtı qaçır, qurumsax gədə.

18 yaşlı əsgərlərin qorxması Rövşəni hiddətləndirirdi. Çünki o özü qorxmaz idi. Hamı anlayırdı ki, Rövşən zarafat etmir və döyüşdən gaçan ən yaxın dostu olsa belə Rövşən onu arxadan vuracaq. Bu çox sərt və mərdanə bir bəyanat idi. Bəlkə də Güllücənin alınmasında Rövşənin bu bəyanatı əvəzedilməz bir rol oynamışdı. Bəlkə də ona görə Rövşən əmin idi ki, Güllücə sabah azad ediləcək, nə bilmək olar.

Səhər açılanda Rövşəndən bir daha məni də döyüşə aparmağını xahiş edərək dedim:

– Rövşən, qardaşım, qoy mən də gedim, nə olar ki,

Allah haqqı geri qaçmayacam, əgər qaçsam məni də vurarsan.

Rövşən məni qucaqlayaraq bərk bağrına basdı və qulağıma pıçıltı ilə dedi:

– Rizvan, apara bilmərəm ey, German əmr edib ki, səni heç hara aparmayım. Əmrdən çıxa bilmərəm. Sənə görə başımla cavabdehəm, onu bilirsən?

– Axı mən də döyüşmək, ermənilərin başını əzmək istəyirəm. Bura nə üçün gəlmişəm, yeyib-yatmağa?

– Darıxma, darıxma bezəcəksən döyüşlərdən. Hələ deyəcəksən ki, ay Allah bu müharibə haçan qurtaracaq?

– Erməniləri əzməkdən bezmərəm. Ancaq müharibədən kim bezmir ki. Yaxşı, qardaşım, kəndimizi azad et və sağ salamat geri dön. Sənə uğurlar arzulayıram.

Deyib, boynumdan asılan son gülləmi çıxardıb onun boynuna, onun son gülləsini isə öz boynuma saldım və "qayıdanda dəyişərik" dedim. Burda bir fəlsəfə var idi. Döyüşə getmirdimsə, deməli, mənim son gülləmin açılma ehtimalı daha az idi. Açılma ehtimalı daha az olan gülləni onun boynuna salmaqla sanki, onun sağ-salamat və qələbə ilə geri dönməsini sağlamaq istəyirdim. Rövşən cəsarətli olmağı ilə yanaşı, həm də atalar demişkən ermənini gözündən vururdu. Bu mənanı tez anlayan Rövşən minnətdarlığını bildirirmiş kimi, mənim əlimi möhkəmcə sıxaraq, cəld bir hərəkətlə hərbi maşının kuzasına qalxdı. Əsgərlərlə

dolu bir neçə hərbi maşın Güllücəyə yollandı. Bir neçə dəqiqədən sonra isə yaralılarla dolu bir maşın, yorğun və taqətdən düşmüş əsgərlərlə dolu üç maşın və şəhid olmuş əsgərləri gətirən bir maşın hərbi hissəyə daxil oldu. Mən bilirdim ki, bu əsgərlərin bir çoxu geri qayıtmayacaq, bir çoxu yaralanacaq. Ancaq nədənsə Rövşənin sağ-salamat qayıdacağına inanırdım. Axı öz son gülləmi onun boynuna salmışdım. Elə bil ki, düşmənin gülləsi də ondan qorxurdu. Həmən gecə əsgərlərimiz dönmədi. Avtomat səslərindən görünürdü ki, qızğın döyüşlər gedir. Hələ də Rövşənin verdiyi buşlakda gəzirdim. Bir həftə idi ki, hərbi hissədə idim, ancaq mənə nə geyim, nə də silah verməmişdilər. Bu hal bir az məni qıcıqlandırırdı. Daşın üstündə oturub fikirə getmişdim, birdən qulağıma səs gəldi:

– Əsgər!

Hələ məni heç kim belə çağırmamışdı. Başımı qaldırıb batalyon komandirini görüncə, sıçrayıb yerimdən qalxdım, fərəğət durdum. Papağım olmadığı üçün çest vermədim. Çoxdandı komandirdən söz soruşmaq istəyirdim.

– Burda niyə oturmusan, Bakılı Ağdamlısı?

– Bağışlayın, cənab komandir, mənə nə silah verilib, nə də hərbi forma. Mən bura döyüşməyə gəlmişəm, boş-boş oturmağa yox!

– Boş-boş oturmağını demirəm ki, hamı yeməyə

gedib, sən niyə getmirsən? Buranın yeməkləri xoşuna gəlmir?

Deyə komandir yarızarafat, yarıistehza ilə soruşdu.

– Əlbəttə xoşuma gəlir, cənab komandir. Ancaq mənə yeməkdən əvvəl silah və hərbi geyim lazımdır.

– Sifariş vermişəm, hərbi geyimini bu yaxınlarda gətirəcəklər, o ki, qaldı silaha döyüşə buraxıldığın zaman şəxsən öz silahımı sənə verəcəm. İndi isə gəl, gəl gedək bir az çörək yeyək.

Normalda zabitlər əsgərlərlə bir yerdə yemək yemirdilər, ancaq bu dəfə komandirlə birgə yeməkxanaya daxil olduq və əyləşdik. Əsgərlər o dəqiqə bizə növbədən kənar yeməklər gətirdilər. Ürəyimi fərəh hissi bürümüşdü. Axı batalyon komandirinin özü şəxsən mənimlə bir masa arxasında oturub çörək yeyirdi. Sonradan öyrəndim ki, komandir tez-tez əsgərlərlə birgə yemək yeyir ki, görsün əsgərlərə bişirilən yeməklə, zabitlərə verilən yemək arasında fərq varmı, yoxmu. Sən demə, bu bir yoxlama xarakteri daşıyırdı. Ancaq yenə də mənimlə oturmağı mənə ləzzət edirdi.

– Hə, necədir, xoşuna gəlir?

Deyə, yeyə-yeyə məndən soruşdu.

– Əlbəttə, mən heç evdə belə ləzzətli yemək yeməmişəm.

– Ye-ye, nuş olsun.

Mənə elə gəlirdi ki, mənim ondan, onun da məndən

qürur duyması kənardan hiss olunur. Birdən bir başqa zabit içəri girib komandirin qulağına nə isə pıçıldadı. Yeməyini yarımçılıq qoyub, cəld ayağa qalxan komandir sevinclə dedi:

– Güllücəni aldıq !

Bunu eşidən bütün içəridəki əsgərlər ayağa qalxıb qışqırdılar:

– Urraaaaaa!!!

Hamı bir-birini sevincdən qucaqlayırdı.

– Rövşən sağdır? Deyə soruşdum.

– Sağdır-sağdır. Xəbəri elə o çatdırıb.

Deyər-deməz, mən yeməyi unudub yeməkxanadan bayıra sıçradım. Rövşən sağ-salamat durub gülə-gülə mənə baxırdı.

– Nə oldu, əsgərlərdən geri qaçan olmadı ki bu dəfə ?

– Yox əəə, bu dəfə ermənilər qaçırdılar. Özü də daban əlli altı.

– Afərin, afərin uşaqlar.

– Güllücəni dığalardan azad etmişik, sabah kəndə girəcəyik, təmizləmə işləridir. Getmək istəyirsən?

Boynumdakı Rövşənin son gülləsini çıxarıb, ona uzadaraq:

– Gülləmi qaytar, deyəcəm. Əlbəttə istəyirəm, – deyə cavab verdim.

– Al, bu da sənin güllən, ancaq mənim arxamca gələcəksən, eşitdin? Germandan icazəni almışam. Deyib ki, baş komandir bilməsin.

– Hə, əlbəttə, hardan deyirsən ordan da gələrəm, sən de görüm çoxmu adam itirdik?

– Yox ayə 5-10 yaralımız var, vəssalam.

Güllücəyə olan bu səfər döyüş olmasa da mənim üçün çox maraqlı idi. Bütün gecəni yatmayaraq sabahkı gün haqqında fikirləşirdim. Ağdamın özünü də belə tezliklə alacağıma əmin idim.

Siqaret tüstüsü ilə dolu olan kazarmada əsgərlər yenə də həmişəki kimi çarpayılarının üstündə kart oynayırdılar. Oyun zamanı yaranan mübahisələr qızışdıqca Rövşən onları belə sakitləşdirirdi:

– Ayə, sakit oynayın, bu dəyqə duruf kartlarınızı alajam. 15 dəyqədən sonra hamı kartları yığışdırsın, yoxsa sabah padyoma dura bilmiyəjəyih. Eşitdiniz? Məni nervilışdirməyin ha, bu dəyqə kontuziyam tutajax.

Rövşənin yanında qrad partladığına görə həqiqətən də kontuziya almışdı, ancaq xoşbəxtlikdən elə də ciddi yaralanmamışdı.

Rövşən özü də kart oynayırdı. Bu əsgərlərin gecə əyləncəsi idi. Bəlkə də bu yolla onlar bir anlıq stressdən azad olurdular. Mən isə nədənsə bu kart oyunlarına qoşulmurdum. Bəlkə hələ təzə idim, ona görə.

Səhər "padyom" komandası ilə tez geyinib həyətdə sıraya düzüldük. German naryadları elan etdi. Göstərişlərini verdi. Sonra səhər yeməyinə yollandıq. Əsgərləri cəbhədə çox yaxşı yedizdirirdilər. Mən özüm

də yeməyə böyük həvəslə gedirdim. Yeməklər də çox ləzzətli və keyfiyyətli idi. Səhər yeməyindən dərhal sonra Rövşən kazarmanı başına toplayıb, Güllücəyə haralardan və necə daxil olacağımız barədə əsgərləri təlimatlandırdı. Yaralı ermənilərin və minalı sahələrin olacağının istisna olmadığını bildirib əsgərlərdən son dərəcə ehtiyatlı olmağı xahiş etdi. Haqlı idi. Hər gün atəş xəttindən onlarla yaralı və şəhid olmuş əsgərlər hərbi hissəyə gətirilirdi. Minaya düşmək ehtimalı da çox yüksək olduğundan Rövşən tək heç yerə getməməyi mənə dönə-dönə tapşırmışdı. Hər gün qan görürdük. Yaralı əsgərlərin zarıltısını eşitmək, inanın ki, şəhid olmuş əsgərləri görməkdən daha ağır idi mənim üçün.

Rövşən başda olmaqla yollandıq Güllücə kəndinə. Rövşən məni bir əsgərə təhkim etmişdi və ondan aralanmamağı əmr etmişdi. Özü isə hamıdan qabaqda gedirdi. Güllücədəki donuz fermasına yaxınlaşar - yaxınlaşmaz fermanın arxasından xorultulu, qəribə səslər eşitdik. Rövşən sağ əlində avtomat, sol əlini yana açaraq sanki hamının dayanmasını əmr etdi. Hamı dayandı, Rövşən isə yavaş-yavaş fermanın arxasına, səs qələn tərəfə keçməyə başladı. Birdən atəş səsləri gəldi. Hamımız fermanın arxasına keçəndə tükürpədici bir hadisənin şahidi olduq. Sən demə, fermanın arxasında bir donuz erməni əsgərinin meyidinin qarnına başını soxaraq xorultu ilə onu yeyirdi. Bunu görən Rövşən isə

avtomatın bir daraq gülləsini donuzun qarnına boşaltmışdı. Biz arxaya keçəndə gülləsi gurtarmağına baxmayaraq Rövşən hələ də avtomatının tətiyini dal-badal çəkirdi. Mən hələ ömrümdə belə bir iyrənc mənzərə görməmişdim. Ürəyim gəldi ağzıma. Özümdən asılı olmayaraq qusdum. Bu halım məni çox utandırdı. Ürəyimdə fikirləşdim ki,  görünür doğrudan da hələ döyüşə hazır deyiləmmiş. Axşamadək kəndi erməni əsgərlərinin meyidlərindən və minalardan təmizlədik. Təmizləmə əməliyyatını uğurla başa çatdırdıq. Səhərisi gün eşitdim ki, Rövşən məni özü ilə Güllücəyə apardığına görə batalyon kamandiri Germanı möhkəm danlayıb.

## ETİRAF

Artıq onuncu gün idi ki, mən batalyonda idim. Yavaş-yavaş hərbi mühitə, kazarma rejiminə alışmağa başlamışdım. 1994-cü ildə hərbi hissələrimizdə indiki kimi şərait yox idi. Hamam bir yana, heç ayaqyolu da yox idi. Əl-üzümüzü qışın oğlan çağında kəhrizdən axan buz kimi su ilə yuyurduq. Ancaq yayda kəhrizdə çimmək imkanı var idi. Kazarmada hər iki əsgərə bir avtomat 5x45 verilmişdi. Silah və ələlxüsus texnika qıtlığı hiss olunurdu.

Ev üçün darıxmışdım. Anam tez-tez yuxuma girirdi. Fikirləşirdim ki, atam əlbət mənim xəbərsiz evdən getməyimə bərk qəzəblənib. İndi mənim yeganə

övladım Tamerlan xəbərsiz, filansız evdən getsə ürəyim partlayar. Özüm ata olandan sonra başa düşürəm ki, valideynlərimə nə qədər acı çəkdirmişəm. O zaman isə nəinki övladım yox idi, heç evli belə deyildim və bütün bunları anlamırdım. Anlamırdım ki, atam məni sonda morqlarda belə axtarıb, anlamırdım ki, anam göz yaşları töküb. Anam hətta atama demişdi ki, oğlumu tapmayınca evə qayıtma. Kaş insanlar ikinci dəfə həyata gələrdilər və o zaman birinci həyatındakı səhvləri ikinci dəfə təkrar etməzdilər, heç vaxt valideynlərini incitməzdilər, onları nigaran qoymazdılar, bir sözlə daha ağıllı olardılar. Əfsuslar olsun ki, bizim övladlarımız uşaqlıqlarından öncə yaşlı həyat sürməyiblər və bilirik ki, bu mümkünsüzdür. Ona görə də biz valideynlər övladlarımızın hər cür səhvlərini bağışlamağı bacarmalıyıq, çünki onlar böyük olmasalar da biz axı uşaq olmuşuq haçansa.

Həmişə ata və övladlar arasinda özünəməxsus bir baryer olur. Onlar bir-birlərini başa düşməkdə çətinlik çəkirlər. Fikrimcə, bu anlaşılmazlığı aradan qaldırmaq məhz atanın məsuliyyətidir. Övladlarımızı vətənpərvər ruhda böyütmək, onlara gözəl tərbiyə vermək, vətənə, cəmiyyətə yararlı bir şəxs kimi formalaşdırmaqda biz ataların əvəzsiz və böyük rolu var. Çox təəssüf ki, bütün bunları ata olandan sonra dərk edirik. Cavanlıqda bütün bunları dərk etmədiyimə görə gec də olsa atamdan üzr

istəyirəm. Kaş, atam sağ olaydı və mənim bu etiraflarımı eşidəydi.

Qışın günəşli bir günü idi. Nahara hələ bir neçə saat qalmışdı. Buna baxmayaraq möhkəm acmışdım. Siqaret deyirlər aclığı öldürür. Ancaq siqaretim də qurtarmışdı. Bu zaman Rövşənin keyfsiz mənə tərəf gəldiyini gördüm. Onun siqareti bitəndə, belə yazıq bir hal alırdı. Yaxınlaşıb söz demək istəyirdi ki, tez qoluna girib dedim:

– Rövşən, məndə də siqaret qurtarıb, gedək o gədədən alaq.

– Hardan bildin ə, siqaret istiyəjəm?

– Sir-sifətindən, hardan biləcəm.

Deyən kimi Rövşənin çatılmış qaşları açıldı, sifətində gülüş peyda oldu.

– Ə, oğulsan ey, qaqa. Pulun var siqaret almağa?

– Yox. Səndə avtomat var da, pulu neyniyirsən?

– Ay qaqa, bu dəfə o siqaret satan gədə avtomatla da maa siqaret vermiyəjəyh.

– Niyə, qardaş?

– On paşka siqaretin pulun borjluyam ona.

– Qorxma, bu dəfə mən nisyə götürəcəm.

– Qaqa vermiyəjəyh.

– Ayə verəjəh dana, verəjəh.

Deyə onun kimi Ağdam ləhcəsində danışmağa çalışdım.

– Ayə, vallah vermiyəjəh.

– Qardaş, narahat olma, mən ona öz qara dəri gödəkcəmi vermişəm. Onsuz da burda geyinmirdim. Buşlakın canı sağ olsun.

– Qaqa, başın işləyir ha.

– Əbəs yerə Narxozda oxumurdum ki.

– Ayə, narkoz nədir? Həkimliyi oxuyurdun?

– Yox ay kişi, Nar Xoz, yəni "narodnoe xozyaystvo" - Xalq Təsərrüfatı İnstitutu, yəni iqtisadçı.

– Həəə, deyirəm axı, yaman qərbə alver eləmisən. İndi de görək sənin kurtkana nə qədər siqaret düşür?

– Kurtkamı 250 manata almışdım, gədəyə 50 manata vermişəm.

– Ayə sən güjdü iqtisadçısan, başına dönüm.

– Əlaçı idim. Lenin "stipendiyası" verməli idilər, Sovet İttifaqı dağıldı.

– Cəhənnəm olsun "Sovet İttifaqı", görüm tifaqı dağılsın Sovet İttifaqının, öz ittifaqımızı qurajıyıx, qaqa.

Söhbət edə-edə gəlib çıxdıq yolun kənarına. Siqaret satan oğlan bizi görən kimi, iki "Astra" siqaretini bizə uzatdı. Mən kurtkanın puluna filtrli siqaret də ala bilərdim, ancaq həmrəylik göstərib yenə "Astra" aldım, bir də ki, artıq öyrəşmişdim. İnsan hər çətinliyə necə də asanlıqla alışarmış, İlahi. Kimi bu çətinliyi könüllü qəbul etmişdi, kimisi isə öz iradəsindən asılı olmayaraq düşmüşdü buraya. Çox qəribə bir hal müşahidə olunurdu. Burada öz arzusu ilə çətinliyə

düşənlərlə, məcburi çətinliyə düşənlər arasında bir qruplaşma yaranmışdı. Hamı öz evinin, ailəsinin xiffətini çəkirdi, ancaq bəziləri dözməyib kazarmada adboydan sonra ağlayırdılar. Bəli, bəli lap uşaq kimi ağlayırdılar. Ağlayanlar məhs qeyri-iradəsiz bura düşənlər idi, 18 yaşında hərbi xidmətə çağırılanlar idi. Lakin onların da içində özlərini toparlayıb, mərdi-mərdanə düşmənə sinə gəlməyi bacaran qardaşlar var idi. Və etiraf edim ki, onlar əksəriyyət təşkil edirdi.

Elə olurdu ki, uşaqlar bir neçə gün ac-susuz hərbi mövqelərdə olurdular, səngərlərdə gecələyirdilər. Həmin ağır döyüşlərin birindən sonra Rövşən bir əsgərin üstünə bağıraraq, “niyə atəş açmadın, niyə atəş açmadın” deyə hirsini yenə də cilovlaya bilmirdi. Az qala əsgəri öldürəcəkdi. Əlindən güclə aldıq. Sən demə, əsgər səngərdə növbə çəkən zaman, düşmən tərəfdən ani anda bir saqqallı yaraqlı əlində PK (pulemyot Kalaşnikov) səngərə tərəf atəş aça – aça səngərin bir başından digər başına qaçıb və gözdən itib. Postda olan əsgər isə ona atəş açmaqdan qorxub. Sonra mən özüm ertəsi gün həmin əsgərlə danışdım. Dostcasına əlimi onun çiyninə qoyaraq soruşdum:

– Qardaşım, həqiqətən sən niyə atəş açmadın ki?

– Vallah, Rizvan, barmağım tətikdə idi, o erməni dığası da düz nişangahımda.

– Bəs niyə vurmadın o alçağı?

– Qorxdum.

– Ayə, nədən qorxdun, evini Allah yıxmasın.

– Rizvan, qaqa, qorxdum birdən gülləm boşa çıxar, o da o öz pulemyotunu mənə tərəf döndərər, parça-parça olaram eey, qaqa.

O zaman düşündüm, görəsən onun yerində mən olsaydım, atəş açmağa cürətim çatardımı? Rövşən olsaydı yüz faiz atəş açardı və bizə göstərib qürurlanmaq üçün erməni yaraqlısının qulağını da kəsib kazarmaya gətirərdi. Əsgərlər adətən öldürdükləri ermənilərin qulaqlarını kəsib, sapa düzürdülər, lap zəncir kimi. Sapdakı erməni qulaqları qısa bir müddətdən sonra quruyub qapqara qaralırdı, heç insan qulağına da oxşamırdı. Bu zəncirin uzunluğu əsgərin qəhrəmanlığından xəbər verirdi. Sonra fikirləşdim ki, əlbəttə mən də atəş açardım. Çünki ölümdən qorxsaydım heç bura gəlib çıxardımmı? Ancaq erməni qulağı kəsə biləcəyimə söz verə bilməzdim.

## SON GÜN

Ağdamın Qərvənd kəndi. 1994-cü il, günəşli mart ayı, saat 13-14 radələri. Rövşənlə Ağdam yolunun üstündə durub, indicə aldığımız "Astra" siqaretini ləzzətlə çəkirdik. Yazın gəlişi ilə təbiət sanki canlanmışdı. Qaratoyuğun səsini bütün quşların səsindən seçirdim. İndinin özündə də qaratoyuq oxuyanda ... Ağdam yadıma düşür. Mülayim, günəşli yaz

günü bir anlıq mənə müharibəni unutdurmuşdu desəm yanılmazdım. Evimiz, anam, qardaşım Rövşən ( o zaman onun 17 yaşı var idi) yadıma düşdü. Gələn il o da hərbi xidmətə getməli idi. Fikirləşirdim ki, bu addımımla ona yaxşı örnək olmuşam. Ancaq ev üçün də möhkəmcə darıxmışdım. Nə anam Sevdaya, nə də bir yerdə işlədiyim dostum Sevdaya vaxt tapa bilmədiyimdən hələ də məktub yazmamışdım. Sözün düzü, dostlarımın yanında məktub yazmağa bir az da utanırdım. Ancaq sağ-salamat olduğum haqda onları xəbərdar etməliydim. Bu vaxta qədər ailəmi nigaran qoyduğum üçün vicdan əzabı çəkirdim. Mütləq bu gün bir xəlvəti yer tapıb məktubu yazacağımı özüm-özümə söz verdim. Bu zaman siqaretimin bitdiyini hiss etdim. Birini də qutusundan çıxarıb dodağıma qoyarkən Rövşənə nəzər saldım. O da əlini ağaca söykəyərək nə haqdasa düşünürdü. Tünd yaşıl komuflyaj rəngdə hərbi forma, çiynindəki "Kalaşnikov" avtomatı, belində kəmərə bərkidilmiş flyaqa (su qabı), ayağındakı uzunboğaz çəkmə ona çox yaraşırdı. Bir anlıq hətta ona paxıllığım da tutdu. Çünki mənim hərbi geyimdən bircə buşlakım (komuflyaj rəngli, qalın, isti hərbi gödəkcə) var idi. Nə silah vermişdilər, nə də tam hərbi geyim. Rövşənə tərəf bir addım yaxınlaşaraq çiynimi çiyninə vurub dedim:

– Ayə, German mənə nə vaxt avtomat verəcək? Nə vaxt mən də sənin kimi əsgərə oxşayacam? Mən

döyüşməyə gəlmişəm bura, yoxsa nəyə? Bax bu gün də mənə silah, hərbi geyim verməsələr, inciyib qayıdacağam Bakıya,– dedim.

– Rizvan, qaqa, dörd ildir ki, burdayam daha görmədiyim şeyləri görmüşəm. Bilirsən necə yorulmuşam? Məmnuniyyətlə silahımı, formamı sənə verib ozüm gedərdim, ancaq mənim getməyə yerim yoxdur, mənim yerim buradır, mənim evim buradır.

– Ay kişi, zarafat edirəm heç yerə gedən deyiləm. Əslində mənim də evim burdadır, Ağdamın özündə. Mən orda doğulmuşam, üc yaşina qədər məni babam, nənəm saxlayıb. Əsl evim də bax oradır, Ağamalıoğlu–40 küçəsində, Muradbəylidən bəri. İndi erməni işğalı altındadır, gəlmişəm evimi ermənilərdən geri alım.

– Ayə, ermənilərdən yox ey, ruslardan. Erməni nə zibildir gəlib bizim evimizi alsın? Babam deyir ki, qapımızda hambal işləyirdilər inqlabdan qabaq. Onları adam hesab edən ruslardır, ruslar.

– Düz deyirsən, qardaş, həm də qorxaqdırlar. Bakıda oxuduğum 2 saylı beynəlmləl orta məktəbdə çoxlu erməni balaları, rus balaları da oxuyurdular. Dava dalaş zamanı qan görəndə ürəkləri gedirdi ermənilərin. Həm də çox yaltaqdırlar.

Hərbi hissənin qabağında Rövşənlə dayanıb söhbət edə - edə nəzərlərimi Bakı istiqamətində olan yola yönəltmişdim və uzaqdan qırmızı - Bakı-Ağdam "ikarus"unun aramla bizə sarı gəldiyini müşahidə

edirdim. Asta gəlişindən dayanacağı bəlli idi. Avtobuslar cəbhə xəttinə yaxinlaşdıqca, sərnişinlər bir-bir nəqliyyatı tərk edirdilər və döyüş bölgəsinə çatanda adətən avtobusda 4-5 adam qalırdı. Rövşənlə yol kənarında durub, yaxınlaşan avtobusu seyr edərkən “ikarus”un iri ön şüsəsinin arxasında, sürücünün yanında ayaq üstə duran bir kişi nəzərimi cəlb etdi. Siqareti saxladığım barmaqlarımı gələn ikarusa sarı uzadıb, dedim:

– Rövşən, o avtobusdakı kişini görürsən?

– Hə görürəm, nədi ki?

– Deyirəm, necə də mənim atama oxşayır ey.

Elə bunu demişdim ki, daha da yaxınlaşan avtobusdakı adamı tam aydınlığı ilə gördüm. Cəld siqaretimi ataraq, bir az həyəcanla, bir az da qorxu ilə:

– Bu mənim atamdır ki !

Dedim.

Avtobus düz yanımızda əylədi. Atamı burada görməyimə çox təəccüblənmişdim. Axı harada olduğumdan heç kəsin xəbəri yox idi.



*Qorxmaz İsi oğlu Axundov*

Atam aramla avtobusdan düşməyə başlayanda mən onu nəzərlərimlə yuxardan aşağı süzdüm. Onda atamin qırx iki yaşı var idi. İndi isə mən qırx iki yaşındayam. Sanki, atamın bu neçə gündə saç-saqqalı xeyli ağarmışdı. Bığlarının ağ tükləri isə siqaret tüstüsünün təsirindən saralmışdı. Üzündə bir yorğunluq və eyni zamanda da bir rahatlıq var idi. Mənim bütün təəccüblərimə rəğmən atam mənə qəzəblənməmişdi. Avtobusdan düşən kimi, əlimi sıxıb, salam oğlum, dedi və sonra Rövşənlə görüşdü və dedi:

– Gəlmişəm oğlumu aparmağa.

Anam üçün burnumun ucu göynəsə də, evimiz üçün möhkəm darıxsam da, özümü toparlayıb, mən heç yerə getməyəcəyəm, dedim.

– Oğlum, institutun son kursundasan, əlaçısan, yayda dövlət imtahanlarındır, qırmızı diplom almalısan, zəhmətinə hayıfın gəlmir? Gəl gedək evə, institutu bitir, sonra gəlib nə qədər istəyirsən döyüşərsən, mən özüm səni bura gətirəcəm.

Deyərək, sanki bir dəstək gözləyirmiş kimi Rövşənə baxdı. Bu məqamda atamın gəldiyini görən German və bir neçə əsgərlər də ətrafımıza toplaşmışdı. Mən bir Rövşənə, bir Germana və uşaqlqra baxdım. Onlar sanki mənim nə cavab verəcəyimi gözləyirmişlər kimi hamı susub mənə baxırdı. Ancaq mənim cavabım hazır idi.

– Yox, ata, dedim ki mən getmirəm, vəssalam, fikrim də qətidir.

Atam hər dəfə mənə “gedək oğlum” – deyəndə mənim qalmaq fikrim bir az daha qətiləşirdi. Hiss edirdim ki, ətrafımdakı uşaqlar da mənim bu seçimimi dəstəkləyirlər. Bu anda German dostcasına əlini kürəyimə qoyub dedi:

– Get Rizvan, qayıt evinə. Atan düz deyir, institutunu bitir, gələrsən.

Atama qaldıra bilmədiyim səsimi Germana qaldırdım:

– Nə get, hara get? Demişəm axı, mənim evim burdadır, Ağdamdadır. Sən də mənə get deyirsən? Nə get-get salmısınız, heç yerə gedən deyiləm, vəssalam. Necə dilin gəlir get deməyə? Mən getmirəm, burda qalıb uşaqlarla çiyin-çiyinə döyüşəcəyəm.

Sizi inandırım ki, sözümün üstündə durub getməsəydim, bəlkə də atam da mənimlə orda qalardı. Bu yerlər mənə doğma olduğu kimi, atama daha da doğma idi. Bəlkə də atam bilirdi ki, məhz onun tərbiyəsinin nəticəsidir ki, mən burdayam. Ancaq o vaxt mən belə fikirləşmirdim, cəbhəyə könüllü gəlməyimi öz nailiyyətim hesab edirdim. Ancaq indi başa düşürəm ki, övladlar bütün nailiyyətlərinə görə göydə Allaha, yerdə isə valideynlərinə və sonra isə müəllimlərinə borcludurlar.

Atam Qorxmaz :

– Bala, gəl daşı ətəyindən tök, qayıdaq evə. Anan da xəstələnib, xəstəxanadadır, səni görmək istəyir.

Anamın xəstəxanaya düşmə xəbəri məni sarsıtdı.

– Axı mən...

German:

– Rizvan, qardaş, demək istəmirdim, ancaq sən gələn gündən bir həftə sonra biz Bakıdan əmr almışdıq və bilirdik ki, səni gəlib aparacaqlar. Bu əmrdir, get evə!

– Ona görəmi, mənə silah vermirdiz, ona görəmi məni döyüşə buraxmırdınız? İndi hər şeyi anladım.

Deyə bir qədər məyus oldum. Nə deyəcəyimi bilmirdim. Qalmışdım iki həyatın arasında, cəbhə həyatı – şəhər həyatı, mərd həyatı – dərd həyatı, rəşadət meydanı, yoxsa səadət meydanı, qan yoxsa can. Ürəyim nəyin bahasına olursa olsun cəbhə, mərdlik, rəşadət, qan deyirdi. Bəlkə də qalardım cəbhədə. Mən indikindən fərqli olaraq cavanlıqda çox tərs adam idim, lakin anamın xəstə olması, xəstəxanaya düşməsi faktı qarşısında tərsliyim də, mərdliyim də, qüRurum da sarsılırdı. Digər tərəfdən də fikirləşirdim ki, gedim anamı görüm, onu sakitləşdirim və tez qayıdım geri.

Rövşən:

– Qaqa, kefini pozma, biz hamımız səni gözləyəcəyik, get, başına dönüm, get.

– Get, get Rizvan, biz özümüz Bakıya gəlib, səni tapacayıq.

Deyə uşaqlardan kimsə uca səslə qışqırdı.



Üzümü atama tutub dedim:

– Onda qoy gedim kazarmadakı uşaqlarla da, batalyon komandiri ilə də vidalaşım.

– Get-get, komandirlərin gələcəyimi bilirdilər, – deyə, atam gülümsəyərək bir siqaret yandırdı.

Uşaqlar atamda filterli siqaret gorən kimi, hərəsi birini istədi. Atamın siqareti bir anda tükəndi. Sonradan bildim ki, atam o siqaret satan oğlandan nə qədər siqaret varmışsa, hamısını alıb, əsgərlərə paylayıb. Mənim atam kasıb müəllim baba olsa da çox mərd, düzgünlüyü sevən, təmiz qəlbli, səxavətli, etibarlı bir insan idi, axı o İsi müəllimin oğlu idi. Atam 1972-ci ildə avqustun 2-si mən doğulandan sonra, artıq ali təhsilli olaraq, hərbi xidmətini Rusiyanın Çita vilayətində keçmiş, mükəmməl topçu, tankçı, qranatamyotçu bir zabit idi. Yadıma gəlir ki, sovet dö-



nəmində atamı bir neçə dəfə hərbi hazırlığa çağırmışdılar və atam heç vaxt yayınmaq fikrinə belə düşmədən, vətəndaşlıq

borcunu yerinə yetirərək, bütün çağırışlarda iştirak etmişdi. Axırıncı dəfə səhv etmirəmsə, 1985-ci ildə atamı hərbi hazırlığa Qərbi Azərbaycanın Dilijan şəhərindəki hərbi hissəyə göndərmişdilər. Çağırsaydılar, yenə də gedərdi bu dəfə Qarabağa. Ancaq 42 yaşı var idi, çağırış yaşı ötmüşdü artıq.

Mən uşaqlarla vidalaşmaq üçün kazarmaya yollandım. Onlar məndən Bakıdakı ünvanımı və ev telefonumu istədilər, mən də böyük həvəslə verdim. Söz verdilər ki, Bakıya gələndə mütləq mənimlə əlaqə saxlayıb, görüşəcəklər. Ancaq əfsuslar olsun ki, bir neçə həftədən sonra  Qərvənd ermənilər tərəfindən işğal olundu və uşaqların əksəriyyəti Ağdamın Qərvənd kəndi uğrunda mübarizədə mərdliklə həlak oldular. Mən də onların içində olmalıydım, ancaq görünür qismət deyilmiş. Bəs nə üçün? Hələ indiyədək bu “nə üçün?” sualına, mən cavab tapa bilməmişəm. Bəlkə də onun üçün ki, bu xatirələri qələmə almaqla onların zirvələrə ucalan şəhidlik məqamını bir daha yad etməliydim. Bəlkə də onun üçün ki, bu xatirələri Sizlərlə bölüşməliydim. Nə bilmək olar. Bəlkə də bu kitabı oxuyan övladım, Tamerlan, məhz o,  Ağdama qələbə bayrağımızı sancacaq. Bəlkə də... Ancaq hesab edirəm ki, övladlarımızın üzərinə bu yükü qoymaqdansa, elə son nəfəsimizədək vuruşub, şəhid olsaydıq bundan yaxşı olardı.

Dəyərli oxucularım, əgər bu gün övladlarımızın

ayağına tikanlar batırsa, ya o tikanları biz əkmişik, ya da vaxtında görüb onları yerdən qoparmamışıq!

Əminəm ki, haçansa, tarixi torpaqlarımızı qaytaracağıq. Ancaq çox heyfislənirəm ki, bizim nəsil bunu bacarmadı. Gələcək nəsillərdən, öz övladımdan, dünyaya gələcək nəvələrimdən bu problemi onlara buraxdığımız, vaxtında həll edə bilmədiyimiz üşün üzr istəyirəm. Və işğal olunmuş torpaqlarımızı geri qaytaran, milli qürurumuzu, ərazi bütövlüyümüzü bərqərar edə biləcək, bizdən daha güclü, daha da cəsarətli, daha ambisiyalı nəslin nümayəndələrini salamlayıram, təşəkkürümü bildirirəm. Və demək istəyirəm ki, kimin övladları, kimin nəvələri olduqlarını unutmasınlar.

Siz, vətən uğrunda canından keçməyi bacaran şəhidlərin övladlarısınız !

Siz, Babəklər, Koroğlular, Həzi Aslanovlar, Qafur Məmmədovlar, Mehdi Hüseynlər, Mübariz İbrahimovlar, Fərid Əhmədovların evladlarısınız !

Siz, qədim və rəşadətli tarixə malik, Böyük Azərbaycanın övladlarısınız !

## BAKIYA DOĞRU

Sonda batalyon komandiri ilə də vidalaşdım, məni öz batalyonuna qəbul etdiyinə görə ona öz minnətdarlığımı bildirdim, institutu bitirəndən sonra onların sıralarına yenidən qayıdacağıma söz verdim. O

da öz növbəsində mənim əlimi sıxdı və dedi ki, sən qayıdanadək biz Ağdamı alacağıq.

Nə mən sözümün üstündə dura bildim, nə də o...

Hərbi hissəni tərk edib, yola çıxanda gördüm ki, atam Bakıya doğru geri dönən, gəldiyi avtobusu yubadıb və məni gözləyir.

– Hardasan, ay bala, bir saatdır sürücünü də burda ləngitmişəm.

Ancaq mən əmin idim ki, sürücüdən çox o özü darıxmışdı. Mən atamla birgə avtobusa qalxdım. Avtobusda bizdən başqa sərnişin yox idi. Sürücüyə salam verdim. Sürücü isə cavabında dedi:

– Hə, igid, əleyküməsalam. Necəsən? Yaman tərssən ha, dediyini eliyənsən, afərin. Axırı ki, Qərvənd batalyonuna yazıla bildin, eləmi? Nədi, tanımadın məni?

Sən demə, bu sürücü elə məni burda düşürən kişiymiş. Atam Ağdama gəlincə bütün yol boyu sürücü ilə mənim barəmdə söhbət edibmiş. O da atama məni xatırladığını bildirib və deyib ki, oğlun çox höcət adamdır. Atam da oz növbəsində deyib ki, bəli, düz deyirsən o, bildiyini atasına da vermir. O deyibsə ki, Ağdam batalyonuna yazılacaq, nəyin bahasına olursa-olsun dediyini eliyəcək. Sürücü atama deyib ki, darıxma səni düz  oğlunu düşürtdüyüm yerə aparacağam.

– Tanıdım, dayı, tanıdım.

– Ay bala, səni Allah saxlasın, atana-anana da

deməyib gəlmisən bura. Adam da belə şey eliyər? Demirsən ananın ürəyi çartlayar? Heç olmazsa bir de, sonra get, də.

Sanki, atamın mənə demədiyi sözləri atamın əvəzindən sürücü mənə deyirdi. Anamı yadıma salanda isə lap xəcalət çəkirdim. Fikirləşirdim ki, anam mənə görə xəstəxanaya düşüb. Onu görməyə çox tələsirdim.

Sürücü mənə çox sözlər dedi, hamısı yadımda deyil, ancaq bir sözü indiyədək qulağımda cingildəyir. Dedi ki, özün ata olarsan, onda bilərsən nə böyük qələt eləmisən. Onun bu sözlərini o zaman həzm etmək iqtidarında deyildim. Sən demə, cavanların söz həzm edən mədəsi, yaşlıların qastrit olan mədəsi kimi, hər şeyi həzm edə bilmirmiş. Mən indi başa düşürəm ki, ata olmaq necə də ağır, məsuliyyətli və eyni zamanda qürur doğuran bir işdir. Allah bütün atalara rəhmət eləsin. Qalanlara isə möhkəm can sağlığı və səbir arzulayıram ki, evladlarına qarşı anlayışlı olsunlar. Fikirimcə, atanın güclüsü, zəifi olmur. Ata elə atadır, qarşısında baş əyiləsi bir müqəddəs məxluqdur. Nə qədər də bizim gücümüz çox olsa, ən zəif atanın qarşısında boynumuz qıldan incədir. Mən bütün gənclərə, atalıq zirvəsinə çatmağı arzulayıram. İnanın, bu elə bir uca zirvədir ki, buradan hər şey aydın görünür. Dağın ətəyində duran adam, zirvədə duran adamdan çox uzağı görə bilməz, övladlarım. Atam üçün elə darıxıram ki...

*Hey qaçıram həyatda düzlükdə sənə çatam,*
*Nə xeyri qaçmağımın, çata bilmirəm, atam.*
*Atasız çətin olur, ayaqda qalmaq, atam,*
*Razıyam hər şeyimi, dəyər-dəyməzə satam,*
*Bir daha sıxmaq üçün Sənin əlini, atam…*
*Səninçün darıxmışam, doymamışam, ay atam…*
*Sən gedəni ürəkdən, gülməmişəm, ay atam…*
*İstəyirəm dərdimi lap uzaqlara atam.*
*Gündə bir addım atıb, gedib atama çatam.*

***ARQ***



***1961-ci il, babam və atam. Şəkildə atamın 12 yaşı var. 11 ildən sonra mən dünyaya gələcəm.***

Sürücünün danlağından utanırmış kimi, atamla avtobusun arxa oturacağında əyləşdim. Düz Bakıya qədər söhbət etdik. Mənə o qədər suallar verirdi ki... Anamı soruşmaq istəyirdim, ancaq utandığımdan cəsarət etmirdim. Atam mənə görə çox əziyyət çəksə də, üstümə qətiyyən hirslənməmişdi, ək-

sinə məni evə qaytarmağı bacardığı üçün kefi kök idi. Qəlbinin dərinliklərində yəqin ki, Ağdam batalyonuna getməyim onu fərəhləndirirdi. Axı o da ağdamlı idi. Bəlkə məndən də çox darıxırdı ata evi üçün. Atasının “Qarağacı” qəbiristanlığındakı qəbrindən də xeyli nigaran idi bəlkə də. Bəli, indi başa düşürəm ki, mən necə darıxıramsa atam üçün, onda da atam öz atası, babam İsi müəllim üçün elə darıxırdı. Sadəcə, bunu övladına etiraf edə bilmirdi. Mən də bu gün çətinlik çəkərəm belə etirafa, ancaq gördüyünüz kimi yolunu tapmışam deyəsən.

Mənim atam Ağdamdan qaçqın düşməmişdi. Heç İsi babam da Ağdamın işğalını görmədi, çünki o, hələ 1987-ci ildə vəfat etmişdi. O vəfat edəndə mənim 15 yaşım var idi və babamın itkisi mənə çox ağır gəlirdi. Onun yoxunluğuna inana bilmirdim. Uzun müddət mənə elə gəlirdi ki, qapı açılacaq və babam içəri daxil olacaq. Ancaq indi mənim babama paxıllığım tutur. Necə də xoşbəxt adam idi ki, Ağdamın işğalını görmədi. Atam babamın bütün səylərinə baxmayaraq birinci ili instituta girə bilməmişdi. Nənəm Almazın dediyinə görə instituta daxil olub olmadığını öyrənmək üçün babam atamla birlikdə evdən çıxırlar, geri qayıdanda nənəm görür ki, babam atama “Kazan” markalı qarmon alıb. Nənəm qarmonu görüb oğlunu instituta girdiyini zənn edərək babamdan soruşur:



– Ay İsi, təbrik edirəm, deyəsən oğlumuz instituta girib.

Babam:

– Az, yox, instituta zada girməyib.

– Ay İsi, bəs bu qarmon nədir, uşaq instituta girməyib, sən ona hədiyyə almısan.?

Babam isə cavabında deyib:

– Ay Almaz, instituta girməyib, elə ona görə də qarmon almışam ki, qarmon çalmağı öyrənib, bəlkə ailəsini bu yolla saxlaya. Başa düşdün?

Babam hələ atama qarmon müəllimi də tutmuşdu. Bilirsiz, qarabağlıların musiqi duyumu yaxşı olur. Atam qarmonda gözəl ifa edə bilirdi, lakin Ağdam işğal olunandan sonra əlinə bir dəfə də olsun qarmonu almadı. Hətta qarmonunu musiqi müəllimi olan yeganə Vaqif dayımın yeganə oğlu –Vahidə hədiyyə etdi (onda Vahid hələ lap uşaq idi, indi isə, Milli Aviasiya Akademiyasını bitirib).

İkinci il – 1967-ci ildə atam nəhayət ki, Bakıda

Azərbaycan Pedoqoji İnstitutuna daxil olmağa müyəssər olmuşdu. Elə o vaxtdan Bakıda kirayədə qala-qala , 1971-ci ildə müvəffəqiyyətlə həmin institutu "orta məktəbdə riyaziyyat müəllimi" ixtisası üzrə bitirib, anamla ailə həyatı quraraq Bakıda yaşamışdır. 23.08.1971-ci il tarixdə atamı dövlət təyinatı üzrə Bakı şəhər Qaradağ rayonu Yeni Trest qəsəbəsindəki 180 saylı orta məktəbə riyaziyyat müəllimi təyin etmişdilər. Atamı 1972-ci ildə hərbi xidmətə çağıranda o, səbirsizliklə ilk övladının, yəni mənim doğulmağımı gözləyirdi və bununla əlaqədar hərbi komissarlıqdan xahiş etmişdi ki, övladı dünyaya gələnədək ona möhlət versinlər. Nərimanov RVK - sında da cavan riyaziyyat müəlliminin bu xahişini nəzərə alaraq atama möhlət vermişdilər. Beləliklə, 1972-ci il avqustun 2-də valideynlərimin Bakıda yaşamasına baxmayaraq, İsi babamın təkidi ilə Ağdam rayonu 2 nömrəli doğum evində 5,5 kq. çəki ilə dünyaya gəlmişdim və mən üç aylığımda olarkən atamı əsgər aparmışdılar. Atam hərbi xidmətini 03.11.1972-ci ildən - 02.11.1973-cü ilədək Rusiyanın Çelyabinsk əyalətinin Çita şəhərindəki 58389 saylı hərbi hissədə keçirmişdir. 23.11.1973-cü ildən etibarən 180 saylı orta məktəbdə yenidən pedoqoji sənətini davam etdirmişdi. 12.10.1981-ci ilədən-06.10.1985-ci ilədək həmin məktəbdə tədris hissə müdiri vəzifəsində çalışmışdı. 06.10.1985- ci ildən orada riyaziyyat müəllimi işləmişdir. 01.09.1993-cü ildən

09.10.2010-cu ilədək Lökbatan Qəsəbəsindəki 106 saylı orta məktəbdə çalışmışdı. 1995-ci ildə Azərbaycan Respublikasının Əmək Veteranı adına layiq görülmüşdü.







09.10.2010-cu ildə Bakı şəhər 5 saylı kardioloji xəstəxanada ürək çatışmazlığından (işmiya) dünyasını dəyişmişdir.

Mənim babam İsi müəllim də riyaziyyat müəllimi idi. Atam da öz atasının peşəsini seçmişdi və istəyirdi ki, mən də universitetin “Tətbiqi riyaziyyat” fakültəsinə daxil olum, riyaziyyat elmi üzrə alimlik dərəcəsini alım. Çox heyifslənirəm ki, atamın, babamın işini davam etdirmədim. İstəyirəm heç olmazsa oğlum Tamerlan babasının və ulu babasının ixtisasına yiyələnsin, axı o da atası və babaları kimi riyaziyyatı mükəmməl bilir, potensialı böyükdür. Deyirlər ki, kim atasının peşəsini seçirsə, deməli düzgün tərbiyyə alıb. Ancaq hesab etmirəm ki, mən riyaziyyat elmini seçmədiyim üçün düzgün tərbiyə almamışam. Riyaziyyatı atamın hesabına çox mükəmməl bilirdim, lakin cox tərs və

höcət adam idim. Atamın bütün səylərinə baxmayaraq mən tətbiqi riyaziyyatı deyil, iqtisadiyyatı seçdim. Xalq Təsərrüfatı İnstitutuna riyaziyyatdan qəbul imtahanını bir saat vaxtından əvvəl əla qiymətlə vermişdim. Buna görə də atama və babama minnətdaram.

Babam və nənəm isə Ağdamda yaşayırdılar. Babamın vəfatından sonra Almaz nənəmi atam və bibilərim – Solmaz və Elmira Bakıya öz yanlarına gətirmək istəsələr də, nənəm təkidlə Ağdamda öz evində qalacağını bildirdi. O zaman ağlına da gəlməzdi ki, 1993-cü il iyulun 23-də oğlunun doğum günündə Ağdam erməni separatçıları tərəfindən işğal olunacaq və o, qaçqın düşmək məcburiyyətindən, Bakıya, oğlu Qorxmazgilə gələcək.

Avtobus Bakıya doğru irəliləyirdi. Atam hərdən fikrə dalırdı və tez-tez saatına baxırdı. Mən isə elə hey pəncərədən yola baxır, cəbhə yoldaşlarımı düşünürdüm, ələlxüsus da Rövşəni. Fikirləşirdim ki, görəsən uşaqlar mənim üçün darıxacaqlar? Özüm isə hiss edirdim ki, artıq onlar üçün darıxıram. Düzdür institut yoldaşlarımı da düşünürdüm, ancaq əsas fikrim cəbhədə qalmışdı. Onlar mənim əvəzimə də Ağdamda döyüşürdülər. Ancaq institut yoldaşlarımın heç biri mənim əvəzimə oxumurdu, oxuya da bilməzdilər. Çünki orada mən hamıdan yaxşı oxuyurdum, semestr imtahanlarımın hamısı da əla qiymətlə idi.

Avtobus dayandı. Bura artıq Kürdəmir dayanacağı idi. Atam məndən soruşdu:

– Acmısan?

– Belə də.

Desəm də, əslində çox acmışdım və bərk siqaret çəkmək istəyirdim, ancaq bilirdim ki, atamın yanında bunu edə bilməyəcəyəm. Heç atamın qorxusundan cibimdə siqaret də saxlamamışdım, Rövşənə vermişdim. Bir də düşünürdüm ki, axı atam siqaret alıb paylamışdı əsgərlərə, bəlkə cibində pulu qalmayıb?

– Ə, düş, mən yaman acmışam, gedək bir tikə çörək yeyək.

Deyə atam qolumdan yapışdı. Fikirləşdim ki, deyəsən kişi "avans" alıb. Hər il yayda Ağdama gələndə biz qatarla gəlib, qatarla da gedirdik. Ancaq hərdən elə olurdu ki, avtobusla da gəlirdik və bu zaman mütləq Kürdəmirdə düşüb yemək yeyirdik. Bu dəfə də ənənəyə sadiq qalaraq atamla bir yerdə düşdük dayanacaqdakı yeməkxanaya. Kürdəmirlilər yeməkxanada o vaxtlar qəribə bir yemək verirdilər. Kərpic çörəyin bir başını kəsirdilər, içini ovurdular və ora qalın doğranmış soğan, göyərti ilə bərabər kabab doldururdular və dördbucaq formasında kəsilmlş çörəyin başını qapaq kimi ağzına qoyurdular. Bir sözlə kərpic çörək, içində də ləzzətli kabab. Kababın dadı və ətri çörəyə elə çıxırdı ki, ət qurtarsa da çörəyi elə yeyirdik ki, elə bil kabab yeyirsən. Hə, necədi, ağzınızın

suyu axdımı? Ancaq Ağdamın kababına çata bilməzdi. Nə isə, adama bir dənə bu kabablı kərpic çörəyindən yeyib, kəmərimizin altını bərkitdikdən sonra, armudu stəkanda bir çay içib, yeməkxanadan çıxdıq. Avtobusa yaxınlaşırdıq ki, birdən atam dayandı və dedi:

– Hə, yedik, içdik, indi də gəl bir siqaret çəkək.

Və "Qarabağ" siqaret qutusunu mənə uzatdı.

– Yox-yox, mən çəkən deyiləm.

– Bilirəm çəkirsən. Götür-götür, oğlum, utanma.

Bu hərəkət Qorxmaz müəllimin bütün prinsiplərinə zidd idi. Birini qoyub, o birisindən danışım. Zemfira xalamın oğlu Rauf 15-16 yaşlarında ikən atam onu riyaziyyatdan instituta hazırlayırdı. Bir gün atam Raufun gödəkcəsinin cibində siqaret aşkar etmişdi və buna görə onu yaxşıca əzişdirmişdi. Bir dəfə də şəhərdə bir uşaq yaxınlaşıb, siqaret istədiyinə görə atam küçənin ortasında həmin oğlanın qulağını yaxşıca burmuşdu. Bütün bunları nəzərə alaraq atamın bu hərəkətinə beynimdə izah tapmağa çalışırdım və eyni zamanda da çox utanırdım. Sözün düzü, atamdan bunu gözləmirdim. Artıq heç siqaret çəkmək də istəmirdim qorxumdan. Atam təkidlə:

– Götür, bala, götür.

Dedi və mən ilk dəfə atamın yanında siqaret çəkdim. Ağdamdakı "Astra"- dan sonra bu "Qarabağ" elə bil heç siqaret deyildi. Siqareti atam özü kibridlə mənim üçün yandırdı və sonra da elə həmin yanan kib-

rid dənəsi ilə öz siqaretini yandırdı. Uşaqlar yadıma düşdü. “Qarabağ”-ın tüstüsünü içimə çəkdikcə elə bil Qarabağda döyüşən bütün dostlarımın dərdini çəkirdim içimə. Elə kövrəldim ki,... Atam yanımda olmasaydı bəlkə də ağlayardım. Lakin tez özümü toxtatmağa çalışsam da alınmadı. Atam məndən nə isə soruşdu, mən isə səsimin titrəyəcəyindən qorxub ona cavab verə bilmədim. Atam kövrəldiyimi hiss etdi və təkrarən sual vermədi. Birtəhər özümü toxtatdım ki, atamın sualına cavab verim, atama baxanda gördüm ki, onun da gözləri dolub. Daha heç nə demədim. Siqareti çəkib qurtardıqdan sonra artıq hər ikimiz özümüzə gəlmişdik. Kövrəldiyini boynuna almaq istəmirmiş kimi: “bir azdan tərpənəcəyik, gəl qalxaq maşına” deyə atam qoluma girdi. Artıq hava qaralmışdı. Bir neçə dəqiqədən sonra avtobus hərəkətə gəldi. Yorulmuşdum. Atam da yorulmuşdu, gözlərini yumub mürgüləməyə çalışırdı. Çiyinlərimi qaldırıb, başımı bir az daha buşlakın içinə soxub yatmağa çalışırdım. Buşlakdan kazarmada yanan peçin his iyi, bir az da barıt iyi gəlirdi. Mən bu buşlakla döyüşdə olmamışdım, ancaq görünür buşlakın məndən qabaqkı yiyəsi o ki var avtomatdan atəş açıbmış bu buşlakla. Fikirləşirdim ki, evə getməzdən əvvəl xəstəxanaya anamın yanına gedəcəm, görəsən axşam buraxarlar yanına? Bu fikirlərin içində necə yuxu məni aparıb, heç xəbərim olmayıb. Bir də gördüm ki, atam məni oyadir: “ Dur, bala, artıq Bayıla çatırıq”.

Gözlərimi açanda ilk olaraq Bakının neftinin iyini hiss elədim. Bir anlıq düşündüm ki, ölkəmizin bütün tarixi boyu başına gələn bəlalar məhz bu neft iyinin təsirindəndir. Hələ II Dünya müharibəsində Hitler də Bakını ələ keçirmək istəyirdi, lakin babam kimi qəhrəmanların sayəsində alınmadı. Heç vaxt da alınmayacaq !

Bakıya çatanda, avtobusda xeyli sərnişin var idi. O vaxtlar rayonlardan gələn avtobuslar Azneft meydanında və Beşmərtəbənin yanında dayanırdılar. Mən atamla Beşmərtəbənin yanında düşdük. Atama anamın yanına, xəstəxanaya getmək istədiyimi söylədim. O isə artıq gecdir, bizi içəri buraxmayacaqlar. Gəl gedək evə, çimərsən, əynini dəyişərsən, sabah rahat gedərik, – dedi. Mən sabah hələ instituta da getməliyəm, – dedim. O, isə institutdan gələrsən gedərik,– dedi. Yox, mən birinci anamı görməliyəm deyəndə, narahat olma, gedək evə, elə edəcəm ki, ananı bu gün görəcəksən deyib, arxayıncasına gülümsədi. Sözün düzü heç nə başa düşmədim. Atamla Mirzağa Əliyev küçəsi ilə evimizə doğru üzü yuxarı qalxırdıq. Məni buşlakda görən məhlə uşaqları təəccüblə: “Ala, Rizvan, hardan gəlirsən belə?” deyə soruşurdular. Mənsə evə tələsdiyimdən, uzun söhbətdir, sonra danışaram deyə onların sual yağışlarını ötəri cavablandırırdım. Bir azdan gəlib çatdıq Aşağı Naqornı

küçəsi (indiki-Zülfi Adıgözəlov küçəsi), dalan 2 ev 3-ünvanda yerləşən evimizə.

İndi məhləmizi sökürlər, deyirlər yerində bağ-bağat salınacaq, yeni müasir evlər tikiləcək. Görəsən, heç olmazsa küçələrin adlarını qoruyub, saxlayacaqlar? O vaxtdan bəri Bakı çox dəyişib və dəyişməkdə davam edir.

Həyətə daxil olan kimi, bizimlə bir həyətdə yaşayan atam kimi riyaziyyat müəllimi olan və çox hörmət etdiyim, anamın xalası oğlu Əşrəf müəllimin (Batya) uşaqları, Etibar və onun bacıları Sevinc və Raziyə pəncərələrindən məni görən kimi "əsgər gəldi, saldat gəldi, Rizvan gəldi, uraaa" deyə bayıra atıldılar. Onların arxasınca Səkinə xala da çıxdı. Özünəməxsus Bülbülə (Bakının kəndi) ləhcəsi ilə: "Ay bala, hardeydun? Sevda, qaragün öldi ki, day" deyərək məni salamladı. Onların səs-küyünə həyətdə yaşayan anamın dayısı oğulları Hüseynbala (professor), rəhmətlik Fikrət və onların uşaqları - Vüsalə, Qaqaş, Səbinə, qardaşım Rövşən– bir sözlə hamı həyətə çıxmışdı. Qardaşım əlimi sıxaraq: "hə neçə dənə erməni öldürdün?" deyə gülümsədi. Bizim həyətin sakinləri hamısı qohum-əqrəba idi. Anamın rəhmətlik Ələsgər babasının nəvələri, nəticələri idilər. Hamısı da bakılı, bircə mən atamla ağdamlı idim. Hətta qardaşım Rövşən də özünü bakılı sayırdı. Deyirdi ki, qaqaş, sən Ağdamda doğulmusan – ağdamlısan. Mənsə Bakıda doğulmuşam, ona görə də bakılıyam. Bizim həyətimizin sakinləri çox

mehriban idilər. O vaxt ağdamlı-bakılı söhbəti yox idi. Ümumiyyətlə, insanlar, bir-birini şəhərlilərə - kəndlilərə ayırmırdılar.

Anam 1993-cü ildə Ağdamdan qaçqın düşən atamın bütün qohum-əqrəbasını müvəqqəti olaraq evimizdə məskunlaşdırmışdı. İnanırsız ki, ikiotaqlı evimizdə tərpənməyə yer yox idi. Axşam döşəmədə belə özümə yatmağa yer tapa bilmirdim. O vaxt institutun dördüncü kursunda oxuyurdum. Birinci gün gecəni səhərə qədər həyətdə otururdum. Yay vaxtı idi. Hamı yatmağa gedəndən sonra isə imtahanlara hazırlaşırdım. Haqqın yolunu tapmışdım. Gündüzlər yatırdım, gecələr isə düz səhərə qədər semestr imtahanlarına hazırlaşırdım.

Həyətdəkilərlə görüşüb evə daxil olanda mat - məəttəl qaldım. Anam stolun kənarında əyləşib, zoğal mürəbbəsi ilə çay içirdi. Bir tərəfdən onun xəstəxanada deyil, evdə olmasına, xəstələnməməsinə sevinirdim, digər tərəfdən də atamın məni aldatmasına qəzəblənirdim. Ancaq üzə vurmadım. Anam çayını yarımçıq qoyub ayağa qalxdı və məni bağrına basaraq heç nə demədi. Kövrəldi, ağlamaq istədi, ancaq mən qoymadım.

Anam – Axundova (Fərzəliyeva) Sevda Ağaisa qızı, ali savadlı ingilis dili müəlliməsidir. 1950-ci ilin yanvarın 18-də Bakıda- Sovetskidə anadan olub. 1974-1976 - cı illərdə Xarici Dillər İnstitutunda, 1976-1980-ci illərdə Oktyabr Rayon (indiki Yasamal rayonu) İcra

hakimiyyətində çalışıb. 1990-2010-cu illərdə uzun müddət atamla birgə 106 nömrəli məktəbdə ingilis dilini tədris edib.

Elə də kiçik olmayan ailəsi (atası– Ağaisa, anası– Umxanım, dörd bacı bir qardaş) Ələsgər babadan (Muradəliyev Ələsgər Həciqəni oğlu) qalan Sovetskidəki həyətdə min bir əziyyətlə yaşayıblar. Böyük Vətən müharibəsindən sonrakı dövrdə əksəriyyət çətinliklə yaşasa da bu çətinlik sanki insanları mehribanlaşdırmışdı. Hərdən Elmira, Zemfira və Esmira xalalarımla bir süfrə arxasına yığışanda, onlar hazırda qardaşımın ailəsi ilə anamın birgə yaşadıqları həmən bu Sovetskidəki evlərində uşaqlıq sərgüzəştlərindən o ki var danışıb – deyib gülürlər. Zemfira xalam oxlovla anamı və Esmira xalamı nə cür işlətdiyini, bütün ev işlərini onlara oxlov gücünə gordütdüyünü, Elmira xalam özünü hind qızlarına bənzədərək, hind mahnısı oxuya-oxuya bu balaca evdə o tərəf – bu tərəfə dolaşmasını tez-tez gülüşlə xatırlayır. Vaqif dayım isə evin sonbeşiyi və həm də tək qardaş olduğu üçün bütün bacılar onu çox istəyirdilər. Artıq hamısı nəvə sahibləridirlər, Elmira xalamın artıq 70 yaşı var. Atamdan sonra anam çox qocalıb. Hətta ən böyük bacısı Elmira xalamdan da yaşlı görünür.

*Əlin qabar, saçların ağ.*
*Başında qar, uca bir dağ.*
*Ətəyə bax, zirvəyə bax.*
*Məqamı müqəddəs anam…*



*Uşaq şıltaqlıq edəndə,*
*Yuxusundan dəng edəndə,*
*Uzaq səfərə gedəndə,*
*Arxamca su tökən anam…*

*Ağrımızı hiss eləyən,*
*Dərdimizi dərd eləyən.*
*Övladı üçün əyilən*
*Namazda səcdədir anam…*

*ARQ*



# NÖVBƏTİ SARSINTI

Mən Bakıya dönəndən bir neçə həftə sonra dəhşətli bir xəbər məni növbəti dəfə sarsıtdı. Erməni işğalçıları Güllücə tərəfdən cəbhəni yararaq Baş Qərvəndə daxil olmuşdular. Ağdam batalyonu, rusların təpədən dırnağadək silahlandırdığı erməni separatçılarına sona qədər müqavimət göstərərək geri çəkilməmişdilər. Bütün dostlarım, son damla qanlarına kimi mübarizə apararaq, qəhrəmancasına həlak olmuşdular. Bu xəbər sanki mənim belimi qırdı. Böyük sarsıntı keçirdim, son ümidlərim qırıldı o zaman. Ağdamı əlçatan edən Baş Qərvənd artıq yox idi. Bir yerdə çörək kəsdiyim dostlarım, Rövşən artıq yox idi. "Əzizim Rövşən, aslanım Rövşən, güllə səndən qorxurdu axı, nə oldu?" deyə xəlvəti bir yerə çəkilib uşaq kimi, o ki var, ağladım. Bir anda Ağdamı qaytarmaq ümidlərim puça çıxdı. Həlak olan dostlarımın hamısı bir-bir gözümün önündə canlandı. Bu xəbərə inanmırdım. Elə bilirdim ki, avtobusa oturub Ağdama getsəm, yenə görəcəm ki, Rövşən yolun qırağında durub siqaret çəkir. Dəhşətli hadisə idi bu. İnanırsız, Ağdamın özü işğal olunanda heç mənə bu qədər təsir etməmişdi. Bəlkə də Sizlərdən çoxunuz Baş Qərvəndin işğalı barədə bu qədər məlumatlı deyilsiniz. Bu barədə mətbuatda da nədənsə az məlumat verildi. Ancaq mən bəlkə də bu batalyonun

içində olduğumdan bu qədər sarsıntı keçirdim. Və bütün bunları qələmə alanda, inanın ki, növbəti dəfə həmin gərginliyi  yaşadım. Bu dəqiqə əlimə avtomat alıb, 42 yaşımda Ağdamımı qaytarmağa getməyə hazıram və həmişə hazır olacağam. 22 ildir ki, "Qarağacı" qəbiristanlığında dəfn olunan Babamın qəbrini ziyarət etmək, Ağdam şəhəri Ağamalıoğlu küçəsi – 40 ünvanında yerləşən babamın ocağına, 22 ildir ki, İsa bulağına getmək istəyirəm... Ay Allah, bizə bu günü qismət et! Nə günahın sahibidir bu millət ki, bu qədər təcavüzə, zorakılığa, məruz qalaraq, dədə-baba yurdlarından didərgin düşüblər? Nə günahın sahibidir bu millət ki, bu qədər şəhid verib və hələ Allah bilir nə qədər də verməlidir bundan sonra...



***Ağdam, Ağamalıoğlu küçəsi***

# ƏN ÇOX ŞƏHİD VERƏN, AĞDAMIM

Qarabağ münaqişəsi başlayanda, eləcə də müharibə mərhələsinə qədəm qoyulanda ermənilər ən çox Ağdamdan və ağdamlılardan qorxub, çəkinirdilər. Bu münasibətin çoxəsrlik tarixi vardı. Hələ ötən əsrin əvvəllərindən etibarən dəfələrlə baş qaldıran erməni qiyamçılarının qarşısı həmişə Ağdam cəbhəsi tərəfindən alınmış, Ağdam daim ermənilərin qorxu obyekti olmuşdur. Ağdam tək özünü yox, Qarabağın digər rayonlarını da müdafiə etmək gücünə malik idi. Lakin Ağdam nə qədər ləyaqətlə döyüşsə , müdafiə olunsa da, işğal taleyindən yan keçə bilmədi.

Ağdamı süquta aparan yol 1992-ci ilin sentyabrında Gülablının alınması ilə başladı. Erməni-rus hərbi birləşmələrinin ən iri miqyaslı hücumları isə 28 may 1993-cü ildə oldu. Ratsiya vasitəsilə "Bayramınızı təbrik edirik" deyən separatçılar qrad, top və tanklardan bütün yüksəklikləri atəşə tutdular. Həmin günə qədər ermənilər Gülablı kəndinin bir hissəsinə və Naxçivanikə nəzarət edirdilər. 1993-cü ilin iyun-iyul aylarında Gəncədə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirmək imkanı vermişdi. İyunun 4-də Gəncədə baş verən qiyamdan alçaqcasına istifadə edən ermənilər Şelli kəndinə hücuma başladılar. Silah-sursat iyulun

əvvəlinə tamam tükənmişdi. Fred Asif o zaman Bakıdan on kamaz silah sursat gətirmişdi. Ağdam üzərinə edilən birinci hücum nəticəsiz qaldığından ermənilər qüvvəni Ağdərə istiqamətində cəmləşdirmişdi. İyunun 26-da Ağdərəni düşmən ələ keçirir. Sonra isə iki ordu korpusu ilə Ağdam istiqamətində hücuma başlayırlar. Ruslar tərəfindən ən müasir silahlarla və professional hərbçilərlə, zabitlərlə təchiz olunmuş 600 minlik rus-erməni ordusuna qarşı əsasən könüllülərdən ibarət və düşməndən sayca az, zəif texnika və silaha malik olan Azərbaycanın Milli Ordusu əzmkarlıqla döyüşürdü. Rus kəşfiyyatçıları Ağdamda təxribatlar törədirdilər, belə ki, ticarət anbarları, camaatın evləri talan olunurdu, insanları gəncəli, bakılı, ağdamlılara ayırırdılar, Ağdamın yerli əhalisi içində məharətlə vahimə yaradır, sakinlər arasında şaiyələr yayırdılar. Hətta döyüşçülər arasında daxili ziddiyyət və pərakəndəlik müşahidə olunurdu. Rus kəşfiyyatı döyüşən qüvvələrimizin arasına nifaq salaraq, ordumuzu daxildən də parçalamışdı. Ağdamın işğalı istiqamətində hərtərəfli, planlı iş aparılırdı. Buna baxmayaraq, özünümüdafiyə batalyonları erməni silahlı birləşmələri ilə qanlı döyüşlərə girmişdi. Muradbəylidə həmin özünümüdafiyə dəstələrimiz bilavasitə ermənilərlə üzbəüz qanlı savaşda qəhrəmancasına döyüşürdülər. Fred Asifin taboru Ağdamda qanlı küçə döyüşləri aparırdı. Dinc əhalidən də xeyli öldürülən var idi. Çox

dəhşətli olaylar yaşanırdı Ağdamımda. Əsgərlərimiz günlərlə mövqelərdə ac-susuz döyüşürdülər. Deyirdilər ki, bu vətən torpağıdır, çörək əvəzi yeyəcəyik, ancaq geri çəkilməyəcəyik. Dörd istiqamətdən hücum edən düşmənə müqavimət göstərmək üçün canlı qüvvə və hərbi texnika azlıq edirdi. Ancaq sayca az və zəif silahlanmış döyüşçülərimiz çoxlu itki verərək, iyulun 23-də geri çəkilməyə məcbur oldular. Bununla da 43 gün düşmənə qəhrəmanlıqla müqavimət göstərən Ağdam şəhəri süqut etdi. İşğalçı erməni silahlı birləşmələri evlərə od vururdu, mədəniyyət abidələri dağıdılırdı, insanların əmlakları qarət edilirdi, şəhəri tərk edə bilməyən dinc əhaliyə amansız divan tutulurdu.

Ağdam rayonunun 1094 kvadrat kilometrlik ərazisinin 882 kvadrat kilometri zəbt edildi, 128 min nəfər doğma ev-eşiyindən didərgin düşdü. İşğal nəticəsində 122 kənd, 24 min 446 yaşayış binası, 48 sənaye və tikinti müəssisəsi, 160 məktəb binası, 65 səhiyyə mərkəzi, 373 mədəniyyət ocağı, 1 teatr, 3 məscid və 2 muzey yandırılıb məhv edildi. Ağdam şəhərinin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan məscid və onun minarələri də vəhşicəsinə uçurulmuşdu.

Erməni terrorçuları Ağdamın işğalı zamanı ağır hərbi cinayətlər törətdilər və bu əməllərinə görə Azərbaycan xalqı qarşısında mütləq cavab verməli olacaqlar. Azərbaycan torpaqları hesabına, İrəvan

Xanlığının hesabına dövlət olan qondarma Ermənistan dövləti bizim hesabımıza yarandığı kimi, elə bizim hesabımıza da məhv ediləcək.

Qafqazda bir xəstəlik dolaşmaqdadır – erməni xəstəliyi. Erməni dövləti bir virusdur, xəstəlikdir və bu xəstəlikdən cəmiyyəti sağaltdığımız üçün tarix bizə "çox sağol" deyəcək.

Ağdam Qarabağ müharibəsində ən çox şəhid verən rayondur. Ermənilərlə döyüşlərdə 6 minə yaxın rayon sakini şəhid olub. Onlardan 16-sı Milli qəhrəmandır. Rayonun 160 min nəfər əhalisindən 128 mini ev-eşiyindən didərgin düşüb. Onlar ölkənin 62 şəhər və rayonunda məskunlaşıblar. İşğal nəticəsində rayona 3 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan dəyib.

1994-cü il may ayının 12-dək davam edən hərbi təcavüz nəticəsində ermənilər Ağdam rayonu ərazisinin 846,7 kvadrat kilometrini, yəni ümumi ərazisinin 77,4 faizini işğal etməyə nail oldular. İşğal edilmiş Ağdam şəhəri və rayonun 89 kəndi bəşər tarixində bənzəri olmayan bir vəhşiliklə , yerlə-yeksan edildi. Ağdamın müdafiəsi uğrunda 5 ildən artıq gedən qanlı döyüşlərdə qismətinə 5897 şəhid, 3531 nəfər əlil, 1871 nəfər yetim uşaq düşdü. Minlərlə insan fiziki şikəstlik qazanmış, 126 min nəfərdən artıq ağdamlı öz doğma ev-eşiyindən didərgin düşmüşdü. Minlərlə analar şəhid anasına çevrilmişdilər. Baxmayaraq ki, üstündən 22 ildən də

çox vaxt ötüb, yaramız hələ də qaysaq bağlamayıb, o günlərin acılarını xalqımız indi də yaşamaqda davam edir. Ta ki, itirilmiş torpaqlarımız qayıtmayınca bu yara hələ də bizi incidəcək.

Dünən 20 yanvar idi. Şəhidlər xiyabanında tükürpədici bir mənzərənin şahidi oldum. Şəhid anası xahiş etdi ki, mənim oğlumla şəkilimi çək. İnanırsız ki, gözümün yaşlarına hakim ola bilmədim.

20 yanvar 2015-ci il, Şəhidlər xiyabanı. Müthiş bir mənzərə.




*Şəklimlə şəkil çəkdirən Ana*
*Sil göz yaşlarını, daha ağlama.*
*Qəbrimdə qərənfil əkdirən Ana,*
*Dağlanmış qəlbləri daha dağlama.*
*Oğlunun daşına baş qoyan Ana,*
*Qəlbinə daş qoyub, daşa ağlama.*
*Evladıyçün mağar qurduran Ana,*
*Yası toy zənn edib, xonça bağlama.*
*Oğulçün vağzalı çaldıran Ana,*
*Vağzala həsrətlə baxıb ağlama.*
*Şəhid oğlu üçün ağlayan Ana*
*Ağlayıb da içdən sızlama, Ana.*
*Evladçün ürəyi hey yanan ana,*
*İndi qalıb yaziq, lap yana-yana.*
*Şəklim ilə şəkil çəkdirən Ana,*
*Sil göz yaşlarını nə olar ağlama !*
*Ağlama, Anacan, daha ağlama.*

İlahi, bu görüntü məni o qədər sarsıtdı ki... Beş dəqiqəyə göz yaşı ilə birgə gəldi bu misralar içimdən. Şairlər önündə cəsarət etdimsə, bağışlasınlar.

Hər dəfə bu şeiri oxuyanda kövrəlirəm, əgər sizi də kövrəltdimsə, üzr istəyirəm.

Allah bütün şəhid analarına səbir versin. Bütün indiki və gələcək Azərbaycan xalqı ilk öncə şəhid analarının qarşısında, sonra isə şəhidlər qarşısında baş əyir.



Bu şəkil Muradbəylidə çəkilib. Şəkildə gördüyünüz uşağın adı Behbudov Cavid Alı oğludur, 1979-cu il 24 fevralda Ağdamın Xıdırlı kəndində anadan olmuşdur. 12 yaşından atası- baş leytenant Behbudov Alı Fərman oğlu ilə birgə Fred Asifin özünümüdafiyə batalyonunda ermənilərə qarşı döyüşmüşdür. Şəkildə Cavidin 13 yaşı var. Atası da, özü də sağdır, hazırda Bakının Sahil qəsəbəsində yaşayırlar.

Sahil qəsəbəsində yaşayan dostum Ziya Mirövsət oğlu Qasımovun köməkliyi ilə bu gün-28 fevral 2015-ci ildə Cavidlə görüsüm baş tutdu. Mən özüm məmnuniyyətlə Sahil qəsəbəsinə, Cavidlə görüşə getməyə hazır olduğumu bildirsəm də, gözləmədiyim halda Ziya, Cavidlə birgə özü bizə qonaq gəldi. Onunla tanış olmağıma çox şad oldum.

1952-ci il təvəllüdlü Alı kişi 40 yaşında Milli Qəhrəman, Asif Məhərrəmovun batalyonunda maliyyə xidmətinin rəisi vəzifəsində çalışırdı. Cavid də atası ilə çiyin-çiyinə 12 yaşında əyninə hərbi forma geyib, əlinə avtomat alaraq özünümüdafiyə batalyonunda Vətənə xidmət edirdi.

Behbudov Cavidin dilindən:

*"Fred Asif mənimlə fəxr edirdi. Hərbi hissəyə gələndə hər dəfə deyirdi ki, bu uşaqla fəxr etmək lazımdır. Balaca ölçülü hərbi forma və botinkanı şəxsən özü mənim üçün xüsusi olaraq tikdirmişdi, hələ bir ədəd də dəmirdən olmayan yüngül bronjilet vermişdi. 1993-cü ilin yayında Fred Asif Xıdırlı kəndi uşaqlarından ibarət könüllülərə AK 5x45 markalı avtomatlar payladı və mənə də bir avtomat verdi. Avtomat ağır olduğundan daşıya bilmirdim, ona görə də qundağını çıxartmışdım. Qara Qaya, Şelli ayağı, Əsgərana tərəf erməni mövqelərinə PK-dan atəş açmağı xoşlayırdım. 1992-ci ildə VAZ-21-011 markalı avtomobildə oturmuşdum, birdən 4-5 ədəd Qrad dalbadal maşının həndəvərinə*

*düşdü, sağ gözümdən qəlpə yarası aldım. İndi həmən gözüm, demək olar ki, görmür.*

*Fred Asifin qardaşı Ədalət Məhərrəmov, Əkrəm, Cavad, Sarıcalıdan – Elton, Nail, Mürvət, tankçı Allahqulu və digər mərd uşaqlar batalyonda qəhrəmancasına düşmənə qarşı döyüşürdülər. Tankçı Allahqulunun tankını ermənilər vurmuşdu. Lakin o, yanan tankdan salamat çıxsa da əllərini möhkəm yandırmışdı. Hazırda sağdır. Ürəkli uşaqlar çox idi."*

Şəkildə Cavid Behbudovun solunda əyləşən oğlan 1994-cü ildə yanılmıramsa Qərvənd batalyonunda da xidmət edib, yaxşı tanıyıram, mərd oğlanlardan biri idi, əfsuslar olsun ki, adını nə mən, nə də Cavid yadımıza sala bilmədik.

## 15 OĞUL İSTƏRƏM



## Ağdamın şəhid olan Milli Qəhrəmanları

### *1. Mirzəyev Şirin Vəli oğlu (1947-1992)*



Əslən Şuşanın Mirzələr kəndindən olan Şirin Mirzəyev 1947-ci il yanvar ayının 5-də Xankəndində dünyaya göz açmışdır. Nizami adına beynəlmiləl orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yola düşmüşdür. Bir müddət Bakıda yerləşən Daxili Qoşunlar alayında xidmət etdikdən sonra 1967-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərindəki Ali Siyasi Hərbi məktəbə qəbul olmuş və 1971-ci ildə hərbi təhsilini müvəffəqiyyətlə başa vurub təyinatla İrəvana – (Qərbi Azərbaycana) göndərilib. Beş il orada xidmət etdikdən sonra isə Bakıya qayıtmışdır. 1988-ci ildə Hərbi Siyasi Aakdemiyada təhsil alaraq, Daxili Qoşunlar alayında 15 illik xidmət yolu keçmişdir. 1991-ci ildə qəlbində alovlanan Vətən məhəbbəti, vətənə xidmət arzusu onu Ağdama çəkib gətirdi. “Kabinetdə işləmək vaxtı deyil” dedi və ailəsini

Bakida qoyub, nazirlikdən təkidlə Ağdama göndərilməsini xahiş etdi.

Həyat yoldaşı, millət vəkili Flora xanıma demişdi ki, məni Ağdamdan çağırırlar, mən gedirəm. Eləcə qaldı orda, daha geri qayitmadı. Özü də elə bir vaxtda ki, onun kimi peşəkar hərbçilərə vətənin böyük ehtiyacı duyulurdu.

1991-ci ilin oktyabr ayında bütün maneələrə və təqiblərə baxmayaraq, polkovnik-leytenant Şirin Mirzəyev respublikamızda ilk nizami özünümüdafiə batalyonunu min bir əziyyətlə yaratdı. Bu, o dövr üçün çox zəruri bir addım idi. Artıq 1992-ci ilin may ayında üç tabordan ibarət alay yaradıldı. Ş.Mirzəyev Ağdam rayonunun həm hərbi komissarı və həm də alay komandiri kimi məsul vəzifələri çox bacarıqla yerinə yetirirdi. 1992-ci il mart ayının 28-də Şirin Mirzəyevin və onun tərəfdarlarının səyi nəticəsində respublikada 1-ci olan tabor yaradıldı və ürəyi Vətən sevgisilə çırpınan podpolkovnik Şirin Vəli oğlu Mirzəyev Ağdam rayon ərazi özünümüdafiə taborunun komandiri seçildi. Əsgərləri döyüşə apararkən “geriyə yol yoxdur” deyirdi.

***18 iyun 1992-ci ildə Şirin Mirzəyev Xankəndinə gedəcək qələbə yolu hesab etdiyi Xaçın qəsəbəsində yerləşən taborun qərargahından Əliağalı kəndindəki postlara qədər olan beş kilometrlik yolda ön cəbhədən qayıdarkən minaya düşərək həlak olmuşdu.***

Xalqın qəhrəman oğlu polkovnik-leytenant Şirin Vəli oğlu Mirzəyev ən yüksək ada – Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü. Adına Bakı şəhərində küçə var. Xidmət etdiyi N-saylı hərbi hissənin həyətində abidəsi qoyulmuşdur.

### *2. Məhərrəmov Asif Yusif oğlu (1952-1994)*



Asif Yusif oğlu Məhərrəmov (Fred Asif) 27 iyul 1952-ci ildə Ağdam rayonunda anadan olmuş, idmanın boks və futbol növləri ilə məşğul olmuşdur. Nankor ermənilərin 1988-ci ilin fevralından torpaq iddiası irəli sürdükləri vaxtdan A.Məhərrəmov milli azadlıq hərəkatının önündə olmuşdu. O, qardaşlarını, dostlarını ətrafında birləşdirərək "Haqq cəbhəsi" birliyini yaratdı. Asif Məhərrəmov xalqın gözləri qarşısında əfsanəvi Fred Asifə çevrildi. Ölümü ilə ölümsüzlüyə qovuşan , üzərində qanları tökülmüş torpaqları bizlərə Vətən edənlər,Vətənimizin qeyrət simvolu igid əsgərlərimiz Fred Asifin komandiriyi ilə Şelli, Aranzəmin, Naxçivanik, Abdal-Gülablı , Pircamal, Ağbulaq, Dəhraz və

neçə-neçə kəndlərin düşməndən azad edilməsi uğrunda qəhrəmanlıqlar göstərmişlər. 1993-cü il 27 oktyabrda onun səhhəti ağırlaşır. Hərbi hissəni təhvil verərək müalicəsini davam etdirməli olur. 1994-cü ildə müalicə məqsədi ilə Yaltaya gedir. ***Asif Məhərrəmov ağır xəstəlikdən 01 iyul 1994-cü ildə Yaltada əbədiyyətə qovuşmuşdur.***

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Məhərrəmov Asif Yusif oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Bakı şəhərində qəhrəmanımızın adına küçə var.

Bakı şəhərinin ikinci Şəhidlər xiyabanında dəfn edilmişdir.

### *3. Bağırov Allahverdi Teymur oğlu (1946-1992)*



Allahverdi Teymur oğlu Bağırov 22 aprel 1946-cı ildə Ağdam şəhərində anadan olmuş, 1 saylı orta məktəbi bitirmiş, idmanın futbol növü ilə məşğul olmuşdu. Ermənilərin torpaq iddiası qaldıraraq təcavüzə başladıqları zaman geniş vüsət almış xalq hərəkatının önündə

Bağırov qardaşları dayanmışdılar. Azərbaycan torpaqlarını azğın ermənilərdən müdafiə, işğaldan azad etmək üçün 1991-ci ilin oktyabrında Allahverdi Bağırov N saylı hərbi hissəni yaradaraq, ətrafına qeyrətli Vətən oğullarını toplamışdı. Qarabağ hadisələri başlayana qədər o, Ağdamda futbolçu kimi tanınmış, ad-san qazanmışdı; 1966-cı ildən 1983-cü ilədək Ağdam uşaq–gənclər idman məktəbində məşqçi işləməklə yanaşı, «Qarabağ» futbol komandasında fəaliyyət göstərirdi.

Allahverdi haqsızlıqla barışmayan, sözübütöv, mərd bir insan idi.

O, 1988-ci ildə ermənilərin Qarabağa təcavüzünün ilk günlərindən Xalq Hərəkatına qoşulur və onun fəallarından olur. 20 Yanvar faciəsi onun düşmənə qəzəbini daha da şiddətləndirir. O, könüllülər batalyonu yaradır. Ağdamın bir sıra kəndlərinin müdafiəsində bu batalyonun döyüşçüləri mərdliklə vuruşmuşlar. 1992-ci ildə Allahverdi, bəlkə də ömrünün ən həyəcanlı, ən narahat günlərini yaşayırdı. Mühasirədə olan kəndlərə kömək etmək, ərzaq çatdırmaq heç də asan iş deyildi. O, var gücü ilə həmin kəndləri azad etməyə çalışırdı.

1992-ci ilin fevralında Xocalı faciəsi zamanı Allahverdi Bağırovun batalyonu Əsgəran yaxınlığında yüzlərlə soydaşımızı xilas edə bildi.

***1992-ci il iyun ayının 12-də məhz batalyonun səyi nəticəsində Aranzəmin, Naxçıvanik, Dəhraz, Mirkənd, Pircamal kəndləri düşməndən azad edildi. O, inanırdı ki, tezliklə müharibə bitəcək və qoşunlarımız***

***Xankəndinəcən irəliləyəcəkdir. Lakin cəsur komandir arzusuna çata bilmədi. Gözətçi məntəqələrini yoxlayıb qərargaha dönərkən sürücüsü Əmir ilə birlikdə minaya düşdü və hər ikisi qəhrəmancasına həlak oldular.***

Ailəli idi, bir oğlu, iki qızı var.

Azərbaycan Respublikası Prezidentinin 24 fevral 1993-cü il tarixli 476 saylı fərmanı ilə qorxmaz komandir Bağırov Allahverdi Teymur oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Ağdam rayon Şəhidlər xiyabanında dəfn edilmişdir.

### *4. Edilov Yelmar Şahmar oğlu (1946-1994)*



Yelmar Şahmar oğlu Edilov 10 aprel 1946-cı ildə Ağdam rayonunun Əliməddli kəndində anadan olmuşdu, 1965-ci ildə kənd orta məktəbini bitirmiş, 1968-70-ci illərdə hərbi xidmət çəkmişdir. İdmanın sambo növü ilə məşğul olmuşdu. Mənfur ermənilərin qəddarlığı hər kəs kimi Yelmar Edilovu da

hövsələdən çıxardı. 1992-ci ildə Edilovlar bir yerə toplaşaraq Şirin Mirzəyevin əmri ilə “diversiya” qrupu yaratdılar və Yelmar Edilov qrupun komandiri təyin olundu. Hər bir tapşırığı məharətlə yerinə yetirən qrupun və komandirinin adı qısa vaxtda əfsanəyə çevrilib, dillərə düşdü. 1994-cü ilin aprelində Ümummilli lider Heydər Əliyevin Beyləqan rayonunda hərbi hissə komandirləri ilə görüşündə ayın 11-də ermənilərin güclü hücum əməliyyatları keçirəcəkləri məlumatı verilmişdi. Aprelin 11-də ermənilər cəbhə boyu hücuma keçdilər. ***11 aprel 1994-cü il… Cəsur komandirin son döyüşü… Düşmən böyük qüvvə ilə «Çərik» kökəltmə məntəqəsinə tərəf hücuma keçir. Y. Edilovun komandirlik etdiyi tabor ölüm-dirim savaşına girir. Sol cinahdan hücuma keçən döyüşçülərimiz düşmənin 2 tankını vurmağa müvəffəq olur. Böyük itkilər verən düşmən geri çəkilməyə məcbur olur. Lakin hələ həlledici zərbə endirilməmiş, hələ döyüş bitməmişdi. Gözlənilmədən Yelmarın yanında bir mərmi partladı. Beləcə onun ömrü də, arzuları da qırıldı. Pulemyotu sinəsinə sıxıb düşmənə göz açmağa imkan verməyən cəsur komandirə tank mərmisi tuşlandı və 48 yaşında gözlərini əbədi yumdu.***

Evli idi. 7 övlad atası idi – beş oğul, iki qız.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə Edilov

Yelmar Şahmar oğluna ölümündən sonra «Azərbaycanın Milli Qəhrəmanı « adı verilmişdir.

Bakı şəhəri ikinci Şəhidlər xiyabanında dəfn edilmişdir.

### *5. İsgəndərov Əlabbas Qara oğlu (1958-1992)*



Əlabbas Qara oğlu İsgəndərov 25 iyun 1958-ci ildə Ağdam rayonunun Kürdlər kəndində anadan olmuşdur. Hər kəs kimi Əlabbas da yüksək amallarla dinc həyat sürürdü. Ancaq ermənilərin sərsəm "Böyük ermənistan " xülyası hamı kimi Əlabbasın da dincliyini pozdu. Bu haqqsızlığa tab gətirə bilməyib polkovnik –leytenant Şirin Mirzəyevin taburunda kəşfiyyat bölüyünə yazıldı. Daim verilən tapşırıqların öhtəsində gələn mərd döyüşçü üzərinə düşən vəzifəni layiqincə yerinə yetiridi. Növbəti tapşırığı Qazançı kəndinə hücum əməliyyatı hazırlanarkən almış Ə.İsgəndərov bir gecəyə düşmənin bütün mövqelərini dəqiqliklə öyrənib alay komandirinə məlumat çatdırdı və 4 mart 1992-ci ildə keçirilən döyüş əməliyyatında özü də iştirak edərək öndə getdi. Cəsur

döyüşçülərimiz vuruşa-vuruşa irəliləyir, düşmən yuvasına od vururdular. ***Qarşıdakı evlərin birində pulemyot susmaq bilmirdi, döyüşçülərimizə itkilər verirdi. İgid döyüşçümüz avtomatı sinəsinə çıxıb düşməni susdurdu. Əfsanəvi qəhrəman özü də düşmən gülləsinə tuş gəldi, lakin bir daraq gülləni düşmənin bədəninə dolduraraq onu da məhv etdi.***

Azərbaycan Respublikası Prezidentinin 13 avqust 1992-ci il tarixli 135 saylı fərmanı ilə İsgəndərov Əlabbas Qara oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Ağdamın Şəhidlər xiyabanında dəfn edilmişdir.

### *6. Ağayev Faiq Alış oğlu (1969-1991)*



Faiq Alış oğlu Ağayev 06 iyun 1969-cu ildə Ağdam rayonunun Papravənd kəndində anadan olmuş, 1986-cı ildə kənd orta məktəbini bitirmişdi.1987-89-cu illərdə Moskva şəhərində hərbi xidmətdə olmuşdur. Vətəninin ağır günündə onun müdafiəsində dayanmaq üçün Ağdam rayon Polis İdarəsinin nəzdində yaradılmış post-patrul alayına işə

qəbul olunur. Müxtəlif döyüş əməliyyatlarında mətinliklə döyüşmüşdü. F.Ağayev Laçın, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Zəngilan rayonlarında döyüşlərdə iştirak etmişdi. Quşu gözündən vuran Faiq ermənilərі də sərrast atəşi ilə gözündən vuraraq o, dünyaya vasil edirdi. 1991-ci il… Dekabr ayının 23-ü… Meşəli kəndi erməni yaraqlılarının hücumuna məruz qalmışdı. Düşmənin zirehli texnikası, onun arxasınca piyadalar tüstüyə bürünmüş meşədən kəndin üzərinə yeriyirdi. Güllələrdən, mərmilərdən evlər alovlanır, qocalar, qadınlar, uşaqlar həlak olurdular.

Od alıb alovlanan evlərdə diri-diri yananlar da az deyildi. Özünü birtəhər bayıra atıb ölümdən can qurtarmağa cəhd edənləri erməni faşistləri xüsusi qəddarlıqla güllələbaran edirdilər.

Döyüşçülərimiz dinc əhalini təhlükəsiz yerə çıxarmağa çalışırdı. Vəziyyət son dərəcə ağır idi. Uçurulmuş evlərin birini istehkama çevirmiş Faiq sərrast atəşlə erməni yaraqlılarını yerə sərir, dinc əhalinin qaçıb meşədə daldalanması üçün imkan yaradırdı. Düşmən atəşini özünə cəlb etməklə Faiq onlarla qadını, uşağı ölümdən xilas elədi. O, döyüş mövqeyini axıradək tərk etmədi, son nəfəsinə kimi vuruşdu. Qəhrəman Vətən oğlu başqalarının həyatını xilas edərkən öz həyatını qurban verdi.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr

1992-ci il tarixli 264 saylı fərmanı ilə Ağayev Faiq Alış oğluna ölümündən sonra «Azərbaycanın Milli Qəhrəmanı» adı verilmişdir.

Ağdam rayonunun Papravənd kəndində dəfn edilmişdir.

### *7. Qasımov Muxtar Cahid oğlu (1958-1992)*



Muxtar Cahid oğlu Qasımov 10 yanvar 1958-ci ildə Beyləqan rayonunun Kəbirli kəndində müəllim ailəində anadan olmuşdur. 1963-cü ildə Qasımovlar ailəsi öz ata-baba yurdları Ağdam rayonuna qayıtmışlar. 1974-cü ildə orta məktəbi bitirmiş, 1975-ci ildə ATİ-yə qəbul olunmuş, 1981-ci ildə institutu bitirərək DQMV gələrək Xankəndində Təcili Yardım Stansiyasında həkimlik fəaliyyətinə başlamışdır. 1988-ci ilin fevralında ermənilər iğtişaşlar törətdikdən sonra Ağdam RMX-ya gələrək reanimasiya şöbəsində həkim işləmişdir. Ermənilərin təcavüzünə dözməyərək 1992-ci ilin Xocalı faciəsindən sonra Ağdam Hərbi Səhra Cərrahiyyə Hospitalına gələrək əsgərlərimizə tibbi

xidmət göstərmək arzusunda olduğunu bildirmişdir. Döyüş zamanı yaralanan əsgərlərimizə daha çevik və operativ tibbi xidmət göstərmək məqsədilə Muxtar Qasımov ön cəbhədə olmuş və bunun nəticəsində neçə-neçə döyüşçülərimizi ölümün pəncəsindən xilas edərək həyata qaytarmış, daim döyüş ruhunun yüksəldilməsinə çalşmışdır.

***1992-ci il iyunun 16-da Naxçıvanik kəndi uğrunda gedən döyüşdə qəhrəmanlıqla həlak olub.***

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə Qasımov Muxtar Cahid oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

### *8. Rüstəmov Hidayət Eldar oğlu (1970-1991)*



Hidayət Eldar oğlu Rüstəmov 19 avqust 1970-ci ildə Ağdam rayonunun Xıdırlı kəndində anadan olmuş, səkkizillik məktəbi bitirdikdən sonra Ağdam rayon 50 saylı TPM –də sürücülük ixtisasına yiyələnmiş, idmanın sambo növü ilə məşğul olmuşdur.

H.Rüstəmov 1988-90-cı illərdə hərbi xidmət çəkmiş və 1991-ci ilin iyununda Ağdam rayon Polis İdarəsinin nəzdində yaradılan post-patrul alayına işə düzəlmişdir. Vətən təəssübkeşliyini hər şeydən uca tutan Hidayət Rüstəmov ona tapşırılan hər bir tapşırığın öhdəsindən uğurla gəlir, Martuni rayonunun Əmirallar, Kuropotkino, Muğanlı, Qaradağlı kəndlərində yaşayan həmyerlilərimizin erməni quduzluğundan qorunmasında şücaətlər göstərmişdi. Qorxmazlığına görə ona "Mirpaşa" ləqəbi də vermişdilər. ***23 dekabr 1991-ci il tarixdə erməni işğalçıları Meşəli kəndinə hücum edərək ağılasığmaz vəhşiliklər törədirdilər. Boş evlərin birini özünə istehkam seçən cəsur polis çavuşu Hidayət qəfil sərrast atəşlərlə erməni quldurlarının xeyli qüvvəsini məhv etdi. Murdar erməni faşistləri evə od vurdular. Qorxunun nə olduğunu bilməyən Azərbaycan döyüşçüsü son nəfəsinə qədər vuruşdu. Dekabr ayının 23-də baş verən döyüşdə tankdan atılmış mərmidən Hidayət Rüstəmov həlak oldu.***

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Rüstəmov Hidayət Eldar oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Ağdam rayonunun Şəhidlər xiyabanında dəfn edilib.

### *9. Paşayev Baxşeyiş Xanəhməd oğlu (1936-1992)*



Baxşeyiş Xanəhməd oğlu Paşayev 01 may 1936-cı ildə Ağdam rayonun Əhmədavar kəndində anadan olmuşdur. Ağdam Kənd Təsərrüfatının Mexanikiləşdirilməsi və Elektrikləşdirilməsi texnikumunu bitirmiş və daha sonra qəlbən sevdiyi sürücülük peşəsinə yiyələnərək 1969-cu ildən 25 saylı SMD – də sürücü kimi fəaliyyətə başlamışdır. 1991 –ci ildə ermənilərin torpaqlarımıza təcavüz etməsinə dözməyərək Yaqub Rzayevin ətrafında birləşərək düşmənə qarşı döyüşdü. N-saylı hərbi hissə Ağdamın müdafiəsində N-saylı müdafiə postundan başlayaraq Yeddixırman dağ yüksəkliyinə qədər ərazidə mətinliklə vuruşaraq düşmənə sarsıdıcı zərbələr vururdu ki, sözsüz ki, burada hər yeri beş barmağı kimi tanıyan kəşfiyyat qrupunun rəhbəri, cəsur döyüşçü Baxşeyiş Paşayevin qiymətsiz xidmətləri olmuşdu. ***12 iyun 1992-ci ildə N saylı hərbi hissəyə Xanabad kəndini ələ keçirmək tapşırığı verildi. Lakin həmin döyüşdə qəhrəmancasına həlak oldu.***

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr

1992-ci il tarixli 350 saylı fərmanı ilə Paşayev Baxşeyiş Xanəhməd oğluna ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adı verilmişdir.

Ağdam rayonunun Şəhidlər xiyabanında dəfn edilib.

### *10. Əhmədov Natiq İlyas oğlu (1969-1991)*



Natiq İlyas oğlu Əhmədov 01 sentyabr 1969-cu ildə Dağlıq Qarabağın Kosalar kəndində anadan olmuş, 1975-ci ildə köçüb Ağdam rayonunun Novruzlu kəndində məskunlaşmışlar. 1987-89-cu illərdə Sovet Ordusu sıralarında hərbi xidmət çəkmiş, idmanın karate və futbol növləri ilə məşğul olmuşdu. 1990-cı il qanlı " 20 yanvar " faciəsini eşidən Natiq Əhmədov Riqa şəhərindən Vətənə dönmüşdü. O burada Xocalı rayon Polis Şöbəsi yol-patrul xidməti bölməsinə işə qəbul olundu və qısa müddətdən sonra bölmənin müfəttişi vəzifəsinə təyin edildi. O, daim öz qətiyyəti və mübarizliyi ilə ermənləri sarsıdırdı.

***26 sentyabr 1991-ci il… O, xidmət yoldaşı Əli ilə Əsgərandan keçib Xocalıya öz iş yerinə getməli idi. Ancaq iki dost, iki silahdaş iş yerinə gedib çıxa***

***bilmədi. Əsgəran qalasına yaxınlaşanda Əlinin idarə etdiyi maşın pusqu qurmuş ermənilər tərəfindən atəşə tutuldu. Vətəni canlarından artıq sevən bu iki gənc qəhrəmancasına həlak oldu.***

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Əhmədov Natiq İlyas oğluna ölümündən sonra «Azərbaycanın Milli Qəhrəmanı» adı verilmişdir.

Ağdam rayonunun Novruzlu kəndində dəfn edilmişdir.

### *11. Mehdiyev Fazil Umud oğlu (1966 -1991)*




Fazil Umud oğlu Mehdiyev 20 avqust 1966-cı ildə Laçın rayonunun Ələkçi kəndində anadan olmuş, 1972-ci ildə köçərək Ağdam rayonunun Abdal-Gülablı kəndində məskunlaşmışdılar. 1984-cü ildə Gülablı kənd orta məktəbini bitirmiş, sonra hərbi xidmətə yollanmışdır. Mənfur ermənilərin haqsız torpaq iddialarına dözməyən, qəlbi düşmənə qarşı nifrətlə dolu olan F.Mehdiyev 1990-cı ilin oktyabrında Ağdam Polis İdarəsinin post-patrul alayına işə düzələrək

Vətənin müdafiəsinə başlamışdı. O, Xocavəndin Qarabağlı, Əmrallar, Muğanlı, Şuşanın Kosalar, Xocalıda, Ağdamın Cinli, Əliağalı kəndlərində gedən döyüşlərdə iştirak etmişdi. 1991-ci ildə Qaradağlı kəndində ağır yaralanan Fazil azacıq sağalan kimi cəbhəyə qayıdır. Fazil 1991-ci ilin avqust ayında erməni işğalçılarına məxsus "Niva" markalı avtomobili ələ keçirib polis idarəsinə təhvil vermişdi. 1991-ci il sentyabrın 23-dən 24-ə keçən gecə ermənilər Abdal Gülablı (Gülablı) kəndinə hücum etmişdilər. Fazil dostu Salehlə maşına minib döyüşə tələsir. Ağdama gələn yolda pusqu quran ermənilər onları atəşə tuturlar və Fazil bu döyüşdə faciəli surətdə həlak olur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Mehdiyev Fazil Umud oğluna ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir.

Ağdam rayonunun "Qarağacı" qəbiristanlığında dəfn edilib.

Bakının Nəsimi rayonunda büstü qoyulub, Səbail rayonunda isə adına küçə var.

### *12. Qasımov İxtiyar Qasım oğlu (1970-1992)*



İxtiyar Qasım oğlu Qasımov 22 mart 1970 – ci ildə Ağdam rayonunun Salahlı kəndində anadan olmuş, 1988-ci ildə kənd orta məktəbini əla qiymətlərlə bitirmiş, daha sonra Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə daxil olmuşdu. Döyüş yolu Papravənd kəndində yaradılmış özünümüdafiə dəstəsindən başlayan İ.Qasımovun igidliyinin, mərdliyinin sorağı hər yana yayılmışdı. ***1992-ci il 14 iyul tarixdə ermənilər Canyataq kəndinə hücuma keçdilər, burada bir neçə döyüşçü yaralanır onların erməni qəsbkarlarının əlinə keçməməsi üçün İxtiyar özünü qabağa ataraq əks hücumun qarşısını almağa çalışır. Yaralıları xilas edirlər, İxtiyar özü isə qəhrəmancasına həlak olur.*** Milli ordumuzun 15 kilometrə qədər irəliləməsində, neçə-neçə kəndlərimizin düşməndən təmizlənməsində, erməni yaraqlılarının əsir götürülməsində göstərmiş olduğu

qəhrəmanlıq və digər sayagəlməz xidmətləri yüksək qiymətləndirilir.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Qasımov İxtiyar Qasım oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Vaxtilə oxuduğu Salahlı kənd orta məktəbi onun adını daşıyır.

Salahlı kənd qəbiristanlığında dəfn edilib.

### *13. Hüseynov Rövşən Şamil oğlu (1969-1992)*



Rövşən Şamil oğlu Hüseynov 22 fevral 1967-ci ildə Ağdam rayonunun Quzanlı kəndində doğulmuş, 1985-ci ildə orta məktəbi bitirərək BDU-nin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1985-87-ci illərdə hərbi xidmət çəkmişdir. 1992-ci ildə BDU-nun sonuncu kurs tələbəsi olan R.Hüseynov “Xocalı faciəsi” baş verdikdə bu dərdə dözə bilməyərək 20 nəfər tələbə dostları ilə taqım komandirliyi ixtisasına yiyələnmək üçün Ali Ümumqoşun komandirlər məktəbinə üz tutdu. ”Bakılı tələbələr” adladırılan taqım

Goranboy cəbhəsinə göndərildi və Rövşən Hüseynov komandir təyin edildi. Rövşən Hüseynov düşmənə qarşı keçirilən döyüşlərdə fədakarcasına döyüşmüş, düşmənin texnika və canlı qüvvələrini məhv etmişdi. 1992-ci il 28 aprel erməni işğalçıları 300 nəfərlik qoşun və böyük silah sursatla Ağcakənd istiqmətində hücuma keçmişdi. Rövşənin taqımı nəinki ermənilərin iki zirehli texnikasını, hətta onlarla canlı qüvvəsini məhv edə bildi. ***1992-ci il 11 may Şıxarx uğrunda qanlı döyüşlər gedirdi. Mingəçevir alayının 27 əsgəri mühasirəyə düşmüşdü. Tələbə taqımı onları xilas etmək əmrini alır. Rövşənin başçılıq etdiyi taqım döyüşə atıldı onlar mühasirəyə düşən 27 döyüşçünü azad etsələr də, lakin özləri mühasirəyə düşdülər. Rövşən atəş nöqtəsini öz üzərinə cəlb edərək tələbələrə təhlükəsiz yerə çəkilmək əmrini verir. Tələbələrdən ikisi həlak olur, digərləri isə mühasirədən çıxa bilir. Pulemyotu ilə erməni faşistlərinin xeyli hissəsini məhv edən cəsur vətən övladı döyüş meydanında qəhrəmancasına həlak oldu. 14 may diplom işinin müdafiəsi qəhrəman döyüşçüyə qismət olmadı.***

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 1994-cü il tarixli 202 saylı fərmanı ilə Hüseynov Rövşən Şəmil oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

### *14. Rzayev Canpolad Yaqub oğlu (1969-1992)*



Canpolad Yaqub oğlu Rzayev 05 sentyabr 1969-cu ildə Ağdam rayonunun Çuxurməhlə kəndində anadan olmuş, 1985-ci ildə Əhmədavar kənd orta məktəbini bitirmişdir. Daha sonra Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Erməni qəsbkarları növbəti dəfə torpaq iddiası ilə təcavüzə başlayarkən, Vətənin ağır günündə ilk özünümüdafiə dəstəsi yaradanlardan biri, sonralar "Qatır Məmməd" ləqəbi ilə məşhurlaşmış Yaqub Ələsgər oğlu Rzayev oldu. Yaqub kişinin ilk oğlu Canpolad Rzayev də dəstəyə üzv oldu. Dəstənin üzvləri hünər meydanında öz sözlərini deyərək düşmənə ağır zərbələr endirir, itkilərə məruz qoyurdular. Bütün döyüşlərdə Yaqub və Canpolad Rzayevlərin öndə getməsi döyüşçülərə ruh yüksəkliyi verir, qələbəyə inamı artırırdı. N saylı hərbi hissə statusu verilmiş dəstə hər cür silah və texnika ilə təchiz olunurdu. ***26 fevral, qanlı xocalı facisəsi günü Xocalılara kömək məqsədilə tankına oturaraq Qaraqaya kəndinə üz tutdu, hərbi hissənin bütün***

***heyəti döyüşə atılmışdı. Həmin döyüşdə Canpolad Rzayev BRDM-dən (бронированная разведывательно-дозорная машина) açılan güllələrdən həlak oldu.*** Xalqımızın tarixinə qəhrəmanlıq salnaməsi yazdı Canpolad Rzayev.

Evli idi, iki övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Rzayev Canpolad Yaqub oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Ağdam şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

### *15. Əliyev Nadir Alış oğlu (1962-1993)*



Nadir Alış oğlu Əliyev 30 iyun 1962-ci ildə Ağdam rayonunun Əliağalı kəndinin Kolanı obasında dünyaya gəlmiş, 1981-ci ildə Bakı Politexnik Texnikumunu bitirmiş və elə həmin ildə BDU-nun hüquq fakültəsinə daxil olmuşdu. Hərbi xidmətdə olarkən təhsilini dayandırmadan 1986-cı ildə SSRİ DTK-nin ali məktəbinə qəbul olmuş və 1991-ci

ildə həmin məktəbi, 1993-cü ildə isə hüquq fakültəsini bitirmişdi. Erməni vəhşiliklərindən hiddətə gəlmiş Nadir Əliyev leytenant rütbəsi ilə MTN-nin Ağdam – Ağcabədi şöbəsində xidmət edir. Nadir Əliyev gecələr kəşfiyyata çıxır, ermənilərin məntəqələrinin yerini dəqiqləşdirir lazımı yerlərə məlumat verirdi. Leytenant Nadir Əliyev N-saylı Ağdam ərazi özünmüdafiə alayının komandiri Şirin Mirzəyevlə çiyin-çiyinə verərək hücum əməliyytaları hazırlayır və əməliyyatın uğurla keçirilməsində var qüvvəsini əsirgəmirdi***. İyulun 22-də düşmən Qiyaslı kəndi istiqamətindən Ağdama hücuma keçdi, vətənin igid oğlu baş leytenant Nadir Əliyev döyüşdə sinəsindən üç güllə yarası alaraq həlak oldu.***

Ailəli idi. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 1994-cü il tarixli 218 saylı Fərmanı ilə Əliyev Nadir Alış oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Suraxanı rayonundakı 282 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.

Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

### *16. Ağdamın yeganə həyatda olan Milli Qəhrəmanı Əkbərov Rövşən Telman oğlu — General-Leytenant.*



4 iyun 1965-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1972-ci ildə 42 saylı məktəbin birinci sinfinə getmiş, səkkizinci sinfə qədər burada təhsil almışdır. 1979-cu ildə C.Naxçıvanski adına Hərbi Məktəbə (indiki Hərbi Lit-sey – red.) daxil olur. O, 1982-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurur. Sonra isə Kiyev Ali Ümumqoşun Komandirlər Məktəbi… Gənc zabit 1986-cı ildə təyinatla Zaqafqaziya Hərbi Dairəsi komandanlığının sərəncamına göndərilir. O, bir il Zaqafqaziya Hərbi Dairəsinin N-saylı Ümumqoşun Ordusunun N-saylı motoatıcı diviziyasının N-saylı motoatıcı alayında kəşfiyyat bölüyünün taqım komandiri işləyir. 1987-ci ildə taqım komandiri kimi xidmət etdiyi Ordunun tərkibində Əfqanıstana göndərilir. Burada xidmətini uğurla başa vuran peşəkar zabit, 1988-ci ildə Zaqafqaziya Hərbi Dairəsinə dönür və N-saylı motoatıcı alayında

xidmətini davam etdirir. O, 1989-cu ildə xidmət etdiyi alayda bölük komandiri vəzifəsinə təyin edilir.

Azərbaycan müstəqillik qazanandan sonra Rövşən Əkbərov öz taleyini Milli Ordumuzla bağlayır. 1990-cı ildən 1992-ci ilə kimi Beyləqan rayonunda hərbi komissarın köməkçisi, sonra isə Azərbaycan Respublikası Silahlı Qüvvələri tərkibində müxtəlif vəzifələrdə çalışır. 1992-93-cü illərdə N-saylı xüsusi təyinatlı əlahiddə hərbi hissənin tabor komandirinin müavini, 1993-95-ci illərdə isə motoatıcı alayın komandiri vəzifələrində işləyir. Bacarığı və yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilən R.Əkbərov 1995-ci ildə N-saylı motoatıcı briqadanın komandiri təyin olunur. 1997-ci ilə qədər həmin vəzifədə çalışır.

Erməni işğalına qarşı döyüşlərdə yaxından iştirak edən igid komandir dövlət çevrilşinə cəhd edən daxili qüvvələrə qarşı (AMON-a qarşı) aparılan əməliyyatlarda da fərqlənmişdir. Bütün bunları nəzərə alaraq Müdafiə nazirinin əmri ilə o, 1997-ci ildə nazirliyin Kadrlar və Hərbi Təhsil İdarəsi rəisinin müavini, 1998-ci ilin may ayında isə Ordu Korpusu komandiri vəzifəsinə təyin edilir. 2002-ci ildən general-leytenantdır. 2011-ci ilin fevralında Şəmkir korpusunun komandiri təyin olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanmasında göstərdiyi şücaətə və igidliyə görə 2 dəfə «Azərbaycan Bayrağı» ordeni ilə təltif

edilmişdir. (14.12.1993-cü il, 59 saylı fərman; 04.04.1995-ci il , 307 saylı fərman).

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 1994-cü il tarixli 215 saylı fərmanı ilə Əkbərov Rövşən Telman oğluna «Azərbaycanın Milli Qəhrəmanı» adı verilmişdir.

Ailəlidir. İki qız, iki oğul atasıdır.

Azərbaycanın bütövlüyü uğrunda canlarından keçmiş bu şəxslərin adları artıq Azərbaycan tarixinə qızıl hriflərlə yazılmışdır. Mərd igidlər yurdu Azərbaycan hələ bundan sonra da öz tarix səlnaməsinə neçə-neçə belə igidlərimizin adını yazacaq, ta ki Böyük Azərbaycan bərqərar olunanadək.

*Dağlıq Qarabağın harasın deyim?*
*İrəvan xanlığının yarasın deyim?*
*Dərbəndi kimlərdən sorasan deyim?*
*Göyçə mahalında qalasan deyim?*
*Ərdəbili göstər, orasın deyim.*
*İsfahan və Təbriz, Xorasan deyim.*
*Ey qürurlu xalqım, əyilmə deyim.*
*Hərbi mundirimi əynimə geyim,*
*Böyük Azərbaycan sözünü deyim!...*

***ARQ***



# AĞDAMIM, QANIM, CANIM



Ağdam rayonu 08 avqust 1930-cu ildə yaradılmışdır. Sahəsi 1094 kvadrat kilometr olan rayonun relyefi əsasən düzənlik, qismən dağlıqdır.

Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir.

"Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. "Ağdam" sözünü həm də Pənahəli xanla əlaqələndirirlər. XVIII əsrin birinci yarısında Qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verir. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ oriyentir rolunu oynayırdı. Bu baxımdan "Ağdam" – günəş şüaları ilə işıqlanan, möhtəşəm ağ ev mənasını da kəsb edir. Ağdam həm də zəngin və qədim tarixə malikdir. Hələ Şimali Azərbaycanda yaranmış Albaniya quldar dövləti ərazisində 26 tayfa var idi ki, bunlardan biri də yüksək mədəniyyətə malik olan Qarqarlar idi. Qarqarlar Ağdamdan keçən Qarqar çayı boyunca məskunlaşmışdılar. Bu da Azərbaycanın ilkin dövlət quruculuğunda Ağdamın rolunun əvəzsiz olduğunu sübut edir.

Ağdam rayon mərkəzi Bakıdan 362 km məsafədə, Qarqar çayının sahilindən 3 km aralı, Qarabağ düzünün cənub-qərbindədir.




**Ağdam rayonunda 1 şəhər - Ağdam, 2 qəsəbə- Quzanlı və Açarlı, 123 kənd var**

***Kəndləri:***

– Eyvazlı, Bağbanlar, İsmayılbəyli, Muğanlı, Pirzadlı, Saybalı, Baş Güneypəyə, Boyəhmədli, Qızıl Kəngərli, Mollalar, Salahlı Kəngərli, Sofulu, Çəmənli, Sarıcalı, Şüküraəğalı, Əfətli, Hacıməmmədli, Hacıturalı, Həsənxanlı, İsalar, Küdürlü, Qəhrəmanbəyli, Məmmədbağırlı, Əhmədağalı, Çıraxlı, Kolqışlaq, Mirəşelli, Əlimədətli, Cinli, Əliağalı, Xaçındərbətli, Kürdlər, Qalayçılar, Mollalar, Göytəpə, Abdınlı, Cavahirli, Kosalar, Gülablı, Abdal, Əhmədavar,

Xındırıstan, Baharlı, Bəybabalar, Birinci Yüzbaşılı, Dadaşlı, İkinci Yüzbaşılı, Kəlbəhüseynli, Paşabəyli, Sarıçoban, İmamqulubəyli, Çullu, Kəngərli, Qaraqaşlı, Şirvanlı, Qaradağlı, Evoğlu, Rzalar, Qasımlı, Qurdlar, Poladlı, Şelli, Baş Qərvənd, Ayaq Qərvənd, Qazançı, Şıxlar, Qiyaslı, Ətyeməzli, Keştazlı, Maqsudlu, Eyvazxanbəyli, Şahbulaq, Salahsəmədlər, Şişpapaqlar, Talışlar, Təpəməhlə, Tərnöyüt, Tükəzbanlı, Məlikli, Orta Qərvənd, Güllücə, İlxıçılar, Suma, Tağıbəyli, Xatınbəyli, Xıdırlı, Çuxurməhlə, Mərzili, Nəmirli, Şoltanlı, Şuraabad, Təzəkənd, Umudlu, Novruzlu, Orta Güneypəyə, Papravənd, Ballar, Sarıcalı, Qarazeynallı, Qullar, Seyidli, Bozpapaqlar, Sarıhacılı, Sırxavənd, Ballıqaya, Bəşirlər, Qaraşlar, Şıxbabalı, Muğanlı, Üçoğlan, Alıbəyli, Baharlı, Qarapirimli, Böyükbəyli, Kiçikli, Orta Qışlaq, Yeni Qaralar, Mahrızlı, Yusifcanlı, Zəngişalı, Yusifli.

***Abidələri:***

1. ***Çıraqtəpə yaşayış yeri*** – tunc dövrü (Ağdam şəhəri)

2. ***Qarahacı yaşayış yeri*** – ilk tunc dövrü (Ağdam-Xankəndi yolunun sağ tərəfində)

3. ***Qarahacılı nekropolu*** – tunc dövrü (Ağdam şəhəri)

4. ***Vəlixantəpə yaşayış yeri*** – eneolit dövrü (Ağdam-Ağcabədi şosesinin 1,5 km-də)

5. ***Kurqan*** – tunc dövrü (Üzümçülük sovxozu)

6. ***İlanlıtəpə yaşayış yeri*** – eneolit – dəmir dövrü (Baş Qərvənd kəndi)

7. ***Dəyirmantəpə kurqanı*** – tunc və dəmir dövrü (Orta Qərvənd və Mirəşəlli kəndlərinin arasında)

8. ***Şomullutəpə yaşayış yeri*** – eneolit dövrü (Miəşrəfli kəndindən 1 km şimal-şərqdə)

9. ***Bənövşələr təpəsi yaşayış yeri*** – eneolit dövrü (Mirəşəlli və Armudlu kəndlərinin arasında)

10.***Gültəpə yaşayış yeri*** – eneolit dövrü (Mirəşəlli kəndindən 300 m. Şimal şərqdə)

11.***Yaşayış yeri*** – e.ə. II-I minilliklər (Armudlu kəndi)

12.***Rəsultəpə yaşayış yeri*** – orta tunc dövrü, orta əsrlər (Armudlu kəndinin şimal qərbində)

13.***Rəsultəpə kurqanları tunc dövrü*** (Armudlu kəndi, Rəsultəpə yaşayış yerinin 30-40 m. şimalında)

14.İ***smayılbəy təpəsi yaşayış yeri*** – eneolit dövrü (Armudlu kəndi)

15.***Kəbləhüseyn yaşayış yeri*** – eneolit dövrü (Kəbləhüseyn kəndi)

16.***Namazəli təpəsi yaşayış yeri*** – eneolit dövrü (Kəbləhüseyn kəndindən 500 m. şərqdə)

17.***Boyəhmədli kəndi kurqanları*** (80-a qədər)- ilk tunc dövrü (Boyəhmədli, Qızıllı Gəngərli və Salahlı Gəngərli kəndlərinin arasında)

18.***Gavurqala yaşayış yeri*** – ilk orta əsrlər (Boyəhmədli kəndinin cənubunda)

19.***Daş qutusu nekropolu*** – ilk orta əsrlər (Boyəhmədli kəndinin cənubunda)

20.***Papravənd-Boyəhmədli kurqanları*** (Möhülü təpələri, Əli kişi təpəsi, Molla Mustafa oğlu təpəsi, həmşəri təpəsi və.s) – tunc-dəmir dövrü- (Boyəhmədli kəndinin şimal-şərqində)

21.***Qarapirim təpələri*** – tunc və ilk dəmir dövrü (Qarapirim kəndinin qərbində)

22.***Güllütəpə*** – I yaşayış yeri – III-XIII əsrlər (Papravənd kəndi)

23.***Güllütəpə*** – II yaşayış yeri – son tunc dövrü, ilk orta əsrlər (Papravənd kəndinin cənub-şərqində)

24.***Misir qışlağı yaşayış yeri*** – son tunc, ilk dəmir dövrü (Papravənd kəndindən 250 m. şərqdə)

25.***Kurqanlar*** – son tunc, ilk dəmir dövrü (Papravənd kəndindən 1 km. şərqdə)

26.***Qala qalıqları*** – orta əsrlər (Tarpaut kəndi)

27. ***Nekropol*** – orta əsrlər (Kənçərli kəndi)

28. ***Şomullutəpə yaşayış yeri*** – e.ə.V-II minilliklər (Quzanlı kəndi)

29.***Gülməmməd təpəsi yaşayış yeri*** – eneolit dövrü (Quzanlı kəndindən 2 km. cənub-şərqdə)

30.***Çaqqallı təpənin yaşayış yeri*** – eneolit dövrü (Quzanlı kəndindən şimal-şərqdə)

31.***Əjdahatəpə yaşayış yeri*** – eneloit dövrü (Quzanlı kəndindən 2,5 km. şərqdə)

32.***Yaşayış yeri*** – e.ə.V-II minilliklər (Zəngişalı kəndi)

33.***Yaşayış yeri*** – e.ə.V-II minilliklər ( Mərzili kəndi)

34.***Nekropol*** – qədim dövr (Seyidli kəndi)

35.***Yaşayış yeri*** – antik dövrü (Əlimədətli kəndi)

36.***Yaşayış yeri*** – antik dövrü (Göytəpə kəndi)

37.***Göytəpə yaşayış yeri*** – tunc dövrü (Göytəpə kəndinin qərbində)

38.***Göytəpə kurqanları*** – tunc dövrü (Göytəpə kəndinin qərbində)

39.***Şümürlütəpə kurqanı*** – tunc dövrü (Əfətli kəndi)

40.***Balatəpə kurqanı*** – tunc dövrü (Əfətli kəndi)

41.***Yaşayış yeri*** – qədim dövr (Sarıhacılı kəndi)

42.***Çinartəpə yaşayış yeri*** – e.ə.V-II minilliklər (Sarıhacılı kəndindən 3 km. cənub-şərqdə)

43.***Sarıhacılı yaşayış yeri və nekropol*** – eneloit, tunc dövrü (Sarıhacılı kəndindən 2 km. cənub-şərqdə)

44.***Sarıhacılı tayı yaşayış yeri*** – tunc dövrü (Sarıhacılı kəndindən 2,5-3 km. şərqdə)

45.***Ağtəpə yaşayış yeri*** – tunc dövrü (Çəmənli kəndindən 3 km. şərqdə)

46.***Çəmənli təpə kurqanı*** – eneolit, tunc dövrü (Çəmənli kəndindən 3 km. şərqdə)

47.***Seyid Mustafa yaşayış yeri*** – eneolit (Bala Baharlı kəndindən 2 km. qərbdə)

48.***Yaşayış yeri*** – e.ə.V-I minilliklər (Baharlı kəndi)

49.***Yaşayış yeri*** – qədim dövr (Əhmədavar kəndi)

50.***Qəhramanbəyli kurqanı*** – tunc dövrü (Qəhramanbəyli kəndi)

51.***I və II Qoşatəpə yaşayış yeri*** – eneolit dövrü (Əhmədağalı kəndi)

52.***Əhmədoğlu yaşayış yeri*** – eneolit (Əhmədağalı kəndi)

53.***Məscidtəpə yaşayış yeri*** – eneloit (Əhmədağalı kəndi)

54.***Əzginlitəpə yaşayış yeri*** – eneloit (Əhmədağalı kəndi)

55.***Vəlibəy təpələri (4 ədəd )*** – eneolit, tunc dövrü və orta əsrlər (Əhmədağalı kəndində 2 km şərqdə)

56.***Yaşayış yeri*** – qədim dövr (Poladlı kəndi)

57.***Qasımtəpə yaşayış yeri*** – ilk tunc dövrü (Qiyaslı kəndi)

58.***Çinartəpə yaşayış yeri*** – tunc dövrü (Qarqarçayın sol sahilində )

59.***Yaşayış yeri*** – e.ə. V-I minilliklər (Evoğlu kəndi)

60.***Qaradağlı kurqanları*** – tunc dövrü (Qaradağlı kəndinin qərbində )

61.***Bəyliktəpə kurqanı*** – ilk tunc dövrü (Qaradağlı kəndinin şimal-şərqində)

62.***Xırmantəpə kurqanı*** – ilk tunc dövrü (Çuxurməhlə kəndi)

63.***Hüseyntəpə kurqanları*** – ilk tunc dövrü (Çuxurməhlə kəndinin qərbində)

64.***Çuxurməhlə kurqanı*** – ilk tunc dövrü (Çuxurməhlə kəndi)

65.***Qaratəpə yaşayış yeri*** – son tunc, ilk dəmir dövrü (Şıxbabalı kəndinin cənubunda)

66.***Gülablı kurqanları*** – son tunc, ilk dəmir dövrü (Gülablı kəndinin şımal-şərqində)

67.***Maqsudlu kurqanları*** – tunc dövrü (Maqsudlu kəndindən 3 km şərqdə)

68.***Töyrətəpə kurqanları*** – tunc və dəmir dövrü (Güllücə kəndinin şimalında)

69.***Karvansara təpə və Çaparyeri yaşayış yeri*** – ilk orta əsrlər (Güllücə kəndinin cənub-qərbində)

70.***Yüzbaşlı təpəsi yaşayış yeri*** – eneolit (Yuxarı Yüzbaşlı kəndi)

71.***Ağabəy təpəsi yaşayış yeri*** – eneolit (Yuxarı Yüzbaşlı kəndinin şımalında)

72.***Abdüləzim təpəsi yaşayış yeri*** – eneolit (Aşağı Yüzbaşlı kəndindən 1,3 km şərqdə)

73.***Şükürbəyli təpəsi yaşayış yeri*** – eneolit (Aşağı Yüzbaşlı kəndindən 2,3 km şımal-şərqdə)

74.***Sarıçoban kurqanları*** – tunc dövrü (Sarıçoban kəndinin qərbində)

75.***Bəşirtəpə yaşayış yeri*** – eneolit (Üçoğlan kəndi)

76.***Böyüktəpə kurqanı və yaşayış yeri*** – tunc dövrü (Üçoğlan kəndi)

77.***Kərimtəpə yaşayış yeri*** – eneolit (Üçoğlan kəndinin şımal-şərqində)

78.***Qəbiristan təpəsi*** – tunc dövrü (Üçoğlan kəndi)

79.***I və II Üçoğlan yaşayış yerləri və kurqanlar*** – tunc dövrü (Sarıçoban kəndi)

80.***Qaçaytəpə yaşayış yeri və nekropol*** – tunc dövrü (Üçoğlan kəndi)

81.***Güllütəpə yaşayış yeri*** – eneolit (Alıbəyli kəndindən 1 km. cənub şərqdə)

82.***Kazımtəpə yaşayış yeri*** – eneolit (Alıbəyli kəndinin qərbində)

83.***Sayadtəpə kurqanı*** – tunc dövrü (Səfərli kəndinin qərbində)

84.***Səfərli təpələri yaşayış yeri*** – eneolit (Səfərlı kəndi)

85.***Leyla təpəsi II yaşayış yeri*** – eneolit (Eyvazlı kəndi)

86.***Nəsirbəy təpəsi yaşayış yeri*** – eneolit (Eyvazlı kəndindən cənub-qərbdə)

87.***Kərimtəpə yaşayış yeri*** – eneolit (Eyvazlı kəndinin şərqində)

88.***Əhəd təpəsi yaşayış yeri*** – eneolit (Eyvazlı kəndinin şərqində)

89.***Düyü təpəsi yaşayış yeri*** – eneolit (Eyvazlı kəndindən 500 m. cənub- şərqdə)

90.***Nazdıxan təpəsi yaşayış yeri*** – eneolit (Eyvazlı kəndindən 1,5 km. cənub-şərqdə)

91.***Çullutəpə kurqanı*** – tunc dövrü (Çullu, İmamqulubəyli və Quzanlı kəndlərinin arasında)

92.***Həsəntəpə kurqanı*** – tunc dövrü (Çullu kəndindən qərbdə)

93.***Sultanbud kurqanı*** – tunc dövrü (İmamqulubəyli kəndinin şimal-qərbində)

94.***Pənah xanın imarəti*** – XVIII əsr (Ağdam şəhəri)

95.***Pənah xanın türbəsi*** – XVIII əsr (Ağdam şəhəri)

96.***Xanoğlu türbəsi*** – XVIII əsr (Ağdam şəhəri)

97.***Türbə*** – XIX əsr (Ağdam şəhəri)

98.***Sərdabə*** – XV əsr (Ağdam şəhəri)

99.***Körpü*** – XIV əsr (Madaqiz kəndi)

100.***Hatəm Məlik qalası*** – XII əsr (Ağdam şəhəri)

101.***Məscid*** – 1868-ci il (Ağdam şəhəri)

102.***Məbəd*** – VI-VIII əsrlər (Şahbulaq kəndi )

103.***Məbəd*** – VI əsr (Kəngərli kəndi)

104.***Məbəd*** – XIII əsr (Tərtər çayının yuxarı axarında)

105.***Türbə*** – XVIII əsr (Papravənd kəndi)

106.***Məscid*** – XVIII əsr (Papravənd kəndi)

107.***İqamətgah*** –XVIIIəsr (Şahbulaq kəndi)

108.***Karvansaray***– XVIII əsr (Şahbulaq kəndi)

109.***Bürc***– XVIII əsr (Şahbulaq kəndi)

110.***Məbəd***– XV əsr (Maqsudlu kəndi)

111.***Türbə***– XVIII əsr (Maqsudlu kəndi)

112.***Məscid***– XVIII əsr (Qiyaslı kəndi)

113.***Məbəd***– XVI əsr (Salahlı Kəngərli kəndi)

114.***Məscid***– XIX əsr (Boyəhmədli kəndi)

115.***Türbə***– XIV əsr (Kəngərli kəndi)

116.***Türbə*** – XIX əsr (Ağdam şəhəri)

117.***Uğurlu bəyin türbəsi*** – XIX əsr (Ağdam şəhəri)

118.***Türbə*** – XIX əsr Ağdam şəhərinin 5 kilometrliyində, Qaraağac qəbiristanlığında)

119.***Gavur Qala şəhərgahı*** – orta əsrlər (Ağdam şəhəri)

120.***Qəbiristanlıq*** – orta əsrlər (Papravənd kəndi)

121.***Qəbiristanlıq*** – orta əsrlər (Qızıllı Kəngərli kəndi)

122.***Abıştəpə yaşayış yeri*** – orta əsrlər (Üçoğlan kəndi

123.***Qulu Musa oğlu türbəsi*** – 1314-cü il (Türbətli kəndi)

124.***Üzərliktəpə yaşayış yeri*** – tunc dövrü (Ağdam şəhəri)

125.***Seyid Lazım Ağanın məqbərəsi*** – XX əsr (Çəmənli kəndi)



Hazırda rayondakı tarixi, mədəni, dini abidələrin əksəriyyəti erməni işğalçıları tərəfindən məhv edilmişdir. Rayonun Xaçındərbənd kəndindəki 1314-cü ildə tikilmiş Qutlu Sarı Musa oğlu Günbəzi, Kəngərli kəndindəki XIV əsrə aid Türbə və Daş abidələr, Papravənd kəndində XVIII əsrə aid günbəz və məscid, Ağdamda İmarət deyilən yerdə XVIII əsrə aid abidələr, o cümlədən Xan qızı Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara vəhşicəsinə dağıdılmışdır. Bundan əlavə, dini ibadətgahlardan rayonun Papravənd kəndində yerləşən Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim və digər ziyarətgahlar darmadağın edilmişdir.

Ermənilər Ağdam rayonunda olan muzeylərdəki eksponatları talayıb aparıblar. Belə muzeylərdən Ağdamdakı Çörək Muzeyi, Tarix Ölkəşünaslıq Muzeyi,



***Erməni vandalizmi nəticəsində viran qalmış Ağdam Çörək Muzeyi***

tarzən Qurban Pirimovun Xatirə Muzeyi, Ağdam Şəkil Qalereyasının adlarını çəkmək olar. Bununla belə, 2002-ci ildə Ağdam Tarix Ölkəşünaslıq muzeyi rayonun işğal altında olmayan Qaradağlı kəndində bərpa edilib.

Ağdamın işğalı güclü iqtisadiyyatı, zəngin mədəni irsi olan bir bölgənin itirilməsi oldu. Ağdamın işğaldan əvvəl 88 min 395 hektar ərazisi, 1 şəhəri, 119 kənd və qəsəbəsi olub. 1993-cü ilədək rayonun 1 736 hektar dövlət meşəsi, 710 hektar kolxoz meşəsi, 560 hektar yol, su və kanal kənarı, şəhərətrafı meşə sahələri var idi.

Ağdam rayonunun ümumi ehtiyatları – 64 863 min kub metr olan mişar daşı, 140 464 min ton Çobandağ əhəngdaşı, 44 708 min ton Boyəhmədli və 25 197 min

ton Şorbulaq gil yataqları işğal olunmuş ərazilərdə qalıb.

Rayon ərazisindən keçən ən iri çay olan Xaçınçayın uzunluğu 104 km, su toplayıcı sahəsi isə 657 kv.kilometrdir.

Ağdam şəhərində yaşı 150-250 ilədək olan 14 ədəd Şərq çinarı, Boyəhmədli kəndi ətrafında isə yaşı 400 ilə çatan 71 ədəd Şərq çinarı təbiət abidəsi kimi qorunurdu.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "İşğal olmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən operativ mərkəz işğaldan sonrakı dövrlərdə rayon ərazisində təbii sərvətlərin ermənilər tərəfindən dağıdılmasına dair aşağıdakı faktları aşkar edib:

– İşğal olunmuş ərazilərdən yaşı 400-ə çatan şərq çinarı növündən olan ağacların doğranaraq Ermənistan istiqamətində aparılması və iri gövdəli ağacların qırılaraq yığıldığı müşahidə edilib.

– Rayonun işğal altında olan Novruzlu, Yusifcanlı, Mərzili, Baş Qərvənd, Kəngərli, Çəlik, Qaradağlı-Kəngərlisi, Göytəpə, Gülçülük kəndlərində və Uzundərə, Yeddixırman, Şahbulaq dağ massivlərində erməni hərbçiləri tərəfindən ümumilikdə 17457 hektar otlaq sahəsi yandırılıb. Yanğın zamanı "Qırmızı kitab"a və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı

siyahısına" düşmüş müxtəlif sayda turac, qırqovul və gürzə məhv olub.

Amerikanın Azərbaycandakı səfiri olmuş Metyu Brayza ATƏT-in Minsk qrupunun həmsədri olduğu dövrdə Ağdamın işğalının 15-ci ildönümüdə işğal altında olan Ağdamı görərək dəhşətə gəldiyini deyir: ***"Ağdamda gördüklərim məni dəhşətə gətirdi. Böyük bir şəhər xarabazarlığa çevrilmişdi. Mən polyakam. Ağdamın işğalı mənə İkinci Dünya müharibəsində Varşavanın düşdüyü günü xatırlatdı. Faşistlər Varşavanı darmadağın etmişdilər"***

Lakin buna baxmayaraq ağdamlılar doğma torpaqlara qayıdacaqları günü səbirsizliklə gözləyirlər...

## TOLERANTLIQ MƏKTƏBİ



Sovetskinin Yuxarı Naqornı küçəsində (indiki Abdulla Şaiq küçəsi), Nəriman Nərimanovun heykəli istiqamətində, qırxpilləkən deyilən bir yer var . Abdulla Şaiq küçəsi ilə gələndə, həmin o qırxpilləkənə çatmamış sol tərəfdə Həbib bəy




Mahmudbəyov adına 2 №li 8 illik beynəlmiləl bir orta məktəb var, indiki adı "Həbib bəy Mahmudbəyov adına 2 saylı Texniki-Hümanitar Elmlər Liseyi"dir. Birinci sinifdən səkkizinci sinfədək, 1979-1987-ci illərdə orda təhsil almışam. Bizə vətənpərvərliyi məhz bu məktəbdə - uşaqlığımın ən xoş xatirələri ilə bağlı olan bu əziz məktəbdə öyrədiblər.

Mən Həbib bəy Mahmudbəyov adına 2 №li məktəbin 80-ci illərinin müəllimlər heyətinə bizə verdikləri biliklərə, tərbiyəyə, göstərdikləri qayğıya, çəkdikləri əziyyətlərə görə dərin təşəkkürümü bildirirəm. Əlxüsus, ibtidai sinif müəllimamiz, bizə ən sevimli, ən mehriban, ən əziz olan, əslən ağdamlı – Südabə müəllimə Mahmudovaya dərin təşəkkürümü bildirirəm. Allah qəni-qəni rəhmət eləsin. Həyatda bir şəxsiyyət kimi formalaşmağımızda, baza biliklərə yiyələnməyimizdə, Vətəni böyük bir məhəbbətlə sevə bilməyimizdə əvəzsiz xidmətlərinə görə sinif rəhbərimiz Azərbaycan dili və ədəbiyyatı müəlliməsi son dərəcə əziz – Məmmədova Kəmalə müəlliməyə,

tarix müəllimimiz, həm də məktəbin direktoru hədsiz dərəcədə sadə bir insan- Arif müəllim Zeynalova (8 il Arif müəllimi eyni qara kostyumda gördüm. Məktəbin pilləkənlərini üç-üç çıxardı yuxarı), hörmətli riyaziyyat müəllimənmiz - Ağayeva Ədilə müəlliməyə, çox mülayim - Tahirzadə Fəridə müəllimeyə, rus dilinə mükəmməl yiyələndiyim üçün, işinə hədsiz can yandıran və məsuliyyətlə yanaşan rus dili müəlliməmiz - Brodskaya Viktoriya Semyonovnaya və digərlərinə hədsiz təşəkkürlərimi bildirirəm. Əsl müəllimlər, əsl insanlar, təmənnasız məxluqlar - qarşınızda baş əyirəm, əzizlərim. Hamınız indiki kimi yadımdasınız və istəyirəm ki, bu kitabı oxuyan hər kəs Sizi tanısın və bir daha yad etsin.

Bu məktəbdə bizimlə yanaşı çoxlu ruslar, ermənilər, tatarlar, yəhudilər və s. millətlərin nümayəndələri təhsil alırdılar. Bu da onu göstərir ki, Azərbaycan həmişə beynəlmiləl, tolerant və humanist dövlət olub. Məhz ona görə də ermənilər necə ki Xankəndində, eləcə də, Azərbaycanın hər yerində rahatlıqla yaşayırdılar. Adekvat millət hesab edərək, digər millətlər kimi onlara da qapılarımızı açmışdıq. Biz millətçi və şovonist bir xalq deyilik, biz millətsevər, qonaqpərvər, qapılarımızı bütün millətlərin üzünə məmnuniyyətlə açan xoşməramlı bir millətik. Ancaq görünür, ermənilər İrəvan Xanlığına, Qarabağa hardan gəlib çıxdıqlarını unudublar.

# İRƏVANDA XAN QALMADI



*İrəvan qalası 1796. (açıqça)*

Ermənilərin Qərbi Azərbaycan ərazisində məskunlaşmaları 1441-ci ildə erməni katolikosluğunun Kilikiya ərazisindən (indiki Türkiyə ərazisi) Qaraqoyunlu dövlətinin torpaqlarına aid olan Qərbi Azərbaycan ərazisindəki Üçkilsəyə (Üçmüəzzin - Ağrı vadisində (dəyişdirilmiş adı Ararat düzənliyi) yerləşən şəhər eramızın II əsrinin II yarısında salınıb) köçürülməsindən sonra başlamışdır.

İrəvan xanlığının əsası XVIII əsrin ortlarında Mir Mehdi xan tərəfindən qoyulmuşdur. Mərkəzi İrəvan şəhəri idi. XIV əsrin sonunda – Teymurilər dövründə

kənd kimi meydana gələn İrəvan XVI əsrdə Şah İsmayılın dövründə (1501-1524) şəhər statusu alır.

Xanlığın mərkəzi İrəvan şəhəri iki hissədən ibarət olmuşdur: Qala və Bayır şəhər. İrəvan qalası 1582-ci ildə çiy kərpicdən Zəngi çayının sol sahilindəki qayada inşa edilmişdir. İkiqat hasarla əhatə olunmuş qalanın birinci qatında 17 bürc qoyulmuşdu. Birinci qatdan 50-70 metr aralı ikinci hasar gəlirdi. Birinci divar ilə ikinci divar arasında dərin arx qazılmışdı. Lazım olduqda arx su ilə doldurulurdu. Qalada 20-22 top vardı. Adi zamanlarda qalanın qarnizonunda 5-7 minlik qoşun yerləşirdisə, müharibə zamanı qoşunun sayı artırılırdı. İrəvan şəhərinin özü – Bayır şəhər İrəvan qalasından şimalda salınmışdı. Bunda məqsəd şəhərin müdafiəsini təşkil etmək idi. XIX əsrin əvvəllərində İrəvan qalasında barıt və silahtökmə zavodları vardı ki, onlar həm top, həm də barıt istehsal



***İrəvan şəhərində vaxtilə mövcud olmuş Hacı Novruzəli (Hacı bəy) məscidi. Məscid ermənilər tərəfindən dağıdılmışdı***

edirdilər. İrəvan xanlığında İrəvan qalasından əlavə, İran ilə Türkiyə ərazisinə yaxın yerdə Sərdarabad qalası da inşa edilmişdi.

XIX əsrin əvvəllərində Rusiyanın işğal etdiyi Şimali Azərbaycan xanlıqları içərisində ən sonda süqut edən İrəvan xanlığı olmuşdur. Lakin 150 ildən artıq idi ki, ermənilər Üçmüəzzin kilsəsinin yerləşdiyi ərazini əhatə edən torpaqlarda erməni dövlətinin yaradılması üçün Rusiya çarlarına müraciət edir, hərbi əməliyyatlara başlamaq üçün onları müxtəlif vədlərlə şirnikləndirirdilər.

"Alınmaz qala" adlandırılan İrəvan qalası rus döyüşçülərinin fasilələrlə 23 il apardıqları müharibələr nəticəsində 1827-ci ildə işğal olunması ilə Şimali Azərbaycan xanlıqlarının hamısı Rusiya işğalı altına



***Təqribən 23 il rus ordusunu lərzəyə salan, ələkeçməz, qəhrəmanlığı ilə adı dillər əzbəri olan görkəmli sərkərdə, Həsən xan – İrəvan Xan Sarayı. Rəsm XIX əsrin əvvəllərinə aiddir***

düşdü. İrəvan qalasının alınmasında yenə də erməni xəyanəti və satqınlığı mühüm rol oynamışdı. Regionun relyefinə bələd olan ermənilər rus hərbçilərinə bələdçilik edir, qalanın zəif müdafiə olunan yerlərini rus hərbçilərinə nişan verir, casusluq fəaliyyəti göstərirdilər.

İrəvan xanlığında türkdilli azərbaycanlıların yerli xalq olması danılmaz həqiqətdir. Bunu Qafqazın ali baş komandanı general Paskeviç rəsmi məlumatlarda da qeyd etmişdir. İrəvan qalasını çox çətinliklə alan general Paskeviç-İrəvanski İrəvan xanlığında əhalinin milli tərkibi haqda verdiyi məlumatda burada 10 min azərbaycanlı, 3 min erməni ailəsinin yaşadığını qeyd etmişdir. ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına – 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin azərbaycanlı olduğunu göstərir.

S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu müsəlmanların, yəni azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) müsəlman, 4.428 ailə (25.151 nəfər) isə erməni idi. Müsəlman dedikdə S.Şopen azərbaycanlıları və müsəlman kürdləri nəzərdə tuturdu.

1828-ci il martın 1-də çar I Nikolayın xüsusi fərmanı ilə rus işğalçıları qədim Azərbaycan torpağı olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisində “Erməni vilayəti” adlı qondarma qurum yaratdılar. Bununla da, tarixi torpaqlarımızda erməni dövlətinin



***İrəvan xanının qardaşı Pənah xanın İrəvan şəhərində yerləşən evi***

yaradılmasının, eləcə də Cənubi Qafqaz bölgəsində yeni münaqişə ocağının yaradılmasının əsası qoyuldu. İrəvan xanlığının süqutu ilə Şimali Azərbaycan çar Rusiyasının, Cənubi Azərbaycan torpaqları isə Qacarlar İranının əsarəti altına düşdü. Azərbaycan bax belə parçalandı, əzizlərim. Rusiya və İran Azərbaycanı aralarında beləcə bölüşdürdülər.

## PARÇALANAN AZƏRBAYCAN

*Bir yarımız İrandadır,*
*Digəri İrəvandadır.*
*Gülüstan sülh sazişinin*
*Adı – sülh, dadı - qan dadır.*

*Böldülər Azərbaycanı,*
*İndi elimiz dardadır.*
*Tökdülər nahaqdan qanı.*
*Söylə ədalət hardadır?*

*İrəvanda xan qalmadı*
*23 il vuruşdular.*
*Damarlarda qan qalmadı*
*Xanlar şəhid olmuşdular.*

*Gəlmişdilər, dolmuşdular*
*Rus ordusu İrəvana.*
*Qana bayis olmuşdular.*
*Çevirdilər Yerevana,*

*Doğma İrəvanımızı.*
*Axıtdılar qanımızı,*
*Qopartdılar canımızı,*
*Sarsıtdılar hamımızı.*

*Kür boyu yaraladılar,*
*Azərbaycanımızı.*
*Məhv eləyib, qaraltdılar,*
*Ağappaq Ağdamımızı…*

***ARQ***

# GÜLÜSTAN VƏ TÜRKMƏNÇAY YARALARINDAN AXAN AZƏRBAYCAN QANI

Azərbaycan tarixinin bütün dövrlərində xalqımız müxtəlif siyasi-hərbi münaqişələrə cəlb edilərək, zaman-zaman əraziləri işğal olunmuş, insanları qətlə yetirilmişdir. Nəticədə xalqın minilliklər boyu formalaşmış mənəvi-dini-milli dəyərlərinə olmazın ziyanı dəymiş, torpaqlarının bir hissəsi əldən getmiş, Cənubi Qafqazın Rusiyaya birləşdirilməsindən sonra isə bu proses daha da sürətlənmişdir.

1722-ci ildə Qarabağdakı erməni məliklər I Pyotru Qafqaza çağırırlar. Bu çağırışdan sonra Pyotr Xəzərsahili torpaqlara işğalçı yürüş edir və həmin əraziləri rus imperiyasına birləşdirir. 1724-cü il noyabrın 10-da I Pyotrun verdiyi fərmana əsasən, ermənilər işğal olunmuş Azərbaycan torpaqlarında yerləşməyə başlayırlar. Rusiya Asiyada maraqları kəsişən Böyük Britaniya və Fransa ilə birləşərək Osmanlı imperiyasını, türk dünyasını çökdürmək üçün erməniləri alətə çevirirdi.

Tariximizin bütün qanlı səhifələri Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsinə gətirib çıxarmış Gülüstan və Türkmənçay müqavilələrindən

başlayır. Rusiyanın Azərbaycana qarşı aqressiv siyasəti rəsmən 1804-1813-cü illər Rus-İran müharibəsi ilə başlayır. 1805-ci ildə Azərbaycanın Qarabağ və Şəki xanlıqları ilə Rusiya arasında Kürəkçay müqaviləsi imzalanır. Müqaviləyə əsasən, bu xanlıqlar Rusiyaya təhkim edilir və müstəqil xarici siyasət yürütməkdən məhrum olunur. 1805-ci ilin axırında Bakı və Şirvan xanlıqları da işğal edilir. Talış xanlığının işğalı ilə Rusiya Şimali Azərbaycanı tamamilə özünə təslim edir. Bundan sonra İranın Rusiya ilə müqavilə bağlaması reallaşır və sülh danışıqları başlayır. 1813-cü il oktyabrın 16-da Gülüstan kəndində, rus ordugahında Azərbaycanın parçalanmasının əsasını qoyan Gülüstan müqaviləsi imzalanır. Bu müqavilə Çar Rusiyasının rəsmən Azərbaycanı işğal etməsini təsdiqləyir və müqaviləyə əsasən, Gəncə, Qarabağ, Şəki, Şamaxı, Quba və Talış xanlıqlarının əraziləri, Şərqi Gürcüstan və Dağıstan da Rusiyaya birləşdirilir. Xəzər dənizində donanma saxlamaq hüququ yalnız Rusiyaya verilir. Həmin vaxt rus çarı I Aleksandr Napoleon Bonaparta qarşı Leypsiqdə müharibədə idi, lakin İranla sulh müqaviləsi ona Fransadan daha vacib bir məsələ idi. Düşünürəm ki, Azərbaycan tarixinin faciəsi məhz bu hadisə ilə başlayır.

1826-cı ildə Qacarın qoşunları Rusiyanın nəzarətində olan Azərbaycan torpaqlarına daxil oldular və Rus-İran müharibəsi yenidən başladı. Döyüşlərdə

Qacarın qoşunları ağır məğlubiyyətlə üzləşir. 1826-cı ilin axırlarında Şəki və Lənkəran xanlıqları da ləğv olunur, 1827-ci ildə Rusiya Azərbaycanın ərazilərini işğal edə-edə Təbrizə qədər irəliləyərək şəhəri işğal edir. 1828-ci ilin yanvar-fevral aylarında isə rus qoşunları Urmiya və Ərdəbilə daxil olurlar.

Rusiya Dərbəndi özünə birləşdirir, Borçalını Gürcüstana, İrəvanı, Zəngəzuru, Göyçəni və Dərələyəzi ermənilərə verir. Nəticə etibarı ilə Azərbaycan torpaqları hesabına sonralar Ermənistan dövləti yaradılır.

1828-ci il fevralın 10-da İngiltərənin səfiri Mak Donaldın vasitəçiliyi ilə Təbriz yolunun üstündə yerləşən Türkmənçay kəndində I Nikolay ilə Fətəli şah arasında sülh müqaviləsi imzalanır. Bununla da Azərbaycanın işğalı başa çatır. Müqavilənin 15-ci maddəsinə əsasən, erməni əhalisinin İrandan Cənubi Qafqaza hərəkətinə icazə verilirdi. Müqavilənin bağlanması münastibətilə dərhal rus toplarından 101 yaylım atəşi açılır. Ertəsi gün "xoş xəbər"i Aleksandr Qriboyedov Rusiyaya çatdırdıqdan sonra Petropavlovsk qalasında da top atəşləri açılır. Bu, o Qriboyedovdur ki, 1818-ci ildə rus missiyasının katibi kimi İrana göndərilir və burada iki il işləyir. 1821-ci ildə İrana qayıtdıqdan sonra general A.Yermolovun komandanlıq etdiyi ordunun diplomatik katibi vəzifəsinə təyin edilir. 1826-cı ildə çar hakimiyyəti tərəfindən dekabristlərin

işi üzrə həbs edilir. O, bütün məxfi sənədləri öncədən məhv etdiyindən günahı sübuta yetirilmir. Bu səbəbdən də azadlığa buraxılır və yenidən Qafqaza qayıdaraq burada diplomatik işdə çalışır. 1827-ci ildə Türkiyə ilə İran arasında danışıqlarda vasitəçi kimi çıxış edir. Türkmənçay müqaviləsinin hazırlanmasında iştirak edir. Bundan sonra isə o, Rusiyanın İranda səfiri təyin edilir.

Rus-İran müharibəsində həlledici sonluq olan Türkmənçay müqaviləsi Azərbaycanı tamamilə param-parça edir. Müqaviləyə əsasən, Araz çayı sərhəd olmaqla Azərbaycanın ərazisi şimal və cənub hissələrinə bölündü. Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlığı, Şərqi Gürcüstan və Dağıstan Rusiyaya təslim edilir.

Gülüstan müqaviləsindən fərqli olaraq, Türkmənçay müqaviləsinin şərtləri daha da ağır idi. Yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının torpaqları "erməni vilayətləri" elan edildi. Halbuki qədim İrəvan torpaqları lap qədimdən türk-müsəlman yurdu olmuş, düşmən qüvvələri qarşısında möhkəm dayanmışdı. Hətta rus-İran müharibəsində burada yaşayan azərbaycanlılar çarın işğalçı qoşunlarına qarşı qəhrəmancasına döyüşmüşdülər. Lakin ermənilərin xəyanəti üzündən İran həmin müharibədə məğlub olmuşdu.

Ermənilər Türkmənçay müqaviləsinin şərtlərindən

çox məmnun idilər. Tarixçilər ermənilər Türkmənçayın övladları adlandırırdılar, çünrki Türkmənçay müqaviləsindən əvvəl ermənilər vətənsiz olublar. Erməni tarixçisi Anahid Terminasın qeyd etdiyi kimi, "ermənilər 1917-ci ilədək Qafqazın heç bir məntəqəsində çoxluq təşkil etməmişlər və onların müəyyən bir əraziləri də yox idi".

O vaxtdan bəri Azərbaycan tarixinin hər səhifəsində erməni vəhşiliyinin izi var. Erməni terrorçuları havadarlarına arxalanaraq bütün dövrlərdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda qan tökmüş, torpaqlarımızı zəbt etmişlər. Adı "sülh müqaviləsi" olsa da, Türkmənçayın vurduğu yaradan, Azərbaycanın qanı hələ də axmaqda davam edir. Gülüstan və Türkmənçay yaraları sağalmır ki, sağalmır. Bu yaralardan axan Azərbaycan qanı hələ də dayanmır ki, dayanmır.

***Qafqazda bir xəstəlik dolaşmaqdadır –***
***erməni xəstəliyi.***

## Qərvənd batalyonundan bir xatirəm:

Qarabağ torpaqlarının qayıtmasını öz gözlərimlə görmək istərdim.

Ağdamdakı babamın yurdunu öz əllərimlə bərpa edərdim.

İsa bulağına bircə kərə çıxsaydım, rahat ölərdim.

Oğluma arzumu vəsiyyət edərdim.

Məni Ağdamda dəfn edin deyərdim.

Başqa nə dərdim var, başqa nə dərdim.

**Allah Azərbaycanı bütün bəlalardan hifz eləsin !**

# İSTİNADLAR:


- AZƏRBAYCAN RESPUBLİKASI AĞDAM RAYON İCRA HAKİMİYYƏTİ (http://agdam-ih.gov.az/)
- Azərbaycan Milli Kitabxanası
- Surxay Əlibəyli - AĞDAMIM–QIBLƏGAHIM (birinci kitab) “Şuşa” nəşriyyatı Bakı-2001, 648 s
- Surxay Əlibəyli - AĞDAMIM–QIBLƏGAHIM (ikinci kitab) “Şuşa” nəşriyyatı Bakı-2005, 704 s
- Qarabağ Yaddaş kitabı. Bakı 2010, MHS- poliqraf
- Dövlət Statistika Komitəsinin məlumatları
- https://myaghdam.wordpress.com/
- Vüqar Əsgərov. "Azərbaycanın Milli Qəhrəmanları" (Yenidən işlənmiş II nəşr). Bakı: "Dərələyəz-M"
- Sərraf Şiruyə, "İgid ölər adı qalar", Gəncə-2002. ("75 yara və ya Dəmir Yelmar" poeması)
- Elbrus Şahmar. "Fazilin Allah dərgahına gedən ömür yolu", "Zərdabi LTD" MMC, Bakı-2011. Tiraj 400
- Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi
- Xalq qəzeti (Çərşənbə axşamı, 10 Fevral, 2015) Firudin CÜMŞÜDLÜ, ADPU-nun Azərbaycan tarixi kafedrasının dosenti, tarix elmləri namizədi
- Ə. Ələkbərli - Qərbi Azərbaycan abidələri, Bakı, 2007Əziz Ələkbərli, "Qədim türk-oğuz yurdu "Ermənistan"", Bakı, "Sabah", 1994
- Aygün Həsənoğlunun “Erməni sindromu”

***Kitab 2013-2015-ci illərdə yazılmış, 2015-ci ildə çapa imzalanmışdır***

*Bu kitabı oxuyan digər millətlərə mənsub olan oxucularıma müraciət edirəm: " Ermənilərin üzünə heç vaxt qapılarınızı açmayın, onlara etibar etməyin, onlara arxa çevirməyin! Bunu ermənilərdən böyük bir xəyanət görmüş, onların separatizmi, aqressiyası ucbatından Xocalı soyqırımına məruz qalmış, ərazisinin 20% -i işğal olunmuş, 1.000.000-dan artıq qaçqını olan, 11.557 hərbçi şəhid verən və minlərlə mülki vətəndaşı ermənilər tərəfindən qadınlara və uşaqlara belə acımadan vəhşiliklə qətlə yetirilən xalqın nümayəndəsi kimi sizi xəbərdarlıq edirəm !*

*Ermənilər hər cür alçaqlığa qadir olan avantürist və separatçı millətdir !"*

*Я обращаюсь к читателям-представителям других наций: «Никогда не распахивайте двери перед армянами, не доверяйте им, не поварачивайтесь к ним спиной! Это говорю Вам я, который видел предательство, сепаратизм, агрессивные действия армян. Я, представитель народа, который в процессе агрессии армян подвергся геноциду в Ходжалы, потерял 20% территории, 11.557 лучших своих сыновей – военнослужащих и тысячи мирных жителей – женщин, детей, стариков, – зверски убитых и замученных агрессорами,в следствии чего количество беженцев составило более 1.000.000 человек.*

*Армяне - это народ авантюристов и сепаратистов, который способен на любую подлость !*

*I appeal to the readers who belong to other nations: "Do not open your doors to Armenians, do not trust them, turn your back to them! I warn you as a representative of the people who collided with the Armenians great betrayal, Khojaly genocide. 20% of Azerbaijan territory was occupied by the Armenian separatists, who still have more than 1.000.000 refugees. Azerbaijan lost in war for Karabakh 11.557 best military officers and thousands of civilian martyrs were brutally killed by Armenians spared neither women nor children!*

*Armenians are a nation of adventurers and separatists who is capable of any meanness! "*

MÜNDƏRİCAT

Giriş ........................................................................3

Patriotizim, Vətən sevgisi, yoxsa intiqam hissi........5

Ağdama gedən yol .................................................16

Qərvənd batalyonu................................................27

Batalyonda ............................................................30

Etiraf.......................................................................57

Son gün...................................................................62

Bakıya doğru ..........................................................71

Növbəti sarsıntı ......................................................88

Ən çox şəhİd verən, Ağdamım................................90

15 oğul İstərəm ......................................................97

Ağdamım, qanım, canım.......................................124

Tolerantlıq məktəbi...............................................139

İrəvanda xan qalmadı ..........................................142

Gülüstan və Türkmənçay yaralarından

axan Azərbaycan qanı .........................................148

İstinadlar:..............................................................154

RİZVAN QORXMAZ OĞLU AXUNDOV

# AĞDAMIM QANIM, CANIM

***Texniki redaktor:***
Ellada Səfərəliyeva

***Çapa məsul:***
Ceyhun Bagırov

Çapa imzalanmış 18.03.2015,
formatı 84x108 1/32, f.ç.v. 10
kağız ofset, tayms qarnituru,
sifariş 35, Sayı 1000 ədəd.

Kitab
«APOSTROFF»
nəşriyyatında nəşrə hazırlanmış və
ofset üsulu ilə çap olunmuşdur.
AZ1000, Azərbaycan, Bakı, H.Zərdabi 71A.
Tel. 00994124325104
E-mail: apostroffprinthouse@bk.ru

